Xalqın qəzeti!

# Xalq qəzeti

№ 272 (30388) 13 dekabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az

# Ümumxalq sevgisinin müqəddəs ünvanı

## Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



**Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatından 20 il ötür.**

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət edib.

Prezident İlham Əliyev Ulu öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı İlham Əliyev Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsini ehtiramla andı, məzarı üzərinə gül dəstələri qoydu.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

(ardı 2-ci səhifədə)

# Avropa İttifaqı nə etmək istəyir?

## Qurumun Ermənistandakı missiyası və ...Cənubi Qafqazda sülhə təhdid

**Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramovun Brüsseldə Avropa İttifaqının (Aİ) xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Jozep Borrell ilə görüşü əsnasında qurumun Ermənistandakı müşahidə missiyasının tərkibinin 138-dən 209-a çatdırılmasına dair qərarı diqqət çəkməyə bilməzdi. Əvvəlcə ölkəmizin baş diplomatiya idarəsinin həmin görüşlə bağlı açıqlamasındakı bir məqama diqqət yetirək.**



Söhbət C.Bayramovun J.Borrellə nəyi bildirməsindən gedir. Nazir ali nümayəndəyə demişdir: "Bakı-İrəvan normallaşma prosesində Aİ Şurasının prezidenti Şarl Mişelin vasitəçilik səyləri Azərbaycan tərəfindən yüksək qiymətləndirilir. Buna baxmayaraq, bəzi Avropa İttifaqı rəsmilərinin verdikləri bəyanatlar qurumun sözügedən prosesdə qərəzsiz vasitəçi roluna xələl gətirir."

Yeri gəlmişkən, vurğulayaq ki, Aİ-də qərəz toxumları səpənlərdən biri, bəlkə elə ən böyüyü J.Borrellin özüdür. Bu yerdə Azərbaycan Prezidenti İlham Əliyevin dekabrın 6-da ADA Universitetində keçirilmiş "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda çıxışı zamanı dilə gətirdiklərinə nəzər salaq: "Təəssüflər olsun ki, Avropada liderlər arasında cənab Borrell, xanım Metsola kimi populist insanlar var. Mən hər zaman açıq danışmağı xoşlayıram. Mən onların yürütdüyü siyasətlə və Azərbaycana olan münasibətləri ilə tamamilə razı deyiləm, narazıyam. Bu, ədalətsizdir və heç də Avropa İttifaqının maraqlarına uyğun deyil".

Göründüyü kimi, Aİ-də özünü birbaşa hədəfə çevirən yalnız J.Borrell deyil. Amma diqqətə çatdırdıqlarımız da dövlətimizin başçısının J.Borrell barədəki fikirlərinin hamısı deyildi: "Hətta ermənilərin özləri etiraf edirlər ki, bu cür təcrübəli Avropa diplomatı yalan danışır.

(ardı 11-cü səhifədə)

# Millətə xidmətin bənzərsiz örnəyi



**Uca dağ zirvələrini bütün aydınlığı ilə görmək üçün onlardan müəyyən məsafəyədək uzaqlaşmaq lazım gəlir. Ətəyində, yamacında olanda zirvələri görə bilmirsən. Böyük şəxsiyyətlər də uca dağ zirvələri kimidir. Yanında olunca yalnız görünən tərəfini görə bilərsən. Ondan uzaqlaşdıqca şəxsiyyətin miqyasını və möhtəşəmliyini dərk edirsən və heyrətlənməyə bilmirsən.**

(ardı 7-ci səhifədə)

# 30 ilin ağrılarını unutduran şəhər – yeni Füzuli



Səhifə ⇨ 14

# Avropaya illik qaz nəqli 12 milyard kubmetrə çatacaq



Səhifə ⇨ 13

# Sülhə "pəl vuran"lar

## *Azərbaycan və Ermənistan arasında sülh bəzilərinin ürəyincə deyil*

**Bunu görmək və anlamaq üçün dərin siyasi savada, yaxud diplomatik təcrübəyə malik olmağa ehtiyac yoxdur. Söhbət heç də şəxsən Nikol Paşinyanın arzu və istəyinin asılı olmadığından deyil, onu Bakı ilə normallaşmaqda olan münasibətləri yenidən gərginləşdirməyə sövq edən kənar güclərdən gedir.**



Biz Ermənistan baş nazirinin qərbli dəstəkçilərdən, xaricdəki daşnak lobbiçilərdən, onların İrəvandakı məxfi agentlərindən, Sorosdan nə dərəcədə asılı olduğunu dəqiq bilməsək də, məqsədləri məlumdur. Bu "çete"nin bütün vasitələrdən yararlanmaqla Cənubi Qafqazı uzunmüddətli qeyri-sabit bölgəyə çevirməyi və bu zaman özlərinin "strateji maraqlarını" təmin etməyi hədəflədiyi heç kəsə sirr deyil. Hadisələrin gedişindən asılı olaraq, Vaşinqton və Parisin bölgədə gərginliyin yaranmasına özlərinin "töhfəsini" verməyə hazır olduqları da nəzərdən qaçırılmamalıdır. Sözsüz ki, belə məkrli cəhdlər bugünədək edilib, bundan sonra da davam etməyəcəyinə təminat yoxdur. Tarix göstərir ki, savaşdan sonra sülhə aparan yol həmişə çətin və ağır olub. İndi İrəvan və Bakı bu yolun finişinə yaxınlaşıblar.

(ardı 12-ci səhifədə)

# Ukraynada döyüşlər yenidən şiddətləndi



Səhifə ⇨ 15

# Uran bahalaşacaqmı?

Səhifə ⇨ 15

# Prezident İlham Əliyev Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



(əvvəli 1-ci səhifədə)

Azərbaycanın ən yeni tarixinin bütöv bir dövrü Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Müstəqilliyimizin dönməz xarakter alması, milli şüurun dirçəlişi, iqtisadiyyatın inkişafı, ordu quruculuğu bu dövrün əsas mahiyyətini təşkil edir. Ümummilli liderin Azərbaycana bəxş etdiklərini tarix boyunca ondan əvvəl heç kim bacarmayıb. Məhz bu dahi şəxsiyyət ölkəmizdə qüdrətli ordu yaratdı, iqtisadiyyatı dirçəltdi, Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı.

Xalqımız Ulu öndərin xilaskarlıq və quruculuq missiyasını unutmur və heç vaxt unutmayacaq. Ötən əsrin 90-cı illərində çox ağır, böhranlı vəziyyətə düçar olmuş Azərbaycan xalqı xilasına, bugünkü tərəqqisinə görə özünü Heydər Əliyevə borclu sayır. Hər il dekabrın 12-də və mayın 10-da Fəxri xiyabanda yaşanan böyük izdiham Ulu öndərin xatirəsinə əbədi ehtiramdan xəbər verir. Azərbaycan xalqı Heydər Əliyev ideologiyasına da, ideallarına da sadiqdir. Bunun davam etdirilməsi sosial çağırışdır. Məhz bu çağırışa cavab olaraq Prezident İlham Əliyevin 2022-ci il 29 sentyabr tarixli sərəncamına əsasən Ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edildi.

Sərəncamda da qeyd olunduğu kimi, Heydər Əliyev dönəmi Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Bu gün Azərbaycan Ümummilli liderin müəyyənləşdirdiyi yolla inamla irəliləyir. Xalqımız Ulu öndərin layiqli davamçısı, Prezident, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə inanır və onu dəstəkləyir. Bu inam və dəstəyin, həmrəyliyin ən bariz nümunəsi 44 günlük Vətən müharibəsində qazanılan Zəfər, bu gün isə Qarabağda və Şərqi Zəngəzurda aparılan möhtəşəm bərpa və quruculuq işləridir.

Ümummilli lider Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu öndərin illər öncə böyük uzaqgörənliklə dediyi bu sözlər yada düşür: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun".

Dahi şəxsiyyətin bu arzusunu və vəsiyyətini onun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı, qüdrətli sərkərdə İlham Əliyev yerinə yetirdi, ölkəmizin ərazi bütövlüyü hərbi-siyasi yolla bərpa olundu. Üçrəngli Bayrağımız yenidən bütövləşən Vətən torpağında qürurla dalğalanmağa başladı.

İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur hazırda yenidən qurulur, ərazilər minalardan təmizlənir, sürətlə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır. Dövlətimizin başçısı, qalib sərkərdə İlham Əliyev böyük və müdrik xalqımıza bu il sentyabrın 19-da növbəti Qələbənin sevincini yaşatdı. Dövlət Bayrağımızı əzəli və əbədi torpaqlarımızda - Xankəndidə, Xocalıda, Xocavənddə, Ağdərədə, Əsgəranda ucaltmaqla xalqımızın arzularını çin etdi. Müstəqil Azərbaycanın suverenliyi tam bərpa olundu.

Görkəmli dövlət xadimi Heydər Əliyev bu gün cismən aramızda olmasa da, onun parlaq ideyaları Azərbaycanın inkişaf yolunu işıqlandırmaqdadır. Ulu öndərin yolu əzmlə davam etdirilir və ölkəmizi inamla irəli aparır. Bu gün ölkəmizin milli maraqlarını qətiyyətlə müdafiə edən Prezident İlham Əliyev uzaqgörən və titanik fəaliyyəti ilə Azərbaycanı dünya miqyasında, o cümlədən Türk dünyasında və bölgədə qüdrətli dövlətə, söz və nüfuz sahibinə, etibarlı tərəfdaşa çevirib.

Əminliklə söyləmək olar ki, Azərbaycan var olduqca Ulu öndər Heydər Əliyevin ideyaları yaşayacaq və daha da inkişaf etdiriləcək.

# Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.**




"Azərbaycan sistemli olaraq iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirləri görür. Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir. Bərpaolunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə ev sahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm.

Biz COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik.

BƏƏ-də COP28-in yüksək səviyyədə təşkil edilməsinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana minnətdarlığımı bildirir və iqlimlə bağlı birgə tədbirlərimizi davam etdirməyimizi səbirsizliklə gözləyirəm".

# Birinci vitse-prezident Mehriban Əliyevanın Ulu öndərin anım günü ilə əlaqədar paylaşımı



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ulu öndər Heydər Əliyevin anım günü ilə əlaqədar paylaşım edib.**

Paylaşımda deyilir: "Heydər Əliyev. Xatırlayırıq, sevirik, hörmətlə anırıq".

# Dövlət və hökumət rəsmiləri Fəxri xiyabanda Ulu öndər Heydər Əliyevin xatirəsini yad ediblər



**Dekabrın 12-si Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günüdür.**

Baş nazir Əli Əsədov, Milli Məclisin sədri Sahibə Qafarova, Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev, digər dövlət və hökumət rəsmiləri, hərbi qulluqçular, hüquq-mühafizə orqanlarının əməkdaşları, diplomatik korpusun nümayəndələri Fəxri xiyabanda Ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək abidəsi önünə gül dəstələri qoyub, müasir müstəqil Azərbaycanın banisi və qurucusu Ulu öndərin xatirəsinə dərin ehtiramlarını bildiriblər.

Ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri qoyulub.

# Ceyhun Bayramov Şərq Tərəfdaşlığı ölkələri nazirlərinin görüşündə

**Xarici işlər naziri Ceyhun Bayramov Brüsselə işgüzar səfəri çərçivəsində Şərq Tərəfdaşlığı ölkələrinin xarici işlər nazirlərinin görüşündə iştirak edib.**

Xarici işlər naziri Ceyhun Bayramov tədbir zamanı çıxışında görüşün ŞT çərçivəsində əməkdaşlığın nəzərdən keçirilməsi, habelə növbəti addımlar baxımından mühüm fürsət olduğunu diqqətə çatdırıb.

Şərq Tərəfdaşlığı prioritetlərinin regionun reallıqlarına, habelə davam edən regional təşəbbüslərə uyğunluğunun vacib olduğunu bildirən nazir Ceyhun Bayramov bu platformanın düzgün yanaşma və mövcud regional inkişaf tendensiyalarına uyğunlaşma yolu ilə Aİ-nin regionla əməkdaşlığına müsbət töhfə verə biləcəyinə inamını ifadə edib.

Bir-birinin suverenliyi və ərazi bütövlüyünün qarşılıqlı tanınması və hörmət edilməsinin Cənubi Qafqazda davamlı sülh, sabitlik və firavanlığa aparan yeganə yol olduğu vurğulanıb.

Aİ-nin Ermənistandakı Monitorinq Missiyasının Ermənistanla Azərbaycan arasında etimada töhfə vermək kimi bəyan etdiyi məqsədlərə nail olmadığı, əksinə Azərbaycan əleyhinə təbliğat vasitəsi kimi geniş şəkildə istifadə olunduğu, Ermənistanı, o cümlədən Aİ vasitəsilə silahlandırmaq kimi daha sabitliyi pozan təşəbbüslərinin Aİ-nin "tərəfsiz vasitəçi" kimi etibarına və ümumiyyətlə, Ermənistan və Azərbaycan arasında normallaşma səylərinə xələl gətirdiyi bildirilib.

***

**Xarici işlər naziri Ceyhun Bayramov Brüsseldə Avropa İttifaqının xarici əlaqələr və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi/ Aİ Komissiyasının vitse-prezidenti Cozef Borrell ilə görüşüb.**

Görüşdə nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında normallaşma prosesi barədə məlumat verib. Son etimad quruculuğu tədbirlərinin iki ölkə arasında normallaşma prosesinə müsbət təsiri qeyd edilib.

***

**Xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığının xarici işlər, Avropa məsələləri, xarici ticarət və federal mədəniyyət institutları üzrə naziri Hadja Lahbib ilə görüşüb.**

Görüş zamanı ikitərəfli münasibətlərin gündəliyində duran məsələlər və cari regional vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

XQ

# 2024-cü ildə GUAM-a sədrliyi Azərbaycan edəcək

**Dekabrın 12-də xarici işlər naziri Ceyhun Bayramov Belçika Krallığına işgüzar səfəri çərçivəsində GUAM xarici işlər nazirlərinin qeyri-rəsmi görüşündə iştirak edib.**



Tədbirdə çıxış edən Ceyhun Bayramov dünyada, o cümlədən GUAM regionunda mövcud təhlükəsizlik problemləri fonunda, Təşkilatın dayanıqlı sülh quruculuğu və inkişaf istiqamətində mühüm platforma rolu oynaya biləcəyini vurğulayıb, bu istiqamətdə, ortaq öhdəliklərə, habelə beynəlxalq hüquq normalarına hörmətin vacibliyini diqqətə çatdırıb.

Nazir Ukrayna ətrafındakı vəziyyətin beynəlxalq hüquq normaları, o cümlədən Ukraynanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin ölkəmiz tərəfindən dəstəkləndiyini qeyd edib. 2024-cü ildən etibarən Azərbaycanın GUAM-a sədrlik edəcəyini diqqətə çatdıran Ceyhun Bayramov, ölkəmizin sədrliyi dövründə Təşkilat çərçivəsində siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, nəqliyyat, bağlantılar, humanitar, turizm və s. digər sahələr üzrə üzv dövlətlər arasında əməkdaşlığın təşviqi istiqamətində səylərini əsirgəməyəcəyini qeyd edib.

Xüsusilə region ölkələrinin nəqliyyat və bağlantılar sahəsində potensialından istifadə olunmasının, bu istiqamətdə GUAM Nəqliyyat Dəhlizi layihəsinin irəlilədilərək Şərq-Qərb nəqliyyat dəhlizinin əhəmiyyətli hissəsinə çevrilməsinin vacibliyi vurğulanıb.

Növbəti ildə Azərbaycanın BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəf Dövlətlərin 29-cu Konfransına (COP29) ev sahibliyi edəcəyi, bu istiqamətdə COP29 çərçivəsində GUAM-ın tədbirinin də təşkil olunmasının nəzərdə tutulduğu bildirilib.

Görüş zamanı, həmçinin 2024-cü il üçün GUAM-ın sədrliyinin Azərbaycana keçməsi, GUAM-ın 2024-cü il üzrə büdcəsi və digər məsələlər üzrə qərarlar təsdiq olunub.

XQ

# Böyük azərbaycanlının xatirəsi

## Fəxri xiyabandan reportaj

**Dünya şöhrətli siyasi xadim, müstəqil Azərbaycan Respublikasının qurucusu Ulu öndər Heydər Əliyevin vəfatından 20 il keçsə də, ölməz xatirəsi bir gün belə unudulmur, xalqımızın xoşbəxtliyi və dövlətçiliyimizin möhkəmləndirilməsi naminə göstərdiyi misilsiz xidmətlər daim qədirbilənliklə yad edilir. Heydər Əliyev ideyaları Azərbaycanımızın zirvə yoluna daim işıq saçır.**



Bir neçə gündür ki, dövlət qurumlarının, nazirliklərin, idarə, təşkilat, şirkət və müəssisələrin kollektivləri, elm və mədəniyyət adamları, paytaxt sakinləri və gənclərin Fəxri xiyabana ziyarətinin ardı-arası kəsilmir. Ümummilli liderin vəfatının 20 illiyi ilə əlaqədar onun məzarı ziyarət edilir, önünə əklillər və çiçək dəstələri düzülür. Əslində, əbədiyaşar liderin məzarının ziyarəti ilboyu davam edir, əhalinin ən müxtəlif təbəqələri bura gəlib dualar oxumağı şərəf borcu sayırlar. Bu müqəddəs məkan həm də gənclərin and yerinə çevrilib. Ölkəmizə qonaq gələn rəsmilər də, bir qayda olaraq, Fəxri xiyabana baş çəkir və unudulmaz dahi şəxsiyyətin ruhuna ehtiramlarını ifadə edirlər. Hər il Heydər Əliyevin doğum və vəfat günlərində – mayın 10-da və dekabrın 12-də isə Fəxri xiyabanda xüsusilə böyük izdiham yaşanır.





Dünən sübh tezdən Fəxri xiyabana başlanmış insan axını da milli qürur duyğularımızın, siyasət nəhənginin xatirəsinə sevgi və sayğılarımızın parlaq ifadəsi idi. Hava xeyli tutqun və yağmurlu olsa da, sanki burada hər kəs Heydər Əliyev Günəşinin işığına qızınırdı. Məşhur mahnının misraları ürəklərdə əks-səda verirdi:

**Sən elə bir zirvəsən,**
**Küləklər neyləyəcək?**
**Dünənim, bu günümsən**
**Səninlədir gələcək!**

Bəli, Ulu öndər Azərbaycanda hakimiyyətdə olduğu hər iki dönəmdə – istər 1969–1982-ci illərdə, istərsə də 1993–2003-cü illərdə üstün siyasəti və heyratamiz zəkası ilə ölkənin inkişafına, iqtisadi qüdrətinin artırılmasına çalışıb, xalqın rifahının yaxşılaşması naminə yorulmaz səylər göstərib. Fenomenal bacarığı sayəsində Azərbaycanın beynəlxalq əlaqələrini genişləndirərək, haqq səsimizi dünyaya yayıb. Şair demişkən, millətimizin xəttinin sayılan imzalar içində olmasını təmin edib. Məhz buna görə Heydər Əliyevin ruhuna ümumxalq sevgisi tükənməzdir...





**Ümummilli liderin ziyarətinə gələnlər arasında tanınmış şəxslər də çox idi. Onlardan biri – Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü, siyasi elmlər üzrə fəlsəfə doktoru Aydın Mirzəzadə XQ-yə açıqlamasında ürək sözlərini bizimlə bölüşdü:**

– Ulu öndər hər birimizin qəlbindədir. O daim xalqın içində olan böyük şəxsiyyət idi, milləti sevən, müasirliyə can atan, eyni zamanda, milli dəyərləri qoruyub saxlayan bir insan idi. Ulu öndər Azərbaycanı sevməyin, millətə, ölkəyə özünü fəda etməyin nümunəsini göstərdi. Unudulmaz milli lider bizim hər birimiz, eləcə də gələcək nəsillər üçün bundan sonra da örnək olacaq. Gənclərimiz Heydər Əliyev işiğının Azərbaycanın qüdrətlənməsində, güclənməsində, nə qədər önəmli olduğunu həmişə öz həyatlarında hiss edəcəklər.

**Dini Qurumlarla İş Üzrə Dövlər Komitəsinin sədri Mubariz Qurbanlı da ulu öndəri ziyarət etdikdən sonra bizə qısa müsahibə verdi:**

– Bu gün biz ulu öndəri böyük ehtiramla anırıq. Allah ona rəhmət eləsin. Ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı üçün seçdiyi yol, onun irsi bizim əbədi yolgöstərənimizdir...

**İlyas Hüseynov, politoloq:**

– Hər il dekabrın 12-də Fəxri xiyabana gəlib ulu öndər Heydər Əliyevin ruhu qarşısında mənəvi borcumuzu ödəmək bizim üçün şərəfdir. Əslində, dahi siyasət liderini hər gün, hər an hörmətlə, ehtiramla anırıq, çünki o, öz idealları ilə daim bizimlədir. Azərbaycan Vətən müharibəsində tarixi qələbə qazandıqdan sonra Ulu öndərin ərazi bütövlüyümüz, suverenliyimiz və sərhədlərimizin toxunulmazlığının təminatı ilə bağlı arzuları tam reallaşdı. Müzəffər Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini layiqincə yerinə yetirdi. Tam əminik ki, bu gün Ulu öndərin ruhu şaddır.

Artıq Azərbaycan qarşısında yeni imkanlar, prioritetlər formalaşır. Bu da Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasıdır. Qalib Azərbaycan vətəndaşları öz faliyyətlərini təmin edirlər, eyni zamanda siyasi, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə hədəflər müəyyənləşdirilir. Əlbəttəki bütün bu uğurların təməlində Ulu öndər Heydər Əliyevin imzası var.

**Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) isə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov da Ümummilli liderin anım günü ilə bağlı fikirlərini söylədi:**

– Bu gün vəfatından 20 il ötən Ulu öndər Heydər Əliyevi hamılıqla yad edir, ölməz ruhuna ehtiramımızı ifadə edirik. Ən yeni tariximizin uğurları onun adı ilə bağlıdır. Azərbaycan xalqının çətin günlərində kənarda qala bilməyib, onu sevənlərin, ona inananların təkidli tələbi ilə Naxçıvandan Bakıya gəldi, ölkənin idarəetməsini sahmana saldı. Bugünkü xoşbəxt həyatımızda Ümummilli liderin əməyi sonsuzdur, xalqımızın müstəqilliyi, dövlətçiliyimizin qorunması sırf onun adı ilə bağlıdır.

Bir qədər sonra yenidən Fəxri xiyabanın qarşısındakı izdihama yaxınlaşıb, ziyarətçilərdən müsahibələr aldıq. Kimisi Ulu öndərlə bağlı həzin xatirələrə dalaraq kövrəldi, kimisi də onun tarixi tale yaddaşımızda əvəzolunmaz rolu, xilaskarlıq, quruculuq missiyası ilə bağlı duyğu və düşüncələrini həvəslə bölüşdü.

**İbrahim İlyaslı, şair-tərcüməçi, Azərbaycan Yazıçılar Birliyi Poeziya seksiyasının rəhbəri:**

– Dünya siyasətinin mahir bilicisi, Türk dünyasının böyük oğlu, qeyri-adi şəxsiyyət olan Ümummilli lider əsl dövlət xadiminə xas fitri istedadı ilə fərqlənirdi. Qədəm basdığı hər yerdə ilahi bir canlanma yaranırdı, xeyir-bərəkət aşıb-daşırdı. O, hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. Mən dünyada elə bir siyasi xadim tanımıram ki, böyüklüyünə Heydər Əliyev qədər saysız-hesabsız şeirlər, nəğmələr qoşulsun. Ulu öndər şeirə, sənətə yüksək dəyər verirdi, bədii nümunələri özünəməxsus bir tərzdə diqqətlə dinləyirdi. Səməd Vurğunun "Azərbaycan" şeirini necə həyəcanla dediyini hamımız yaxşı xatırlayırıq. Mən onu dinlədikdən sonra duyğulanaraq bir şeir yazmışam. Bayaq məzarının üstünə bir cüt tər qərənfil qoydum, indi isə şeirimdən bir bəndi deyim, siz də dinləyin:

**Hər könüldə bəslənmir**
**bir xalqın bütöv səsi,**
**Hər ürəkdə baş vermir**
**sözün vəcdə gəlməsi.**
**Ancaq bir ayrı qürur,**
**bir ayrı heyrət idi**
**Sənin doğma səsində**
**Azərbaycan kəlməsi...**

**Ceyhun Camalov, Vətən Müharibəsi Qəhrəmanı:**

– Heydər Əliyevi sonsuz ehtiramla yad edirik. Bir zabit kimi fəxrlə deyə bilərəm ki, hələ sovet dönəmində Ulu öndər Azərbaycanın müstəqil gələcəyini nəzərdə tutaraq, hərbçi kadrlar hazırlığına xüsusi önəm verib. Bu gün dahi liderin siyasətini Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız, böyük sərkərdəmiz İlham Əliyevin uğurla davam etdirməsi bizim üçün böyük təsəllidir və hamımızı qürurlandırır. Heydər Əliyevin ata vəsiyyəti Qarabağın, o cümlədən Şuşanın işğaldan azad olunması idi. Xoşbəxtik ki, həmin arzunun hyəyata keçməsinə az da olsa, töhfə vermişik.

Heydər Əliyev 1993-cü ildə 2-ci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə gələndə mənim 10 yaşım vardı. Ulu öndər ölkədə sabitlik, əmin-amanlıq yaratdı, atəşkəsə nail oldu, eyni zamanda nizami ordu quruculuğunu həyata keçirdi. Onun hərbçilər qasrşısında vətənpərvərlik mövzusunda çıxışlarını teleekrandan maraqla izləyirdim və bu, mənim də hərbçi peşəsini seçməyimə səbəb oldu. 2020-ci ilin payızında 44 günlük Vətən müharibəsində Böyük Zəfərə də milli liderin uzaqgörən siyasətinin davamı nəticəsində nail olduq. Ulu öndərin ölməz ruhu qarşısında baş əyirəm.

Göründüyü kimi, Ümummilli liderin məzarını ziyarət edənlərin arasında sadə vətəndaşlardan tutmuş, elm, təhsil, siyasət, mədəniyyət sahələrinin adamları da çox idi. Hamısı da ziyarətdən sonra Fəxri xiyabanı qürurla tərk edir, böyük vətənpərvər liderin rununa borclarını vermələrindən xüsusi bir məmnunluq duyurdu.

**Azərbaycanlıların və digər Türkdilli Xalqların Əməkdaşlıq Mərkəzinin sədri İlham İsmayılov dedi:**

– Doğrudan, qürurverici bir gündür. Ulu öndərin ölməz ruhu qarşısında baş əymək böyük şərəfdir. Burada gördüyümüz böyük izdihamın yaşanması dahi rəhbəri heç zaman unutmayacağımıza dəlalət edir. Ötən əsrin 90-cı illərində yenicə müstəqillik yoluna qədəm qoyan Azərbaycanda dövlətçiliyi qoruyub saxlamaq üçün ölkə rəhbərliyinə təcrübəli, qətiyyətli siyasi liderin gətirilməsi olduqca vacib idi və xalqımız haqlı olaraq özünün böyük oğluna müraciət etdi. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə 2-ci dəfə hakimiyyətə gəldi və onun Azərbaycanda siyasi hakimiyyəti, xilaskarlıq missiyası tamamilə fərqli, həlledici bir dövr kimi xarakterizə olunur. Ölkədə hökm sürən böhran, xaos, daxili çəkişmələr Ulu öndəri yolundan çəkindirə bilmədi. Ən ağır məqamlarda Azərbaycan xalqı əmin idi ki, Heydər Əliyev müstəqilliyi, xalqın, dövlətin maraqlarını qoruyacaq, ən düzgün, müdrik qərarlar verəcək və belə də oldu. Bu gün tarix yazan şəxsiyyətin siyasi varisi – Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ata vəsiyyətini yerinə yetirməsi, işğalçıları torpaqlarımızdan qovması və bizi qalib xalq kimi dünyaya tanıtması danılmaz reallıqdır. Məhz ulu öndərin apardığı milli dövlətçilik siyasəti nəticəsində Azərbaycan güclənib, daxili sabitliyi möhkəmlənib. Məhz onun qoyduğu irs Azərbaycanı böyük uğurlara qovuşdurub. Bu il həm də onun 100 illiyidir. Allahdan Ulu öndərə rəhmət diləyirik.

**Rauf Zeyni, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti:**

– Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra qarşısına demokratikləşmə prosesinin başlıca prinsiplərinə əsaslanan idarəetmə sistemini formalaşdırmaq vəzifəsini qoymuşdur. Ümummilli liderin siyasi plüralizm, mətbuat azadlığı, insan hüquqlarının təmini kimi ali meyarlara əsaslanan dövlətçilik siyasəti Azərbaycanın çox qısa zaman ərzində demokratik ölkələr sırasında möhkəmlənməsinə mühüm töhfə vermişdir. Ulu öndər Heydər Əliyev ölkəmizdə vətəndaş cəmiyyətinin qurucusudur desək, qətiyyən yanılmarıq. Ötən 28-30 il ərzində ölkəmiz vətəndaş müharibəsindən vətəndaş cəmiyyəti quruculuğuna doğru çətin və şərəfli tarixi yol keçib. Məhz ulu öndər 2001-ci ildə Azərbaycanda QHT-lər haqqında qanunun qəbul edilməsinin səbəbkarı oldu və bu qərar o dövrdə bütün MDB ölkələrinin tarixində ilk addım idi. Bu gün gözümün qarşısında Ulu öndər Heydər Əliyevin şah əsəri – adı ilə fəxr etdiyimiz müasir müstəqil Azərbaycan dövləti var. Özü də dövlətimizin ideya əsaslarını da azərbaycançılıq ideologiyası təşkil edir.Ümummilli liderin ölməz ideyalarını, onun siyasi kursunu ləyaqətlə davam etdirən cənab Prezident İlham Əliyev Azərbaycanda misli görünməmiş inkişaf və tərəqqi siyasətini həyata keçirir. Heydər Əliyevin əsasını qoyduğu, Prezident cənab İlham Əliyevin böyük məharətlə davam etdirdiyi siyasət hazırkı çox mürəkkəb dövrdə yeganə və alternativsiz siyasət olduğu üçün Azərbaycanın gələcək inkişaf və tərəqqisinə təminat verir.

**Ramil Əliyev, "İnkişafa və İslahatlara Dəstək" İctimai Birliyinin sədri:**

– Bu gün Ulu öndərə mənəvi borcumuzu verməyə gəlmişik və burada olmaqdan qürur duyuruq. Bu il bu dahi şəxsiyyətin 100 illiyi və bizlərdən cismən ayrılmasının 20 illiyidir. Əlbəttə, onun xarirəsi bizim üçün çox dəyərlidir. Ən çətin anlarında Ümummilli lider xalqından güc aldı, ona arxalandı. Xalq da ona dəstək verməkdən çəkinmədi. Ulu öndərin dövlət, ordu, təhsil, mədəniyyət, elm quruculuğunda qısa zamanda həyata keçirdiyi islahatlar tezliklə bəhrəsini verdi və Azərbaycan görünməmiş sürətlə inkişaf etdi. Ümummilli lider yeri ona görə ürəyimizin başındadır ki, Azərbaycanın o dövrkü ağır, mürəkkəb və gərgin vəziyyətinə baxmayaraq, bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etdi.

Azərbaycan xalqının əbədi məhəbbətini qazanmış Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi hər zaman yaşayacaqdır. Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş dahi lider öz titanik fəaliyyətində Azərbaycanı ucaltdı və özündən sonra ən layiqli liderə Vətəni əmanət etdi. Tanrıdan rəhmət diləyirik, ruhu şad olsun!

Bəli, müsahiblərimizin də vurğuladıqları kimi, Türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində əbədiyaşar liderin məzarı xalqımızın əbədi ziyarətgahına, gənclərin müqəddəs and yerinə çevrilib.

**Nə qədər Azərbaycan,**
**Nə qədər bu millət var**
**Heydər xalqım deyəcək,**
**Xalq Heydər söyləyəcək!**

*Əli NƏCƏFXANLI,*
*Anar TURAN,*
*Ayşən AZADOVA*
*XQ*

# DTX kollektivi Ulu öndərin məzarını ziyarət edib



**DTX əməkdaşları Azərbaycan təhlükəsizlik orqanlarının fəxri rəhbəri, müasir dövlətçiliyimizin xilaskarı, xalqımızın Ümummilli lideri Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Fəxri xiyabanda Ulu öndərin məzarını ziyarət etmişlər. Bu barədə XQ-yə DTX mətbuat xidmətindən məlumat verilmişdir.**

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyev və DTX-nın şəxsi heyəti Ulu öndərin əziz xatirəsinə dərin ehtiramlarını bildirərək məzarı önünə əkil və gül dəstələri qoymuşlar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunmuş, məzarı üzərinə gül dəstələri düzülmüşdür.

***XQ***

# Prokurorluq əməkdaşları Fəxri xiyabanda

**Dekabrın 12-də müasir Azərbaycan dövlətinin qurucusu və memarı, dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin anım günü ilə bağlı Baş prokuror Kamran Əliyev, prokurorluğun rəhbər heyəti və prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər.**



Ulu öndərin məzarı önünə gül dəstələri qoyulub, əziz xatirəsi dərin ehtiramla anılıb.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad edilib, məzarı üzərinə gül dəstələri qoyulub.

***XQ***

# Paytaxt müstəqilliyimizin banisini dərin ehtiramla yad etdi

## Fövqəladə Hallar Nazirliyi

**Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar keçirilən tədbirdən əvvəl Dövlət himni səsləndirilib, Ulu öndərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Toplantıda çıxışçılar dahi şəxsiyyətin şərəfli həyat yolu və zəngin ictimai-siyasi fəaliyyəti haqqında ətraflı danışıblar. Natiqlər dahi rəhbərin xalqa və Vətənə sonsuz sevgisinin, Azərbaycan dövlətçiliyinə hədsiz sədaqətinin indiki və gələcək nəsillərə böyük örnək olduğunu bildirib, səksən illik mənalı həyatında xalqa xidmət yolunda əsrlərə sığmayacaq qədər böyük tarixi işlər gördüyünü diqqətə çatdırıblar. Sonda Ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.





## Energetika Nazirliyi

**Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım tədbirindən əvvəl nazirliyin rəhbərliyi və kollektivi Fəxri Xiyabana gedərək dahi liderin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyaraq əziz xatirəsini dərin ehtiramla yad ediblər.**

Toplantıda Azərbaycanı tarixinin ən çətin dövrlərində iqtisadi tərəqqiyə, siyasi yüksəlişə və mədəni intibaha aparan dahi rəhbərin uzaqgörən siyasətinin nailiyyətlərindən danışılıb. Sonda müdrik dövlət xadiminin 100 illik yubileyi ilə əlaqədar nazirlik üzrə təsdiqlənmiş təqvim planının icrasına dair təqdimat nümayiş etdirilib, görülən tədbirlər barədə hesabat dinlənilib.

## Azərbaycan Dövlət Pedaqoji Universiteti

**Ulu öndər Heydər Əliyevin anım gününə həsr olunmuş konfransda çıxış edən universitetin rektoru professor Cəfər Cəfərov bildirib ki, XX əsrin sonu– XXI əsrin əvvəllərində Azərbaycana Heydər Əliyev kimi təcrübəli bir dövlət başçısının rəhbərlik etməsi xalqımızı böyük bəlalardan qurtardı.**

Mərasimdə bildirilib ki, məhz dahi şəxsiyyətin müdrikliyi, iradəsi və qətiyyəti sayəsində vətəndaş müharibəsi və etnik separatizm təzahürlərinin qarşısı alındı, hakimiyyəti zorakı yollarla devirmək praktikasına birdəfəlik son qoyuldu, ölkədə davamlı ictimai-siyasi sabitlik bərqərar edildi. Mərasim Ümummilli liderə həsr olunmuş sənədli film nümayişi ilə davam edib. Sonra "Heydər Əliyev və Azərbaycanda dinlərarası dialoq", "Türk dünyasının birliyinin möhkəmlənməsində Heydər Əliyevin rolu", "Heydər Əliyev və Azərbaycanda gənclər siyasəti" mövzusunda məruzələr dinlənilib.

## AMEA Folklor İnstitutu

**AMEA-nın Folklor İnstitutunda Ulu öndər Heydər Əliyevin anım günü ilə bağlı keçirilən tədbirdən öncə dahi şəxsiyyətin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Toplantıda çıxış edənlər Heydər Əliyevin müasir müstəqil dövlətimizin qurulmasında misilsiz xidmətlərindən danışıb, onun hakimiyyətinin həm sovet, həm də müstəqillik dövründə Azərbaycan dilini, ədəbiyyatını daim dəyərləndirdiyini, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda folklor şöbəsinin məhz Ulu öndərin xeyir-duası ilə ayrıca bir instituta çevrildiyini bildirib, həmçinin onun Azərbaycan elminə verdiyi dəyərdən, ədəbi-mədəni irsin qiymətləndirilməsi və sistemli şəkildə təbliğ olunması sahəsində gördüyü işlərdən söz açıblar.

## Ədəbiyyat Muzeyi



**Mədəniyyət Nazirliyi Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində Ümummilli lider Heydər Əliyevin vəfatının 20 illinə həsr olunmuş anım günü ilə əlaqədar "Əbədi ömrün ilk əsri" adlı elmi sessiya keçirilib.**

Əvvəlcə tədbir iştirakçıları muzeyin "İstiqlal" zalında təşkil edilmiş Ulu öndərin həyat və fəaliyyətini əks etdirən sərgi ilə tanış oldular. Sonra muzeyin direktoru akademik Rafael Hüseynov dünya şöhrətli azərbaycanlı, görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən danışıb. Bildirib ki, Azərbaycan nə qədər müstəqil olacaq, istiqlalımız nə qədər davam edəcək Heydər Əliyev də həmişə xalqın yaddaşında hörmət və ehtiramla xatırlanacaq.

## Milli Kitabxana

**Ümummilli liderin anım günü ilə bağlı keçirilən tədbirdə əvvəlcə dahi şəxsiyyətin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Toplantıda çıxış edən kitabxananın direktoru, professor Kərim Tahirov Ulu öndərin Azərbaycanı parçalanmaqdan qurtardığını, onun ideyalarının bu gün də yaşadığını deyib. Bildirib ki, Azərbaycan xalqı, müstəqil Azərbaycan dövləti yaşadıqca Ümummilli liderin əziz xatirəsi də daim xatırlanacaq, unudulmayacaq.

Daha sonra tədbir iştirakçıları təşkil olunmuş sərgiyə baxıblar. Sərgidə kitabxananın fondunda qorunan dahi şəxsiyyətin həyatının müxtəlif dövrlərini əks etdirən kitablar və sənədlər nümayiş olunub.

## Yüksək Texnologiyalar Parkı

**Dahi rəhbərin anım günü ilə əlaqədar tədbir ulu öndərin müəssisədəki büstü önünə gül dəstələri qoyulmaqla başlanıb. Sonra Ümummilli liderin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**

Mərasimdə Yüksək Texnologiyalar Parkının direktoru, iqtisad üzrə fəlsəfə doktoru Vasif Abbasov çıxış edərək vurğulayıb ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi bütün dövrlər möhtəşəm quruculuq, tərəqqi və hərtərəfli inkişaf mərhələləri kimi şanlı tariximizin qızıl səhifələridir. Xalqımızın və dövlətimizin əldə etdiyi saysız uğurların təməlində Heydər Əliyev siyasəti və onun işıqlı əməlləri dayanır. Ümummilli liderin siyasi kursu Prezident İlham Əliyev tərəfindən qətiyyətlə davam etdirilir.

Tədbirdə digər çıxış edənlər Heydər Əliyev şəxsiyyətinin böyüklüyündən, Azərbaycanın inkişafı üçün həyata keçirdiyi islahatların əhəmiyyətindən, ölkəmizin beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində görkəmli şəxsiyyətin misilsiz xidmətlərindən bəhs ediblər.

***Hazırladı:***
***Vaqif BAYRAMOV***
***XQ***

# Dubay COP29 estafetini Azərbaycana verdi





**Dekabrın 11-də Dubayda Azərbaycanın 2024-cü ildə COP29-a ev sahibliyi etməsi münasibətilə mərasim təşkil olunub.**

Dubaya ezam olunmuş xüsusi müxbiri xəbər verir ki, COP28 çərçivəsində fəaliyyət göstərən Azərbaycan pavilyonunda təşkil olunan tədbirdə Prezidentin köməkçisi Anar Ələkbərov, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və digər ölkələrdən olan qonaqlar iştirak ediblər.

Sonra tarzən Şəhriyar İmanovun rəhbərliyi ilə Azərbaycanın milli kompozisiyalarından ibarət konsert proqramı təqdim olunub.

***XQ***

# UNESCO-da Azərbaycanın qətnaməsi qəbul olunub

**Dekabrın 11-də UNESCO-nun mənzil-qərargahında silahlı münaqişə zamanı mədəni mülkiyyətin qorunması üzrə 1954-cü il Haaqa Konvensiyasına Tərəf Ölkələrin 15-ci görüşü keçirilib.**

Görüşün gündəliyinə Azərbaycan tərəfindən daxil edilmiş "Minaların mədəni irsə təsiri" mövzusunda qətnamə layihəsi Konvensiyaya 135 Tərəf Ölkənin yekdil qərarı ilə qəbul edilib.

Qətnamədə silahlı münaqişələr və postmünaqişə dövrlərində mədəni mülkiyyətin (mədəni irsin) qorunması və mühafizəsi məqsədilə üzv dövlətlərin göstərdiyi səylər təqdir edilir, minaların və digər partlayıcı qurğuların beynəlxalq humanitar hüquqa zidd olaraq istifadənin mədəni mülkiyyətə əhəmiyyətli dərəcədə ziyan vura biləcəyi qeyd olunur.

Sənəddə minalar və digər partlayıcı qurğuların istifadəsinin mədəni mülkiyyətə qarşı ciddi təhlükə yaratması ilə bağlı narahatlıq ifadə olunur.

Qeyd edək ki, minaların mədəni irsə təsiri mövzusu UNESCO tarixində müzakirəyə çıxarılan və yekdilliklə qəbul edilən ilk qətnamədir. Bununla yanaşı, eyni məzmunlu bənd sözügedən konvensiyanın tarixində ilk dəfə olaraq Azərbaycan tərəfindən gündəliyə daxil edilib.

***XQ***

# AZƏRTAC Fransa mediasının yalanlarını rədd edir

**Fransa mətbuatında, guya, AZƏRTAC-ın əməkdaşlarının Yeni Kaledoniyaya Fransada sabitliyi pozmaq üçün göndərildiyi, hətta onların "casus" olmaları barədə dezinformasiya tirajlanır.**


La visite de Sébastien Lecornu visée par une campagne de déstabilisation de l'Azerbaïdjan

À lire aussi :

Bu barədə Agentlik məlumat yayıb.

"AZƏRTAC-ın iki jurnalisti redaksiya tapşırığını yerinə yetirmək üçün 2023-cü il dekabrın 3-də Yeni Kaledoniyaya ezam olunmuşdular. Onlardan biri viza bəhanəsi ilə ölkəyə buraxılmayıb, bir sutka polis nəzarətində saxlanıldıqdan sonra ölkədən çıxarılıb. Uzun müddətdir ki, jurnalist fəaliyyəti ilə məşğul olan əməkdaşlarımıza "casus" damğasının vurulması qəbuledilməzdir.


INFO EUROPE 1 - Indopacifique : l'Azerbaïdjan a mené une opération de déstabilisation lors de la visite de Sébastien Lecornu en Nouvelle-Calédonie



Indo-Pacifique : nouvelle tentative de déstabilisation de l'Azerbaïdjan lors d'une visite de Sébastien Lecornu

Jurnalistimizə qarşı edilən haqsızlıqdan və bunun bütün dünyaya yayılmasından sonra belə bir yazının meydana çıxması onu göstərir ki, bu dezinformasiyanın arxasında Fransa rəsmi qurumları dayanır.

AZƏRTAC məqalədə qeyd olunan absurd və cəfəng iddiaları qəti şəkildə rədd edir və bunu təxribat xarakterli feyk informasiya sayır. Fransa mediasının bu cür dezinformasiya yaymasını azad mətbuat göstəricisi yox, məhz beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq və həqiqətləri gizlətmək cəhdi kimi qətiyyətlə pisləyirik" – deyə məlumatda bildirilir.

***XQ***

# Bölgələrdə Ulu öndərin xatirəsinə sonsuz ehtiram





## NAXÇIVAN

Dünən Naxçıvan Muxtar Respublikasında Ümummilli lider Heydər Əliyevin anım günü dərin hüznlə, xalqımızın dahi oğlunun xatirəsinə sonsuz sevgi duyğuları ilə qeyd edilib.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli, Ali Məclisin, Nazirlər Kabinetinin, Naxçıvan Şəhər İcra Hakimiyyətinin, muxtar respublika ictimaiyyətinin təmsilçiləri müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül qoyub, Ulu öndərin xatirəsini dərin ehtiramla yad ediblər.

Həmin gün Naxçıvan şəhərindəki Gənclik Mərkəzində Naxçıvan Televiziyasının hazırladığı "Ömrün Naxçıvan aşırımları" filminə baxış olub. Nadir kadrlar və şahidlərin müsahibələri əsasında hazırlanan sənədli ekran əsəri dahi rəhbərin siyasi və dövlətçilik fəaliyyətinin Naxçıvan dövrü, Azərbaycanın gələcək inkişafı naminə göstərdiyi misilsiz xidmətlər barədə əhatəli təəssürat yaradıb.



## GƏNCƏ

Gəncədə keçirilən tədbirdə şəhər rəhbərliyi, ictimaiyyət nümayəndələri Ümummilli liderin Heydər Əliyev Meydanında ucaldılan abidəsini ziyarət edib, əziz xatirəsinə dərin hörmət və ehtiramlarını bildiriblər.

Ulu öndərin Gəncənin Heydər Əliyev Mərkəzində ucaldılan abidəsi də ziyarət olunub. Gün ərzində minlərlə şəhər sakini müstəqil Azərbaycanın memarı və qurucusuna ehtiramını bildirib, abidəsi önünə gül dəstələri qoyub. Eyni zamanda, Heydər Əliyev Meydanında quraşdırılan böyük monitorda Ulu öndərin həyatından bəhs edən videoçarx nümayiş olunub.

## SUMQAYIT

Gənclik şəhərində anım mərasiminin iştirakçıları Heydər Əliyevin abidəsini ziyarətdən sonra Ulu öndərin adını daşıyan Mərkəzdə dünya şöhrətli şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən eksponatlarla tanış olub və sənədli filmi izləyiblər.

Vurğulanıb ki, Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə 16 dəfə Sumqayıta səfər edib. Bu səfərlər Ulu Öndərin Sumqayıta və sumqayıtlılara böyük diqqətinin təzahürü olub, şəhərin inkişafında böyük rol oynayıb.

Bu gün inkişafının yeni mərhələsini yaşayan Sumqayıtda Prezident İlham Əliyevin diqqəti və qayğısı nəticəsində şəhərin sürətli inkişafı təmin olunub, Sumqayıt sənaye mərkəzi kimi əvvəlki şöhrətini yenidən bərpa edib. Sumqayıtın bugünkü inkişafı göstərir ki, Heydər Əliyevin arzuları gerçəkləşir, ideyaları reallığa çevrilir.

## MİNGƏÇEVİR

Ulu öndər Heydər Əliyevin anım günü münasibəti ilə dünən Mingəçevirdə də anım mərasimi keçirilib.

Şəhərin rəhbərləri, idarə, müəssisə və təşkilatların kollektivləri, Ulu öndərin şəhərdə ucaldılan abidələri önünə gül dəstələri düzərək ehtiramlarını bildiriblər. Unudulmaz dahi şəxsiyyətin xalq və dövlət qarşısında xidmətləri xatırlanıb.

## ŞİRVAN

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Şirvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə ehsan süfrəsi açılıb.

Şəhər rəhbərliyinin, ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə Ulu öndər Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Mərasimdə Ulu öndərin xalqımız qarşısında müstəsna xidmətlərindən danışılıb. Şirvan şəhər M.Osmanov adına 20 nömrəli tam orta məktəbin şagirdləriisə ədəbi-bədii kompozisiya ilə çıxış ediblər.

## LƏNKƏRAN

Lənkəranda müasir Azərbaycan dövlətinin memarı və qurucusu Ümummilli lider Heydər Əliyevin anım gününün 20-ci ildönümü dahi rəhbərin ruhuna böyük ehtiramla qeyd olunub.

Şəhər rəhbərliyi, ictimaiyyətin müxtəlif təbəqələrinin nümayəndələri Ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri qoyub, sevgi və saygılarını ifadə ediblər. Sonra Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin qarşısında Ulu liderin adını daşıyan muzeyi ziyarət olunub. Lənkəran Dövlət Dram Teatrında şair-dramaturq Qəşəm Nəcəfzadənin ulu öndərin xatirəsinə həsr etdiyi "İki iyirmi üç arasında" əsəri əsasında eyniadlı tamaşaya baxılıb. Anım tədbirləri silsilə şəklində gün ərzində davam etdirilib.



## QUBA

Böyük dövlət xadimi, Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Quba şəhərində onun adını daşıyan mədəniyyət və istirahət parkındakı möhtəşəm abidəsi ziyarət edilib. Sonra Heydər Əliyev Mərkəzində "Əbədiyaşar Lider" mövzusunda tədbir təşkil olunub. Tədbirdə çıxış edənlər Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinə geniş nəzər salıb, xalq və dövlət qarşısında xidmətlərini qeyd ediblər. Daha sonra tədbirdə "Azərbaycanın memarı" filmi nümayiş etdirilib.

## ŞƏMKİR

Rayon rəsmiləri, idarə, təşkilat və müəssisə kollektivləri əbədiyaşar dahi şəxsiyyət Heydər Əliyevin Şəmkir şəhərinin mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri düzüb, əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Mərasimdə Heydər Əliyevin Azərbaycan üçün müstəsna xidmətlərindən, müstəqilliyin qorunması, ölkənin hərtərəfli tərəqqisi uğrunda gördüyü işlərdən ətraflı bəhs edilib. Bildirilib ki, Ümummilli liderin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü siyasət bizi daha da qüdrətli və yenilməz bir dövlətə çevirir.

## ZAQATALA

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Zaqatala rayonunda da dərin hörmət və ehtiramla yad edilib. Sonra Heydər Əliyev Mərkəzində "Zəfərlərimizin banisi – Heydər Əliyev" mövzusunda elmi-praktik konfrans keçirilib və Ulu öndərə həsr olunmuş film nümayiş etdirilib.

Ulu öndərin vəfatının 20-ci ildönümü ilə əlaqədar anım tədbiri gün ərzində davam edib. İctimaiyyət nümayəndələri Heydər Parkına gələrək, ölməz rəhbərin ruhuna tükənməz sayğılarla onun abidəsi önünə gül-çiçək düzüblər.





## AĞSTAFA

Ağstafada "Heydər Əliyev qəlblərimizdə əbədi yaşayacaq" mövzusunda ümumrayon mərasimi keçirilib.

Mərasim iştirakçıları Heydər Əliyev Mərkəzinin qarşısında Ulu öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər. Sonra Mərkəzin foyesində dahi liderin zəngin və mənalı ömür yolundan, Vətən, xalq qarşısındakı misilsiz xidmətlərindən bəhs edən filmə və ekspozisiya zalındakı tarixi fotolara tamaşa olunub.

## MASALLI

Dünən səhər saatlarından başlayaraq Masallı şəhərindəki Heydər Əliyev Parkında Azərbaycan Xalqının Ümummilli lideri Heydər Əliyev ehtiramla anılıb.

Mərasimdə rayon rəhbərləri, ziyalılar, din xadimləri, Qarabağ müharibəsi veteranları, ictimaiyyət nümayəndələri iştirak ediblər. Ziyarətçilər dahi rəhbərin abidəsi önünə tər gül dəstələri düzərək xatirəsini yad edib, ruhuna dualar oxuyublar.

## GÖYÇAY

Dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anım günü Göyçay rayonunda dərin hörmət və ehtiramla anılıb. Ulu öndərin şəhərin mərkəzində ucalan abidəsi ziyarət edilib, xatirəsinə dərin ehtiram ifadə olunub.

Bildirilib ki, qalib Azərbaycanın bugünkü qüdrəti və inkişafı Heydər Əliyevin sarsılmaz polad iradəsi, qətiyyətli fədakar əməyi, düşünülmüş və məqsədyönlü siyasətinin məntiqi nəticəsidir. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir tariximizin şanlı və qürurverici səhifəsi olan Vətən müharibəsi zamanı tarixi Zəfər qazanmağımız buna əyani sübutdur.



## SAMUX

Samuxda da müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimində rayon ictimaiyyəti nümayəndələri ölməz rəhbəri dərin ehtiramla yad ediblər.

Ulu öndər Heydər Əliyevin Heydər Parkında ucaldılan abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb və əziz xatirəsi ehtiramla yad edilib.

## GƏDƏBƏY

Müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi, xalqımızın Ümummilli lideri Heydər Əliyevin əziz xatirəsinə ehtiram əlaməti olaraq Gədəbəydə də ümumrayon tədbiri keçirilib.

Rayon rəhbərləri, idarə, müəssisə və təşkilatların nümayəndələri Ulu öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

## GÖYGÖL

Anım Günü rayonda Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilmiş növbəti ağacəkmə aksiyası təşkil olunub.

İməcilikdə idarə, müəssisə və təşkilat kollektivləri, ictimaiyyət nümayəndələri ilə bərabər, qazilər, şəhid ailələr və gənc könüllülər iştirak ediblər. Rayonun Üçtəpə kəndi ərazisində təşkil edilmiş aksiyada 3 mindən çox müxtəlif növ ağac əkilib və damcılı suvarma sistemi quraşdırılıb.

## BALAKƏN

Rayon Mədəniyyət Mərkəzində keçirilən anım günündə Ulu öndər Heydər Əliyevin zəngin və mənalı həyatına, onun siyasi fəaliyyətinə, xalqımız qarşısındakı xidmətlərinə həsr olunan film nümayiş etdirilib, məruzə dinlənilib.

Mərasim rayon mədəniyyət işçilərinin ifasında ədəbi-bədii kompozisiya ilə davam etdirilib.

## QAX

Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü Qax rayonunda da böyük ehtiramla anılıb.

Rayon rəhbərliyi, YAP fəalları, hüquq-mühafizə orqanlarının rəhbərləri, ayrı-ayrı idarə, müəssisə və təşkilatların təmsilçiləri Ulu öndərin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. Sonra rayonun Heydər Əliyev Mərkəzində "Xalqa bağışlanan ömür" mövzusunda elmi-praktik konfrans keçirilib. Ardınca Ulu öndərin örnək həyat və fəaliyyətinə həsr olunmuş videolent nümayiş olunub.

Ulu öndər Heydər Əliyevin anım günündə ölkənin digər şəhər və rayonlarında da müxtəlif mərasimlər keçirilib, müstəqil dövlətimizin banisinin ölməz xatirəsinə ümumxalq ehtiramı sərgilənib.

## LAÇIN

İşğaldan azad edilmiş Laçında Ümummilli lider Heydər Əliyevin xatirəsi anılıb. "Lacinema" Kino Mərkəzində H.Əliyevin 100 illiyinə həsr olunmuş "Heydər Əliyev Azərbaycandır!" sənədli filminin təqdimatı keçirilib.



Mərasimdə 31 il davam edən işğaldan sonra doğma yurd-yuvalarına qayıtmış sakinlər böyük siyasətçinin zamanı qabaqlayan dühasından söz açılıb. Ölkənin ən çətin günlərində, öz Vətənində köçkün kimi yaşamaq məcburiyyətində qalmış laçınlılarla görüşdə H.Əliyevin söylədiyi ümidverici, nikbin fikirlərin gerçəkləşdiyi vurğulanıb. Bildirilib ki, Qarabağ müharibəsində, Ali Baş Komandanın iradəsi ilə Müzəffər Ordumuzun qazandığı parlaq qalibiyyətdən sonra, çox qısa müddət ərzində quruculuq sahəsində atılan addımlar daha bir Zəfər salnaməsi sayıla bilər.

***Tahir AYDINOĞLU,***
***Əli NƏCƏFXANLI,***
***Hamlet QASIMOV,***
***İlqar HƏSƏNOV***
***XQ***

# Ümummilli liderin dünya şöhrəti solmazdır

**Azərbaycanın görkəmli dövlət xadimi, ömrünü doğma xalqına xidmətə həsr eləmiş Heydər Əliyevin əziz xatirəsi dünyanın hər tərəfində hörmətlə anılır. Ulu öndəri təkcə bölgədə, postsovet məkanında deyil, bütün dünyada yaxşı tanıyır və ehtiramla yad edirlər. Bu insan Vətəni Azərbaycanı bütün dünyaya tanıtdıran əfsanəvi lider, fenomen şəxsiyyət kimi öz adını da milyonların qəlbinə həkk edib.**



## Türkiyə

Türkiyə Milli Müdafiə Nazirliyi (MMN) Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə bağlı paylaşım edib.

Bu barədə nazirliyin "X" hesabında bildirilib: "Azərbaycanın Ümummilli lideri mərhum Heydər Əliyevin vəfatının 20-ci ildönümündə rəhmət və ehtiramla yad edirik. Mərhum Heydər Əliyev deyirdi ki, biz bir millət, iki dövlətik. Biz onun vədini miras kimi nəsildən-nəslə ötürəcək, Azərbaycan türkü qardaşlarımızla hər zaman bir və bərabər olmağa davam edəcəyik".

Dünən İstanbulda Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrdən olan tələbələr üçün təsis olunan "Heydər Əliyev təqaüdü" layihəsi ictimaiyyətə təqdim edilib.

Ulu öndər Heydər Əliyevin anım tədbirləri çərçivəsində keçirilən təqdimetmə mərasimində Türkiyədə fəaliyyət göstərən Azərbaycanın dövlət təşkilatlarının əməkdaşları, diplomatlar, rəsmi şəxslər, ziyalılar, KİV və QHT nümayəndələri iştirak ediblər. Mərasimdə çıxış edən Azərbaycanın İstanbuldakı baş konsulu Nərminə Mustafayeva, TDT-nin Baş katibinin müavini Sədi Cəfərov, İbn Haldun Universitetinin rektoru Atilla Arkan, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Məclisinin Baş katibi Asəf Hacıyev, azərbaycanlı alim Məsud Əfəndiyev bu təqaüd proqramının Türk dövlətləri birliyi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildiriblər.



Layihə çərçivəsində hər il TDT-yə üzv və müşahidəçi ölkələrin hər birindən təhsil məqsədilə Türkiyəyə gələn bir tələbəyə "Heydər Əliyev təqaüdü" veriləcək.

## Özbəkistan

Azərbaycanın Özbəkistandakı səfirliyi Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi ilə birgə Ulu öndərin anım günü ilə əlaqədar tədbir keçirib.

Mərasimdə səfirliyin əməkdaşları, Özbəkistanın elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimləri, Azərbaycan diasporunun üzvləri, jurnalistlər iştirak ediblər.

Əvvəl Azərbaycanın Özbəkistandakı səfirliyinin foyesində Ümummilli liderin büstü önünə əklil və gül dəstələri qoyulub, xatirəsi ehtiramla anılıb. İştirakçılar Heydər Əliyev haqqında buraxılan kitab və albomlarla tanış olduqdan sonra "Ulu öndər Heydər Əliyev fotoşəkillərdə" adlı sərgiyə baxış keçirilib.



Monitorda bu böyük siyasətçinin həyatı, dünya dövlətlərinin rəhbərləri ilə görüşlərini əks etdirən videofilm göstərilib.

Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov və səfir Hüseyn Quliyev Ulu öndərin xalq qarşısında xidmətlərindən söz açıblar. "Özbəkistan-Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru Erkin Nuriddinov, diasporun üzvlərindən İsmayıl Məmmədov, Gülnarə Babacanova və başqaları Heydər Əliyev xatirəsinin daim qəlblərdə yaşayacağını bildirib, qüdrətli dövlət xadiminin Azərbaycan və türk dünyası qarşısındakı xidmətlərindən danışıblar.

## Pakistan

Azərbaycanın Pakistandakı səfirliyi Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar tədbirlər keçirib. Səfirliyin əməkdaşları Ulu öndərin səfirlikdəki büstü önünə gül dəstələri qoyub və Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.



Sonra Ümummilli liderin anım günü ilə əlaqədar Pakistan Milli Kitabxanasında fəaliyyət göstərən Azərbaycan Mərkəzində səfir Xəzər Fərhadov Milli Kitabxananın rəhbərliyi və pakistanlı tələbələr qarşısında mühazirə oxuyub. Diplomat Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi dövrlərdən söhbət açaraq ölkəmizin müstəqilliyinin qorunub saxlanılmasında və inkişafındakı əvəzolunmaz fəaliyyətindən bəhs edib.

Sonda Heydər Əliyevin həyatı və fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib. Həmin gün "Camia Qasamia" mədrəsə-məscid kompleksində ehsan süfrəsi təşkil olunub.

## Macarıstan

Azərbaycanın Macarıstandakı səfirliyində Ümummilli lider Heydər Əliyevin anım günü münasibətilə tədbir təşkil olunub. Ulu öndərin səfirlikdəki büstü önünə gül dəstəsi qoyulub və onun əziz xatirəsi tədbir iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad edilib.

Səfir T.Tağızadə çıxış edərək, dahi şəxsiyyətin Azərbaycan tarixindəki rolunu Macarıstanın dövlət xadimləri inqilabçı Layoş Koşut (Lajos Kossuth) və islahatçı Dyula Andraşi (Gyula Andrassy) ilə müqayisə edib, Heydər Əliyevin hər iki istiqamətdə özündə birləşdirən siyasət yeritdiyini vurğulayıb.

## Rusiya

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anım günündə Həştərxanda Ulu öndərin abidəsi önünə əklil qoyulması mərasimi keçirilib.

Tədbirdə Həştərxan vilayəti hökumətinin sədrinin müavini Denis Afanasyev, hakimiyyət orqanlarının, regional ictimai təşkilatların təmsilçiləri və şəhər sakinləri iştirak ediblər. D.Afanasyev mediaya açıqlamasında qeyd edib: "Biz ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük töhfə verən Heydər Əliyevin xatirəsini hörmətlə anırıq. O, bizim regionun Azərbaycan ilə əməkdaşlığının, çoxillik və səmərəli əlaqələrimizin təməlini qoyub. Bu əlaqələr sayəsində Azərbaycan bu gün Həştərxan vilayətinin əsas tərəfdaşlarından biridir".

## ABŞ

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğunun təşəbbüsü və dəstəyi ilə Kaliforniyanın ən qədim məscidlərindən biri olan İnqlvud İslam Mərkəzində Ulu öndər Heydər Əliyevi anım mərasimi təşkil edilib.

Tədbirdə Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda dövlət müstəqilliyinin inkişaf etdiyi, dini sabitliyin möhkəmləndiyi, müsəlman dünyası ilə əlaqələrə töhfə verildiyi diqqətə çatdırılıb. Anım mərasimində çıxış edən Azərbaycanın Los-Ancelesdəki baş konsulu Ramil Qurbanov Ulu öndərin müdrik siyasətinin davamçısı olan Prezident İlham Əliyevin ölkəmizin öz ərazilərini düşmən işğalından qurtararaq, ərazi bütövlüyünü, suverenliyini tam təmin etdiyini vurğulayıb.

## Çin

Ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin xatirəsi Azərbaycanın Çin Xalq Respublikasındakı səfirliyində anılıb.

Çində yaşayan və təhsil alan soydaşlarımızın qatıldığı tədbirdə çıxış edən səfir Bünyad Hüseynov həyatını qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışıb, onun tarixə müdrik rəhbər, böyük strateq və qlobal düşüncəli siyasi lider kimi düşdüyünü deyib. Səfir Heydər Əliyevin Azərbaycan-Çin münasibətlərinin inkişafına verdiyi diqqətdən danışıb, Ulu öndərin 1994-cü ildə Çinə rəsmi səfərinin iki ölkə əlaqələrində xüsusi rol oynadığını deyib.



Pekin Xarici Dillər Universitetinin Azərbaycan dili kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru Aqşin Əliyev, AzTV-nin Çin və Şərqi Asiya ölkələri üzrə xüsusi müxbiri Afaq Cəfərova Ulu öndər Heydər Əliyevin dövlətimizin müstəqilliyinin qorunmasında, ölkənin hərtərəfli inkişafı istiqamətində gördüyü nəhəng işlərdən danışıblar.

## Gürcüstan

Tbilisidə Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar sərgi keçirilib. "Heydər Əliyev və müasir Gürcüstan" adlı sərgidə çıxış edən Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev "Heydər Əliyev ili"-nə həsr olunmuş silsilə tədbirlərdən söz açıb.

Diplomat bildirib ki, Ulu öndər hər zaman Gürcüstana dost münasibəti bəsləyib, əlaqələrin genişlənməsinə xüsusi diqqət yetirib. O, Azərbaycanın haqq işinə dəstək verən gürcü qardaş və bacılara, həmçinin Gürcüstanda yaşayan soydaşlarımıza dərin minnətdarlığını bildirib. Səfir əmin olduğunu bildirib ki, gələcək nəsillər də Ulu öndərin ölməz xatirəsini qəlblərində əziz tutacaqlar.

Gürcüstan Xarici İşlər Nazirinin 1-ci müavini Laşa Darsalia çıxışında Ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramını göstərmək imkanından məmnunluğunu ifadə edib. O, qeyd edib ki, iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətləri bu gün strateji səviyyəyə yüksəlib. Gürcüstanda Ulu öndərin anadan olmasının 100 illiyi ilə bağlı çoxsaylı tədbirlərin keçirilməsi onun xatirəsinə böyük ehtiramın təzahürüdür.

## İsrail

İsraildə fəaliyyət göstərən Azərbaycan Mədəniyyət Mərkəzində "Heydər Əliyev və Azərbaycan yəhudiləri" mövzusunda fotosərginin açılış mərasimi keçirilib.

Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Yeganə Salman Ulu öndərin keçdiyi həyat yolunu, siyasi fəaliyyətinin müxtəlif mərhələlərini, onun rəhbərliyi altında yəhudi millətindən olan Azərbaycan vətəndaşlarının ölkəmizin müxtəlif sahələrinə layiqli töhfələrini əks etdirən sərgi barədə ətraflı məlumat verib.



Tədbirin bədii hissəsində jurnalist Lyudmila Kiselyovanın və şair Mixail Salmanın ifasında mahnılar və şeirlər səsləndirilib.

## Belçika

Azərbaycanın NATO-dakı nümayəndəliyində də Ulu öndəri anım mərasimi keçirilib. Bu barədə Azərbaycanın Alyansdakı nümayəndəsi Cəfər Hüseynzadə "X" şəbəkəsində yazıb.

Paylaşımda deyilir: "Azərbaycan Respublikasının NATO-dakı nümayəndəliyi Azərbaycanın müasir dövlətçiliyini və güclü silahlı qüvvələrini quran Azərbaycanın Ümummilli lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla yad edib. Dərin hörmət və ehtiramla yad edirik".

## Mərakeş

Dünən Mərakeşin fransızdilli nüfuzlu "Al Bayane" qəzetində Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr edilmiş məqalə dərc olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin məlumatına görə, "Heydər Əliyev - Azərbaycan dövlətinin və onun Mərakeşlə əməkdaşlığının banisi" adlı məqalədə Ulu öndərin Azərbaycan xalqını dövrün tarixi və siyasi sınaqlarından uğurla çıxaran, onun müstəqilliyə aparan güclü şəxsiyyət olduğu vurğulanır, həmçinin Azərbaycanla Mərakeş arasında münasibətlərin əsasının qoyulmasındakı rolundan bəhs edilir. Bu xüsusda Heydər Əliyevin 1994-cü ilin dekabrında İƏT-in Zirvə toplantısında iştirak etmək üçün Kasablankaya səfəri və bu çərçivədə Mərakeş Kralı II Həsənlə görüşünün tarixi əhəmiyyəti qeyd olunur.


AL BAYANE ACTUALITE 5
Heydar Aliyev, le fondateur de l'Etat d'Azerbaïdjan et de sa coopération avec le Maroc

## İspaniya

Azərbaycanın İspaniyadakı səfirliyində Ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş anım mərasimi keçirilib.

Mərasimdə İspaniyada yaşayan soydaşlarımız, Madrid, Barselona, Valensiya və digər şəhərlərdə təhsil alan azərbaycanlı tələbələr iştirak ediblər.



Ölkəmizin İspaniyadakı səfiri Ramiz Həsənov və digər çıxışçılar Ulu öndərin ölkəmizin bütövlüyü, xalqımızın həmrəyliyi uğrunda müdrik siyasətindən, respublikamızın müstəqilliyinin qorunub-saxlanmasındakı əvəzolunmaz rolundan bəhs edib, dahi şəxsiyyətin əziz xatirəsi ilə bağlı səmimi fikirlərini bölüşüblər.

## Rumınıya

Azərbaycanın Rumıniyadakı səfirliyində Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar anım mərasimi keçirilib.

Tədbirdə Rumıniya hökumətinin rəsmi şəxsləri, akkreditə olunmuş diplomatik nümayəndəliklərin təmsilçiləri, bu ölkədə yaşayan və təhsil alan azərbaycanlılar iştirak ediblər.

Tədbirdə Ulu öndərin Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi, regionda və beynəlxalq aləmdə ölkəmizin mövqeyinin möhkəmləndirilməsi istiqamətində gördüyü işlərdən bəhs edilib.

Daha sonra Buxarest şəhərinin "Tey" parkında yerləşən Heydər Əliyevin büstü önündə xatirəsi anılıb.

## Ukrayna

Ümummilli lider Heydər Əliyevin vəfatının 20-ci ildönümü ilə əlaqədar Ulu öndərin Kiyevdəki Heydər Əliyev adına parkda yerləşən abidəsinin önündə anım mərasimi keçirilib.



Sonra Azərbaycanın Ukraynadakı səfiri Seymur Mərdəliyev Ulu öndərin müstəqil Azərbaycan dövlətinin qurulmasında və inkişaf etdirilməsində göstərdiyi misilsiz xidmətlərindən danışıb.

Sonra Ukrayna Müsəlmanları Dini İdarəsində anım tədbiri keçirilib və ehsan süfrəsi açılıb.

*Hazırladı:*
*İ.HƏSƏNQALA,*
*Q.KƏNGƏRLİ,*
*N.MƏMMƏDZADƏ*

# Millətə xidmətin bənzərsiz örnəyi

*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan tarixinin belə möhtəşəm zirvələrindən biri Heydər Əliyevdir. Zaman bütün ömrünü Vətənə və xalqa xidmətə həsr etmiş Heydər Əliyevi bizdən uzaqlaşdırdıqca onun tarixi şəxsiyyət portreti daha çox cizgilərlə zənginləşir, həyatı və mübarizəsi haqqında təsəvvürlər daha da genişlənir.

Zaman keçdikcə Heydər Əliyevin tarixin ən az rast gəlinən siyasi xadimlərindən biri olduğunu dərk edirsən. Bütün ömrü kameralar altında keçən böyük siyasətçi bir-birinə zidd olan iki fərqli ictimai-siyasi quruluşda Azərbaycan dövlətinə rəhbərlik edib. Hər quruluşun heç bir halda kəsişməyən öz ideoloji əsası, öz yolu və öz məramı vardı. Fəhlə-kəndli birliyindən doğan proletar diktaturasına əsaslanan Sovet İttifaqının azad cəmiyyət quran müstəqil Azərbaycanın inkişaf yolu ilə heç bir oxşarlığı və yaxınlığı ola bilməzdi. Tariximizdə yer almış bu iki antaqonist quruluşu bir-birinə bağlayan yeganə müsbət amil Heydər Əliyev şəxsiyyəti oldu.

1969-cu ildə Heydər Əliyevin Azərbaycanda hakimiyyətin ən yüksək pilləsinə gəlməsi həmin illərdə iqtisadi-siyasi və mədəni-mənəvi durğunluq dövrünü yaşayan respublikamızın həyatına gözlənilməz bir canlanma gətirdi. Ulu öndər Vətənimizə rəhbərlik etməyə başlayanda Azərbaycan Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərinə görə axırıncı yerlərdə idi. O zamanadək Azərbaycan İttifaq miqyasında yalnız xammal mənbəyi rolunda çıxış edən ən geridə qalmış aqrar respublika kimi tanınırdı.

Ulu öndər respublikaya rəhbərlik etdiyi dövrdə isə Azərbaycan iri sənaye və və kənd təsərrüfatı ölkəsinə çevrildi, SSRİ miqyasında ən yüksək iqtisadi nəticələrə nail oldu. Heydər Əliyevin rəhbərliyi ilə görülən işlərin fonunda ölkəmiz iqtisadiyyatın bütün sahələrində sürətli inkişaf yoluna çıxdı və bütün sahələrdə davamlı inkişaf göstəriciləri qeydə alındı.

Bütün bunlar o zaman Ulu öndərin ilk baxışdan görünə bilən və bilavasitə vətəndaşların rifah halında öz əksini tapan nailiyyətləri idi. Amma uğurlar yalnız iqtisadi inkişafdan ibarət deyildi. Heydər Əliyevin ölkənin və xalqın gələcəyinə çox geniş diapazonda baxışı həyatın bütün istiqamətlərində yeni yanaşmanı ortaya qoyurdu.

Xalqın azad və xoşbəxt gələcəyinin mümkünlüyü sovet ideologiyasının təzyiqi altında məhv edilən milli-mənəvi dəyərlərinin qorunması ilə birbaşa bağlı idi. O zamankı sovet Azərbaycanı cəmiyyətində bu həqiqəti anlayan və bu həqiqət uğrunda mübarizə aparmağa hazır olanlar o qədər də çox deyildi. Ulu öndər incə fəhmi ilə gələcəyin sağlam düşüncəli və milli ruhlu cəmiyyətini yetişdirmək üçün milli-mənəvi dəyərlərin qorunması istiqamətində mühüm əhəmiyyətli tədbirlər həyata keçirirdi. Məhz həmin illərdə Azərbaycanın hər bir yaşayış məntəqəsində mədəniyyət evləri inşa edildi, abidələr ucaldıldı, incəsənət xadimləri fəxri adlarla, orden və medallarla təltif edildi, onlara təqaüdlər ayrıldı. Musiqi, teatr, kino, təsviri incəsənət və digər sahələrdə yeni inkişaf meyilləri yarandı və mədəni intibah qeydə alındı. Bütün bunlar cəmiyyətin intellektual təbəqəsini məhz milli yönümdə yaradıcılığa ruhlandırır və onların fəaliyyətinin səmərəliliyini daha da artırırdı. Milli ruhu oyadan və bu fəaliyyətinə görə anti-sovet ittihamları ilə üzləşən bir sıra yaradıcı ziyalılar məhz onun sayəsində sovet rejiminin cəza maşınından xilas olundu. Beləliklə, 1969-cu ildən başlanan böyük mədəni inkişaf və rifah yolu Azərbaycanın gələcək tərəqqisinin əsası oldu.

Ulu öndər xalqın savadlanmasını, müasir biliklərə yiyələnməsini təmin etmək üçün gənclərin Sovet İttifaqının ən nüfuzlu ali məktəblərində təhsil almasını təmin etdi. Hələ çarizm dövründən hərbi ixtisaslara və ordu işlərinə yaxın buraxılmayan qeyri-slavyan xalqlarından biri kimi Azərbaycan gənclərinin hərbi peşələrə yiyələnməsini təmin etdi. Bu məqsədlə ölkə daxilində hərbi məktəb yaradıldı və bir çox gənclər Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərində təhsil almağa göndərildi.

Heydər Əliyev sosialist idarəçilik sisteminin ən yüksək pilləsində dayananların heç birinə məlum olmayan öz siyasi baxışlarından çıxış edərək, sovet ideoloji siyasətini Azərbaycanda milli-ideoloji siyasətə çevirə bildi. Məhz belə bir cəsarətli yanaşma nəticəsində milli-ideoloji siyasətin tərkib hissəsi kimi, 1978-ci ildə Heydər Əliyevin cəhdləri və təşəbbüsü sayəsində Azərbaycan SSR-in Konstitusiyasına "Azərbaycan dili Azərbaycan SSR-in rəsmi dövlət dilidir" maddəsi daxil edildi. Milli ideologiyamızın məhək daşlarından biri olan ana dilimizin qorunub saxlanması və təbliği baxımından mühüm tarixi bir addım atıldı. Bunun ardınca "Müasir Azərbaycan dili" və "Azərbaycan dili" dərslikləri hazırlandı ki, bu da xalqın dilini və mədəniyyətini qoruyub saxlamağa və gələcəkdə müstəqil dövlət olmağın zəminini yaratmağa xidmət edirdi.

Beləliklə, 1969-1982-ci illər ərzində Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə həyata keçirilən islahatların və görülən strateji tədbirlərin fonunda respublikamız sürətlə inkişaf edərək SSRİ miqyasında xüsusi çəkiyə və böyük potensiala malik olan qabaqcıl respublikaya çevrildi. Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi cəmi 14 il ərzində Azərbaycanın gələcək müstəqilliyinə nail olması və onu qoruyub saxlamasını təmin edəcək qədər böyük işlər görüldü.

1982-ci ilin dekabrında Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi və SSRİ-nin əsas rəhbərlərindən biri oldu. Dünyanın iki ən qüdrətli güc mərkəzindən birini idarə edənlər sırasında Heydər Əliyevin yer alması faktının özü Azərbaycan xalqının dünya miqyaslı böyük uğuru idi. SSRİ rəhbərliyində çalışdığı zaman da Heydər Əliyev Azərbaycanı müxtəlif istiqamətlərdən gələn bütün təhlükələrdən Simurq quşu kimi qoruyurdu.

Təsadüfi deyil ki, imperiya mərkəzinin havadarlığı ilə Azərbaycanın ərazi bütövlüyünə edilən qəsd və hərbi təcavüz də məhz Heydər Əliyevin sovet idarəçilik sistemindən istefasından sonra baş verdi. Ulu öndər Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosu üzvlüyündən və tutduğu bütün vəzifələrdən istefa verdi. Lakin nəzərlərini heç vaxt Azərbaycanın üzərindən çəkmədi. 1990-cı ilin 20 Yanvar hadisələrinə açıq şəkildə etirazını bildirən və Bakıda baş verən hadisələrə görə sovet rəhbərliyini kəskin tənqid edən ilk siyasətçi də məhz Heydər Əliyev oldu. Sovet rejiminin qadağalarına rəğmən, yanvarın 21-də həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn Heydər Əliyev qanlı faciənin təşkilatçılarını ittiham etdi, ifşaedici və cəsarətli bir bəyanat verdi. Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə cavab olaraq, 1991-ci ilin iyulunda nümayişkaranə şəkildə Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etdi.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev qısa müddət Bakıda qaldıqdan sonra Naxçıvana getdi və həmin ildə Azərbaycan Ali Sovetinə deputat seçildi. Həmin dövrdə Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun ağırlığı, o zamankı Azərbaycan hakimiyyətinin muxtar quruma əsassız təzyiqləri Naxçıvanın vəziyyətini olduqca mürəkkəbləşdirmişdi. Mövcud durum 1991-ci ilin sentyabr ayında Heydər Əliyevin Naxçıvan Ali Məclisinin Sədri vəzifəsinə seçilənədək olan müddətdə daha da kəskinləşdi. Bütün maneələrə baxmayaraq, Naxçıvan Ali Məclisinin sədri seçilən Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində bölgədə sabitlik təmin edildi və muxtar qurumun sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı.

Dövrün mürəkkəbliyini, dünyada və bölgəmizdə baş verən hadisələrin mahiyyətini yaxşı dərk edən Heydər Əliyev Azərbaycanı yeni dövrə hazırlamağın ilk addımlarını da məhz Naxçıvanda atdı. Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı olaraq təsdiq edildi. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı. Bu əlamətdar hadisə Azərbaycanda yeni dövlətçilik quruculuğunun başlanğıcından xəbər verirdi. Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılmasını təmin etmək üçün Heydər Əliyev Azərbaycançılıq məfkurəsini milli ideologiya olaraq irəli sürdü. Bununla da Heydər Əliyev Naxçıvandan başlayaraq dünyanın bütün guşələrində yaşayan azərbaycanlıları ölkənin azadlığı və müstəqilliyi uğrunda səfərbər etməyə başladı. 1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında hər il 31 dekabr tarixinin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul edildi.

Bakıda və Qarabağ ərazisində isə vəziyyət get-gedə daha da mürəkkəbləşirdi. Yaxınlaşan fəlakətin qaçılmaz olduğu getdikcə daha çox hiss olunurdu. Belə gərgin və böhranlı bir vəziyyətdə xalq ümidini dahi siyasətçi, böyük dövlət xadimi Heydər Əliyevə bağlamışdı. 1992-ci ilin oktyabrında bir qrup Azərbaycan ziyalısı Heydər Əliyevə müraciət edərək Yeni Azərbaycan Partiyasının yaradılmasını təklif etdi. Xalqın çağırışına biganə qalmayan Heydər Əliyev ziyalılara göndərdiyi 24 oktyabr 1992-ci il tarixli cavab məktubunda Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu öndər Heydər Əliyev partiyanın sədri seçildi. Heydər Əliyevin siyasi təcrübəsi, biliyi, xalq qarşısında göstərdiyi xidmətlər, çalışdığı dövrdə əsl vətənpərvərliyi və öz xalqına olan sədaqəti Azərbaycanın bütün mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Qısa bir zamanda YAP ölkənin ən böyük və etibarlı siyasi qüvvəsinə çevrildi.

1993-cü il iyunun 9-da xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi və iyunun 24-dən etibarən Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. Bu, artıq ölkəmiz üçün fərqli bir zaman idi. Bu dövrün çağırışları da, qarşıya qoyduğu vəzifələri də sovet dövründəki rəhbərlik illərindən çox fərqlənirdi. Ölkəni uzun illərdən bəri davam edən müşkül vəziyyətin dolanbaclarından çıxarmaq, dövlət müstəqilliyini təmin etmək, onu qoruyub saxlamaq və ermənilərin təcavüzünün qarşısını almaq, torpaqları işğaldan azad etmək lazım idi. On il ərzində müstəqil Azərbaycan Respublikasının Prezidenti olan Ulu öndər ölkəni vətəndaş müharibəsindən, tənəzzüldən və məhv olmaq təhlükəsindən xilas edərək dirçəliş yoluna çıxardı. Ulu öndərin rəhbərliyi altında milli müstəqil dövlətçiliyimizin əsasları qoyuldu və ciddi islahatlara start verildi. Heydər Əliyevin ermənilərlə müharibədə atəşkəsə nail olması, irəli sürdüyü yeni neft strategiyası ilə dünyanın ən güclü dövlətlərinin diqqətini Azərbaycana cəlb etməsi, iqtisadi dirçəlişə nail olmaqla ölkədə dayanıqlı sabitliyin əldə olunması gələcək mübarizəmizə daha yaxşı hazırlaşmaq və torpaqlarımızın azadlığı uğrunda müqəddəs savaşda tarixi Qələbənin qazanılması üçün möhkəm zəmin hazırlayırdı.

1994-cü ilin sentyabr ayının 20-də Azərbaycanın Dövlət Neft Şirkəti ilə 6 ölkənin 10 şirkəti arasında bağlanmış "Əsrin müqaviləsi" enerji ehtiyatlarının həcminə və onların istismarı üçün qoyulan sərmayələrin həcminə görə dünyada bağlanan ən iri sazişlər siyahısına daxil oldu. "Əsrin müqaviləsi" Azərbaycanın dünya iqtisadi sistemindəki yerini müəyyənləşdirdi və möhkəmləndirdi. Həmin müqavilə daha sonra 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin imzalanmasına yol açdı. Bu tarixi müqavilənin əhəmiyyətindən danışan Ulu öndər Heydər Əliyev deyirdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır."

Bütün bunlarla yanaşı, ölkədə sistemli və ardıcıl şəkildə həyata keçirilən hərtərəfli islahatlar Azərbaycanın müstəqilliyini günbəgün möhkəmləndirir, onu əbədi və sarsılmaz edirdi. 1993-2003-cü illərdə Azərbaycanın sürətli inkişafı Heydər Əliyev zəkasının məhsulu olub bugünkü reallıqların bünövrəsini təşkil etdi. Həmin dövrdə qaçqın və məcburi köçkünlərin problemlərinin həlli, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılması, ordu və dövlət quruculuğu, insan haqlarının və söz azadlığının qorunduğu açıq cəmiyyətin formalaşması ilə bağlı göstərilən çoxşaxəli fəaliyyətlər sayəsində Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu, beynəlxalq aləmdə müstəqil siyasət yeridən gənc bir dövlət kimi dünyada böyük nüfuz qazandı.

Heydər Əliyevin adı Azərbaycanın müstəqillik dövründə yeni bir dövlətin memarı və qurucusu kimi tarixə yazıldı. Bütöv bir xalqın taleyini həll edən müdrik siyasəti, dərin zəkası və müstəsna fəaliyyəti ilə Heydər Əliyev hər bir quruluşda, hər bir şəraitdə xalqına sədaqətin, millətə xidmətin bənzərsiz örnəyini yaratdı. İki müxtəlif dövrdə, bir-birinə zidd olan iki fərqli siyasi quruluşda eyni amala, eyni məqsədə xidmət edən və hər iki vəziyyətdə bütün başlanğıcları uğurla başa çatdıran böyük bir şəxsiyyət bu gün bizə uca dağ silsilələrinin iki yanaşı zirvəsi kimi görünür. Hər iki zirvə öz möhtəşəmliyi ilə heyrətamiz və əlçatmazdır.

2003-cü ildən etibarən Azərbaycan Respublikasına rəhbərlik edən İlham Əliyev Ulu öndər Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri layiqincə yerinə yetirdi. 2020-ci ilin Vətən müharibəsində Prezident və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımız işğaldan azad olundu. Ulu öndərin vaxtilə dilə gətirdiyi ən böyük arzusu həyata keçdi. "Vaxt gələcək Azərbaycan bütün dünyaya Günəş kimi doğacaq."

Bu gün Azərbaycan Avrasiyanın ən parlaq Günəşi kimi işıq saçmaqdadır. Bu işığın nüvəsində Heydər Əliyev siyasəti və Heydər Əliyev şəxsiyyəti dayanır. Bu gün xalqımız Ulu öndərin əziz xatirəsini ehtiram və minnətdarlıqla yad edir. Ümumxalq məhəbbəti qazanmış Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi kimi əbədi olaraq yaşayacaqdır.





***Cavanşir FEYZİYEV,***
***Milli Məclisin deputatı***

# Xilaskarlıq missiyasının Naxçıvan səhifələri

**Qüdrətli dövlət xadimi Heydər Əliyev 1982–1987-ci illərdə Sov.İKP MK Siyasi Bürosunun üzvü olmuş, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsində işləmişdir. Moskvada yüksək vəzifələrdə işləyən Heydər Əliyev "yenidənqurma"nın metodlarına: milli münaqişələrə səbəb ola biləcək düşünülməmiş dövlət siyasətinə, xüsusən türk respublikalarına qarşı qərəzli siyasətə açıq və kəskin etirazını bildirirdi.**



M.Qorbaçov Heydər Əliyevin timsalında qüvvətli opponentini görürdü. Heydər Əliyevin onunla müticəsinə razılaşmaması, öz mövqeyini qətiyyətlə müdafiə etməsi onun xoşuna gəlmirdi. Bir çox hallarda Heydər Əliyevlə Qorbaçov arasında ziddiyyətlər də olurdu. M.Qorbaçov güclü şəxsiyyətlərdən, müstəqil düşünən insanlardan qorxurdu, onları qiymətləndirə bilmirdi, canını qurtarmağa çalışırdı.

Sovet diktatoru dünya şöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyevin getdikcə artan nüfuzuna, populyarlığına qarşı gizli, məkrli və daim qızışdırılan paxıllıq hissi keçirirdi. Heydər Əliyevin Siyasi Büronun fəal üzvü və son dərəcə ciddi rəhbər olmasına baxmayaraq, onun səhhəti ilə bağlı səbəb əsas gətirilərək Qorbaçovun təhriki ilə Heydər Əliyev tutduğu vəzifədən istefa verdi. Burada erməni amilinin Qorbaçova təsiri də qeyd edilməlidir.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin SSRİ rəhbərliyindən uzaqlaşdırılması, hər şeydən əvvəl, ermənipərəst Qorbaçovun Azərbaycana qarşı mənfur siyasətini reallaşdırmaq üçün əvvəlcədən düşünülmüş planlarını həyata keçirmək kimi çirkin məqsədindən irəli gəlirdi. Ulu öndər təqaüdə çıxdıqdan sonra ciddi nəzarət altında, təqiblər şəraitində fəaliyyət göstərirdi. Heydər Əliyev ona qarşı təxribat hazırlandığını bilirdi. O, Bakıya qayıtmaq arzusunda olduğunu bildirmiş, lakin Qorbaçov xəbər göndərmişdi ki, Moskvada qalsın.

Naxçıvan şəhər partiya konfransında Naxçıvan kommunistləri Heydər Əliyevi Azərbaycan KP-nin XXXII qurultayına nümayəndə seçmiş və Naxçıvan vilayət partiya konfransı onun qurultay nümayəndəsi olduğunu rəsmən təsdiq etmişdi.

Qurultaya nümayəndə seçildiyini eşidəndə Heydər Əliyev, əlbəttə, məmnun qalmışdı. Qadağanı pozması və Bakıya getməsi üçün ona qanuni hüquq verən rəsmi əsas yaranmışdı. Lakin nə SSRİ rəhbərliyi, nə də Azərbaycan KP MK-nın birinci katibi A.Mütəllibov Heydər Əliyevin qurultaya, yəni Bakıya getməsini məqsədəuyğun hesab etmirdilər.

Bunlara baxmayaraq Heydər Əliyev güclü şəxsiyyət idi və heç kəsin məsləhətinə ehtiyacı yox idi. Heydər Əliyevin Bakıya gəlişinin sadəcə vaxtı dəyişdi, səfər təxirə salınmadı. O, Bakıya iyulun 20-də gəldi.

Heydər Əliyev tərəfindən vəzifələrə təyin edilən nankor iqtidar nümayəndələri Azərbaycanı qurub-yaradan şəxsin Bakıda yaşamasına imkan vermədilər. Nəticədə Heydər Əliyev iyulun 22-də Naxçıvana gəldi.

Naxçıvana gəlişi barədə Heydər Əliyev sonralar belə deyəcəkdi: "Moskvada məni təqib edirdilər. Hətta Yanvar hadisələrindən sonra hərəkətlərimə görə mənə qarşı repressiya planları hazırlanmışdı və onları həyata keçirmək istəyirdilər. Bakıya gələndə xalq tərəfindən mənim gəlişim böyük ruh yüksəkliyi ilə qəbul olundu, lakin hakimiyyətdə olan ayrı-ayrı şəxslər tərəfindən Bakıda yaşamağıma imkan verilmədisə də, mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı, Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illər çəkdiyim bütün əzab-əziyyəti unutdum. Görünür, mənim Naxçıvana gəlişim taleyin işi imiş". Gəlişi haqqında heç kimə xəbər verməsə də, bu, tez bir zamanda bütün muxtar respublika əhalisinə məlum oldu. Elə həmin axşam Naxçıvan şəhərindəki mərkəzi meydanda toplaşmış 80 min insan Heydər Əliyevə özünün nicatı və son ümidi kimi baxırdı.

Naxçıvana qayıdışı ilə Heydər Əliyev bu bölgəni və bütün Azərbaycanı gözlənən real təhlükədən xilas etdi. Onun Naxçıvana gəlişi burada ictimai-siyasi həyatı daha da canlandırdı, xalqın mübarizə əzmini möhkəmləndirdi. Qısa müddətdə milli dövlətçiliyin bərpası istiqamətində Heydər Əliyevin başçılığı altında qətiyyətli və ardıcıl addımlar atılmağa başlandı. Dünya siyasətinin nəhəngi Heydər Əliyevin Naxçıvana qayıdışı Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan MSSR Ali Sovetinə seçki kampaniyası ilə bir vaxta düşdü.

Naxçıvan seçiciləri Azərbaycan xalqının böyük oğlunu Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə deputat seçdi. Babək rayonunun Nehrəm seçki dairəsinin seçiciləri ilə görüşündə Heydər Əliyev öz platforması haqqında məlumat verərək demişdir: "Mənim əsas məqsədim Azərbaycanın ərazi bütövlüyünü və Azərbaycan hakimiyyətini respublikanın bütün ərazisində bərqərar etməkdən ibarətdir. Azərbaycan Respublikasının milli dövlət kimi inkişaf etməsi indi əsas məsələdir. Bunun üçün Azərbaycan tam müstəqil, azad, demokratik respublika olmalıdır. Bütün bu vəzifələri həyata keçirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır".

Naxçıvan MSSR Ali Sovetinə seçilmiş deputatların 1990-cı il noyabrın 17-də ilk sessiyası keçirildi. Həmin sessiyaya sədrlik etmək qüdrətli dövlət xadimi Heydər Əliyevdən təkidlə xahiş edildi. Bu dövrdə Azərbaycanda ictimai-siyasi vəziyyət həddindən artıq mürəkkəb olduğundan sessiyaya sədrlik etmək müdriklik və siyasi uzaqgörənlik tələb edirdi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının 41 məsələdən ibarət gündəliyi təsdiq edildi. Heydər Əliyevin sədrlik etdiyi həmin sessiya təkcə Naxçıvanda yox, bütün Azərbaycanda tarixi bir hadisə oldu. Sessiyanın qəbul etdiyi siyasi əhəmiyyətli qərarlar müstəqillik tariximizə qızıl hərflərlə yazıldı. Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR Ali Dövlət hakimiyyəti orqanı haqqında", "Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" və başqa məsələlərlə bağlı tarixi qərarlar qəbul etdi.

Azərbaycanda ilk dəfə olaraq bu sessiyada milli dövlətçilik ənənələrinin dirçəldilməsi baxımından, müstəqilliyə can atan Azərbaycan üçün böyük əhəmiyyət kəsb edən bir sıra qərarlara imza atıldı. Sessiya Naxçıvan MSSR adından "Sovet Sosialist" sözlərinin götürülməsi və bundan sonra Naxçıvan Muxtar Respublikası adlandırılması haqqında qərar qəbul etdi. Sessiya Naxçıvan Muxtar Respublikasının Ali dövlət hakimiyyəti orqanının adının dəyişdirilərək Naxçıvan Ali Soveti adını bundan sonra Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar verdi. Sovetlər Birliyinin yaşadığı bir dövrdə muxtar respublikanın adında belə dəyişiklik etmək, həqiqətən də, böyük cəsarət və uzaqgörənlik tələb edirdi. Sessiyada Naxçıvan Muxtar Respublikasının dövlət rəmzləri haqqında məsələ də müzakirə olundu. Bununla əlaqədar üç təklif irəli sürülmüşdü:

1. Azərbaycanın milli bayrağı Naxçıvanda qaldırılsın və Azərbaycanın ali hakimiyyət orqanı qarşısında bu bayrağı qəbul etmək məsələsi qoyulsun.

2. Azərbaycanın ali hakimiyyət orqanı qarşısında məsələ qaldırılsın ki, onlar Azərbaycanın Dövlət rəmzlərinə baxsınlar.

3. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul edilsin və Azərbaycanın ali hakimiyyət orqanından xahiş edilsin ki, Azərbaycan Respublikasının Dövlət rəmzləri haqqında məsələyə baxılsın.

Deputatların təklifi əsasında üçüncü məsələ müzakirəyə çıxarıldı və səsə qoyularaq qəbul edildi. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu və Azərbaycan SSR Ali Soveti qarşısında həmin bayrağın Azərbaycan dövlətinin rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırıldı.

Həmin sessiyada 1990-cı ilin Yanvar hadisələrinə siyasi qiymət verilməsi, Bakıda fövqəladə vəziyyətin götürülməsi və Dağlıq Qarabağda vəziyyət haqqında, habelə digər mühüm əhəmiyyətli qərarlar qəbul edildi. Deputat Afiyəddin Cəlilov sessiyanın iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sədri seçildi.

Naxçıvanda bu cür gözlənilməz addımların atılması bilavasitə Heydər Əliyevin təşəbbüsünün nəticəsi idi. Hələ Bakıda əyləşənlər ölkənin müstəqilliyi barədə qərarın qəbul edilməsi üçün tərəddüdlərdən qurtula bilmədiyi bir vaxtda, Naxçıvan Muxtar Respublikası Ali Məclisi artıq milli dövlətçilik ənənələrinin təşəkkülünə istiqamətlənmiş qəti qərarlar qəbul edirdi.

Ölkəmizin müstəqilliyini istəməyən, hələ də SSRİ-nin boyunduruğunda qalmaq istəyindən əl çəkməyən ölkə rəhbərliyi Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sessiyasında qəbul edilmiş tarixi qərarları "dövlətçiliyə qəsd" adlandırdı və Naxçıvanın blokada vəziyyətinə düşməsi daha kəskin xarakter aldı. Heydər Əliyev qətiyyətlə deyirdi ki, SSRİ adlı dövlət mütləq dağılacaq. Sovetlər İttifaqının dağıldığını görən M.Qorbaçov SSRİ-nin saxlanılması üçün yeni ittifaq müqaviləsinin bağlanması, ittifaq üzrə referendum keçirilməsi və bu yolla SSRİ-ni saxlamaq barədə göstəriş verdi.

Azərbaycan rəhbərliyi vəzifəsini qorumaq naminə İttifaq layihəsinə və referendum keçirilməsinə razılıq verdi. Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 14 yanvar 1991-ci il tarixli sessiyasında kəskin tənqid etdi. Göstərdi ki, Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy bildirmək xalqımızın qarşısında cinayət etmək deməkdir.

Xalqımızın gələcəyi naminə Naxçıvanın tutduğu mövqe, burada həyata keçirilən demokratik tədbirlər ölkə rəhbərliyi üçün də bir nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Soveti sessiyasının qərarı ilə dövlətin adı "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı Dövlət bayrağı kimi qəbul olundu.

Heydər Əliyev Azərbaycanın müstəqilliyinin reallığa çevrilməsi üçün mübarizəsini davam etdirirdi. Bu məqsədlə o, respublika Ali Sovetinin 7 mart 1991-ci il tarixli sessiyasında SSRİ-nin saxlanılmasına münasibət bildirməsi üçün keçirilməsi nəzərdə tutulan Ümumittifaq referendumunda iştirak etməyin əleyhinə çıxdı. "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm... Azərbaycanın tam istiqlaliyyət, azadlıq, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam... Azərbaycan tam müstəqil dövlət kimi fəaliyyət göstərmək üçün bütün imkanlara malikdir".

1991-ci il martın 14-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında SSRİ-nin saxlanılmasına dair Ümumittifaq referendumunda muxtar respublikanın iştirak etməməsi barədə qərar qəbul edildi. Sessiyada Heydər Əliyev referendumun əleyhinə çıxış etdi və müvafiq qərarın qəbul olunması da məhz onun təşəbbüsü ilə baş tutdu. İqtidarın bunu "separatçılıq" kimi qiymətləndirməsi, muxtar respublikaya təzyiqlər göstərməsi əhalini yolundan döndərə bilmədi. Lakin bütün bunlara baxmayaraq, Naxçıvan Muxtar Respublikası Kommunist Partiyasının rəhbərliyi referendumun keçirilməsi barədə mövqeyindən çəkinmədi.

Ancaq Naxçıvanda bu referenduma seçicilərin 20 faizə yaxın bir hissəsi qoşuldu və səsvermə baş tutmadı. Demokratik qüvvələr referendumu boykot etdilər. Saxta referendumda iştirak etməmiş Naxçıvana qarşı hücum başlandı. Aprelin 5-də muxtar respublika Ali Məclisinin sədri A.Cəlilov vəzifəsindən azad edildi. Həmin gün muxtar respublika Ali Məclisi yalnız kommunist deputatların iştirakı ilə, yetərsay olmadan sessiya keçirərək Əkbər Əliyevi muxtar respublikanın Ali Məclisinə sədr "seçdi".

Heydər Əliyev yetərsay olmayan sessiyada rəhbərliyin dəyişdirilməsinin qanunazidd olduğunu, muxtar respublikanın ictimai-siyasi vəziyyətinə mənfi təsir göstərəcəyini bildirdi. 1991-ci ilin sentyabrın əvvəllərinə qədər muxtar respublikanın ali orqanı olan Ali Məclisin fəaliyyəti faktiki olaraq donduruldu, partiya komitələrinin inzibati rəhbərliyi bərpa edildi. Naxçıvana qarşı təzyiq kampaniyası genişləndirildi. Əslində, əsas məqsəd Heydər Əliyevi gözdən salmaq, xalq arasındakı böyük nüfuzuna zərbə vurmaq, siyasi fəaliyyətinə əngəllər yaratmaq idi.

Heydər Əliyev Kommunist Partiyasının mürtəce siyasətinə etiraz əlaməti olaraq 1991-ci iyulun 19-da partiya sıralarını tərk etdi. Kommunist Partiyası və sovet dövlətinin süqutu gücləndi. Avqust ayının 22-dən başlayaraq respublikanın bir sıra şəhərlərində mitinqlər keçirildi. Naxçıvanda da mitinqlər səngimək bilmirdi. Üç gün davam edən, 60 mindən çox adamın iştirak etdiyi izdihamlı mitinq və nümayişlər nəticəsində xalq avqustun 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin fövqəladə sessiyasının çağırılmasına nail oldu.

Sessiya Naxçıvan Muxtar Respublikasında kommunistlərin hakimiyyətini ləğv etdi. Muxtar respublika ərazisində Azərbaycan KP və komsomolun fəaliyyəti dayandırıldı, onların bütün strukturları ləğv olundu. Mitinq və nümayişlərdə respublikada prezident seçkilərinin dayandırılması, Kommunist Partiyası hakimiyyətinin ləğv edilməsi, muxtar respublikada milli müdafiə komitəsinin yaradılması, Bakıda fövqəladə vəziyyət rejiminin ləğv olunması, Leninin abidələrinin sökülməsi və b. məsələlər tələb edilirdi.

Naxçıvanda baş verən hadisələrin də ciddi təsiri ilə Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycanın dövlət müstəqilliyi ilə bağlı Bəyannamə qəbul etdi. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev "Azadlıq bəyannaməsi"nin legitimliyinin təmin edilməsi üçün referendum keçirilməsi, 1920-ci il aprelin 28-də Azərbaycanın işğal edildiyi və Azərbaycan Demokratik Respublikasının zorakılıqla ləğv olunduğunun orada təsbit məsələsini təklif etsə də, bu vacib təklif qəbul olunmadı.

1991-ci il sentyabrın 2-də Naxçıvan şəhərində çoxminli mitinqdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yarımçıq qalmış növbədənkənar sessiyasının çağırılması və Heydər Əliyevin Ali Məclisin sədri seçilməsi tələb edilirdi. Bir gün sonra, sentyabrın 3-də, çətinliklə də olsa, deputatlar toplanır və yetərsay alındığından sessiya öz işinə başlayır. Ali Məclisin və şəhər İcra Hakimiyyətinin binaları qarşısında toplanan əhali Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsini tələb edirdilər.

Seçicilərin təzyiqi ilə deputatlar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrliyinə Heydər Əliyevin namizədliyini irəli sürdülər. Heydər Əliyev dəfələrlə çıxış edib, namizədliyini geri götürdüyünü bildirsə də, bu bir nəticə vermədi. Sessiyada iştirak edən 75 deputatdan 70 nəfəri lehinə səs verməklə, 5 nəfər bitərəf qalmaqla Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçildi.

Heydər Əliyevin sədrliyi ilə işini davam etdirən sessiyada "Azərbaycan Kommunist Partiyasının və onun strukturlarının fəaliyyətinə münasibət haqqında", "Azərbaycan Respublikası Prezidentliyinə seçkilər haqqında" məsələlər müzakirə edildi. Ali Məclisin 4 sentyabr tarixli qərarı ilə Naxçıvan ərazisində prezident seçkilər dayandırıldı.

1990-cı ilin yanvar ayının ilk günlərindən erməni yaraqlıları Naxçıvanın sərhəd kəndlərinə basqınlar edir, dağıntılar törədirdilər. Yanvarın 5-də muxtar respublikada baş verən hadisələrlə yaxından tanış olmaq üçün Sov. İKP MK katibi A.Girenko, SSRİ Ali Soveti Millətlər Sovetinin sədri R.Nişanov və Azərbaycan KP MK-nın birinci katibi Ə.Vəzirov Naxçıvana gəldilər.

Lakin xalqın qəzəbindən ehtiyat edən qonaqlar əhali ilə birbaşa ünsiyyətə girməkdən çəkinərək "partiya-sovet fəalları" və "əmək kollektivlərinin nümayəndələri" ilə görüş keçirməklə kifayətləndilər. Ermənilərin təcavüzkar hərəkətlərinin qarşısını almaq, muxtar respublika əhalisinin təhlükəsizliyini qorumaq üçün heç bir real addım atılmadığını görən xalq özü təşkilatlanır, özünümüdafiə və könüllü dəstələr yaradırdı.

Kərki kəndi iki il idi ki, özünümüdafiə dəstələri tərəfindən müdafiə olunurdu. Kənd 1990-cı il yanvarın 18-19-da sovet ordu qüvvələrinin köməyi ilə ermənilər tərəfindən işğal edildi. Naxçıvanın ərazi bütövlüyünün pozulması, ermənilərin Naxçıvan MSSR-ə bütöv sərhəd boyunca silahlı hücum etməsi, əhalinin həyatının təhlükə qarşısında qalması, bunlarla bağlı ittifaq orqanlarının tədbir görməməsi Naxçıvan əhalisini ən radikal addımlar atmağa məcbur etdi. 19 yanvar 1990-cı ildə Naxçıvanda xalqın tələbi və təzyiqi ilə Naxçıvan MSSR Ali Sovetinin növbədənkənar sessiyası çağırıldı.

Naxçıvan Muxtar Respublikası Ali Sovetinin fövqəladə sessiyası muxtariyyət statusundan istifadə edərək SSRİ adlı bir imperiyaya qarşı kəskin etiraz formasını seçdi. Bu etiraz bütün dünyaya səs saldı. Müttəfiq respublikanın tərkibində olan Naxçıvan Muxtar Respublikası Ali Soveti sovet rejiminə qarşı yönəldilən və onun müəyyən mənada iç üzünü açan cəsarətli bir qərar qəbul etdi. SSRİ-nin Əsas Qanununun (Konstitusiyasının) 81-ci maddəsinə əsaslanan Naxçıvan parlamenti Azərbaycan SSR-in, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan MSSR-in suverenliyi və ərazi bütövlüyü müdafiə edilmədiyindən mühüm tarixi qərar qəbul etdi.

Məqsəd Azərbaycanda baş verən hadisələrə, sovet ordusunun qanlı əməllərinə dünya ictimaiyyətinin diqqətini cəlb etmək idi və bu müəyyən rol oynaya bildi. "Naxçıvan MSSR-də yaranmış ictimai-siyasi vəziyyət haqqında" Naxçıvan MSSR Ali Sovetinin qərarı ilə "Muxtar respublikanın ərazi bütövlüyü və vətəndaşlarının həyatı təhlükə qarşısında qaldığından, Qars müqaviləsinin şərtləri kobud surətdə pozulduğundan" Naxçıvan MSSR SSRİ-nin tərkibindən çıxaraq özünü müstəqil respublika elan etdi. Naxçıvanlılar öz azadlıqsevərliklərini bir daha nümayiş etdirərək Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağını Naxçıvan MSSR Ali Sovetinin binasının üstünə taxdılar. 27 yanvar 1990-cı ildə isə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Naxçıvan MSSR Ali Sovetinin tarixi qərarını ləğv etdi.

Naxçıvanın SSRİ-nin tərkibindən çıxıb özünü müstəqil respublika elan etməsi qərarı böyük tarixi əhəmiyyətə malikdir. SSRİ tarixində misli görünməmiş bu hadisə dünya ictimaiyyətinin diqqətini Azərbaycana və onun ayrılmaz hissəsi olan Naxçıvana qarşı imperiya və onun əlaltısı olan Ermənistanın hərəkətlərinə yönəltdi. Bununla əlaqədar Heydər Əliyev demişdir: "Bu, naxçıvanlıların nə qədər cəsarətli, qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını dünyaya sübut etdi..."

1990-cı ilin martından başlayaraq Naxçıvanın Ermənistanla sərhədində vəziyyət yenidən gərginləşməyə başladı. Artıq nizami ordu kimi fəaliyyət göstərən erməni quldurları Sədərək kəndinə, Şahbuz rayonunun Şada, Babək rayonunun Yuxarı və Aşağı Buzqov, Gərməçataq kəndlərinə aramsız həmlələr edirdilər. Martın 24-də isə Noraşen–Bakı sərnişin qatarı Mehri rayonundan keçərkən ermənilər tərəfindən partladıldı. Sədərək kəndinin Ermənistanla sərhəddə yerləşməsinin nəticəsi idi ki, ermənilər müntəzəm olaraq buranı atəşə tuturdular. 1990-cı il avqustun 29-da Azərbaycan SSRİ Ali Soveti Sədərək qəsəbə, Kərki, Dəmirçi və Maxta kənd sovetlərinin bazasında Sədərək rayonunun təşkili haqqında qərar qəbul etdi.

Ermənilərin silahlı basqınlarından qorunmaq, əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 7 sentyabr 1991-ci il tarixli qərarı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsi yaradıldı. Erməni quldurları Sədərək rayonundakı milis postunu atəşə tutmuş, Ordubad rayonu ərazisindən 2 nəfər çobanı və min başa yaxın mal-qaranı, Şahbuz rayonu Güney Qışlaq kəndi ərazisindən 250 baş xırdabuynuzlu heyvanı aparmış, Batabatdakı Biçənək adlanan yerdə yerləşən teleradio ötürücüsünü dağıtmış, 2 çobanı qətlə yetirmişdilər.

Azərbaycanda müstəqillik aktının qəbul edilməsinə ay yarım qalmış, hələ sovet hakimiyyətinin mövcud olduğu bir vaxtda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin rəhbərliyi ilə sovet qoşun hissələrinin muxtar respublikadan çıxarılmasının əsası qoyuldu. Bölgədə Naxçıvan Muxtar Respublikası Dövlət Milli Müdafiə Komitəsinin yaradılması ilə əlaqədar ordu quruculuğuna başlanıldı.

Sentyabrın 8-də Azərbaycanda prezident seçkiləri keçirildi. Demokratik qüvvələr bu seçkiləri boykot etdilər. Prezident seçkiləri Naxçıvan Muxtar Respublikası ərazisində kecirilmədi. Azərbaycan Respublikasının rəhbərliyi Naxçıvanın konstitusion hüquqlarının pozulmasına əl atdı. Azərbaycan Respublikası Ali Soveti tərəfindən respublika Konstitusiyasının "Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri vəzifəyə görə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavinidir" müddəasının təsbit olunduğu 112-ci maddəsinin 2-ci hissəsi çıxarıldı. Naxçıvanın Azərbaycan dövlətçiliyindəki rolunu yüksək qiymətləndirən Heydər Əliyevin qətiyyətli fəaliyyəti nəticəsində bu hüquqazidd qərar 1991-ci il oktyabrın 17-də ləğv edildi.

Beləliklə, Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi ilə Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə Naxçıvan həlledici mövqeyə keçdi. Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisində qəbul edilən qərarlar və həyata keçirilən tədbirlər Azərbaycanın müstəqilliyinin elan edilməsinə və SSRİ-nin ittifaq dövləti kimi dağılmasına əsaslı zəmin yaratdı. Muxtar respublikada həyata keçirilən tədbirlər, demokratik dəyişikliklər, milli dövlətçiliklə bağlı qəbul edilən qərarlar Azərbaycanın müstəqilliyini möhkəmləndirmək yolunda məqsədyönlü fəaliyyət sahələri idi. Naxçıvanda gedən demokratik dəyişikliklərin sorağı Azərbaycandan uzaqlara yayılırdı. Azərbaycanın müstəqil dövlət kimi siyasi fəaliyyətinin bir sıra konseptual istiqamətləri də məhz bu dövrdə işlənib hazırlanmışdı.

***İsmayıl HACIYEV,***
***AMEA Naxçıvan bölməsinin sədri, akademik***

# Müstəqil Azərbaycanı Zəfər yoluna çıxaran lider



**Əziz və unudulmaz xatirəsi həmişə bizimlə olan, daim sonsuz sevgi və ehtiramla andığımız Ümummilli liderin əbədiyyətə qovuşduğu 12 dekabr gününü 20 ildir ki, xalqımız dərin kədər və sonsuz ehtiramla qeyd edir. Dahi şəxsiyyət Heydər Əliyevin parlaq əməlləri, müdrik qərarları, xalqımızın xoşbəxtliyi və dövlətimizin qüdrətlənməsi naminə apardığı titanik mübarizə çoxəsrlik tariximizə misilsiz liderlik örnəyi, vətəndaşlıq rəşadəti nümunəsi kimi əbədi həkk olunub.**

Ulu öndər Heydər Əliyevin adını qədirbilən xalqımız haqlı olaraq müstəqil Azərbaycan dövləti ilə qoşa çəkir. Dahi rəhbərin dövlətimizin və xalqımızın taleyindəki tarixi rolu, xilaskarlıq missiyasının böyüklüyü zaman keçdikcə daha aydın görünür, qalib və qüdrətli ölkəmiz bu mənzərənin işığında inamla və qürurla böyük gələcəyə doğru addımlayır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə "Heydər Əliyev İli" elan edilmiş 2023-cü ildə Ümummilli liderin arzuları, ideyaları bütünlüklə gerçəkləşdi, Ulu öndərin müqəddəs ruhu bir daha şad oldu. Məhz "Heydər Əliyev İli"ndə möhtərəm Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yüksəliş və Zəfər tariximizin yeni və parlaq səhifələri yazıldı – ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin olundu, konstitusiya quruluşumuz bütün ərazilərimizdə bərqərar edildi. Müzəffər Ali Baş Komandanın illərlə həsrətində olduğumuz tarixi torpaqlarımızda – Xankəndidə, Ağdərədə, Xocalıda, Əsgəranda, Xocavənddə Azərbaycanın Dövlət bayrağını ucaltması "Heydər Əliyev İli"nə əlavə möhtəşəmlik gətirdi.

Dünya şöhrətli dövlət xadimi Heydər Əliyev elə bir fenomenal şəxsiyyətdir ki, zaman keçdikcə, onun zəngin irsi, ictimai-siyasi fəaliyyəti, ən mürəkkəb, ziddiyyətli şəraitlərdə verdiyi tarixi qərarlarının nəticələri tədqiqatçıların diqqətini dönə-dönə cəlb edir, müdrik rəhbərin mənalı həyatı və zəngin dövlətçilik fəaliyyəti daha dərindən öyrənilir. Hər dəfə də bu zəngin irsin, xalqın və dövlətin rifahına yönəlmiş misilsiz fəaliyyətin yeni nüansları, məqamları ortaya çıxır.

Ümummilli lider Heydər Əliyev çıxışlarının birində demişdi: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycana, Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub". Bu çətin, eyni zamanda, şərəfli missiya Ulu öndərin xüsusi xidmət orqanlarında fəaliyyətə başladığı illərdən respublikamıza rəhbərlik etdiyi, müstəqil Azərbaycanın təməllərinin qurulmasına və nəhayət müstəqil dövlətimizin tərəqqisinə və inkişafına qədər olan böyük bir yolu əhatə edir. Azərbaycan xalqı xoşbəxtdir ki, həmin tarixi yolu millət atasının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 günlük Vətən müharibəsindəki tarixi Zəfərimizə, bu gün azad Qarabağımızda aparılan misilsiz quruculuq işlərinə qədər gətirib çıxardıb. Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyənləşdirdiyi, parlaq, xeyirxah əməlləri ilə aydınlaşdırdığı, işıq saldığı müqəddəs yol bu gün də davam edir.

Unudulmaz rəhbərin siyasətinin başlıca hədəfi Azərbaycana və regiona sülh, sabitlik və davamlı inkişaf gətirmək idi. Qalib və qüdrətli Azərbaycanın Prezidenti İlham Əliyev bu gün həmin missiyanı şərəflə yerinə yetirir, ölkəmizin birmənalı lider olduğu regionda əbədi sülhün bərpası üçün qətiyyətli səylər göstərir. Dahi rəhbərin insanpərvərlik, humanizm siyasəti uğurla davam etdirilir. Müstəqil dövlətin qurucusunun ölkəmizin və regionun sabitliyi naminə həyata keçirdiyi müdrik siyasətin davamlılığı təmin edilir.

Xalqımızın qüdrətli oğlu Heydər Əliyevin "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam" kəlamı ilə adını, şöhrətini zirvələrə ucaltdığı, "Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı" adlandırdığı Bakı Dövlət Universitetinin çoxminli kollektivi, tələbələri də bu ali məktəbin dünya şöhrətli məzunu Heydər Əliyevin zəngin irsinin öyrənilməsi və təbliği sahəsində ardıcıl səylərini davam etdirir. Çoxminli kollektivimiz bütöv, qüdrətli, qalib, Qarabağı azad etmiş, Xankəndidə Zəfər Paradı keçirmiş Azərbaycanın vətəndaşı olmağın sonsuz fərəh və qürur hissini yaşayır.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi BDU kollektivinin üzərinə böyük məsuliyyət qoymuşdur. Ulu öndərin zəngin irsinin təbliğini, bu irsin gənc nəslə aşılanmasını özünün ali məqsədi hesab edən universitetimizin professor-müəllim heyəti, tələbələrimiz "Heydər Əliyev İli"ndə bu istiqamətdə səylərini daha da artırmışdır. Bu məqsədlə Bakı Dövlət Universitetinin Elmi Şurasında Tədbirlər Planı qəbul olunmuşdur. Tədbirlər Planında müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin misilsiz, çoxşaxəli fəaliyyəti ilə bağlı beynəlxalq elmi konfransların keçirilməsi, fundamental kitabların hazırlanması, xüsusi mühazirələrin və dərslərin təşkili olunması, müxtəlif müsabiqə və festivalların keçirilməsi və s. kimi mühüm tədbirlər öz əksini tapmışdır.

Universitetin və ölkəmizin nüfuzlu alimlərinin, ictimai-siyasi, ədəbiyyat və incəsənət xadimlərinin iştirakı ilə təşkil olunan silsilə xüsusi mühazirələrdə, ustad dərslərində, dəyirmi masalarda tələbə gənclərə xalqımızı ağır sınaqlardan siyasi müdriklik və məharətlə, əzm və iradə ilə, dühasının və idrakının yenilməz gücü ilə çıxarmış, dövlət müstəqilliyinə, tərəqqiyə və dayanıqlı inkişafa qovuşdurmuş qüdrətli dövlət başçısı Heydər Əliyevin çoxşaxəli və zəngin fəaliyyəti, onun milləti, xalqı qarşısında misilsiz xidmətləri haqqında ətraflı məlumat verilir.

Xalqımızın və dövlətimizin ötən əsrin 70-ci illərindən başlayaraq əldə etdiyi bütün uğurlarının təməlində fenomenal şəxsiyyət Heydər Əliyevin müdrik siyasətinin, nurlu əməlləri və parlaq simasının dayandığı əsaslandırılır. Həyatının əsas məqsədi, başlıca amalı Azərbaycanın dövlət müstəqilliyinin qorunması və möhkəmləndirilməsi, doğma xalqının xoşbəxtliyi olan dahi rəhbər bütün mənalı ömrünü bu ali məqsədlərə nail olunmasına həsr edib, dövlətimizin möhkəmlənməsində, xalqımızın rifahının yüksəldilməsində misilsiz xidmətlər göstərib.

"Heydər Əliyev İli"ndə universitetin alimlərinin Ümummilli liderin fəaliyyətinin müxtəlif sahələrini özündə əks etdirən kitablar yazılması xüsusilə təqdirəlayiqdir. Universitetin nüfuzlu alimlərinin ərsəyə gətirdiyi bu nəşrlər bugünkü əhəmiyyəti ilə yanaşı, gələcək nəsillər üçün, elmi-tədiqiqatçılar üçün mənbə rolunu oynayacaq, Ulu öndərin irsinin, tarixi xidmətlərinin gələcək əsrlərə və nəsillərə ötürülməsinə öz töhfəsini verəcəkdir.

Bakı Dövlət Universitetində ən müxtəlif platformalarda tədbirlər, layihələr davamlı olaraq həyata keçirilir. Universitetin müəllimləri, tələbələrimiz ölkəmizin qüdrətlənməsi, müdrik dövlət xadimi Heydər Əliyevin inkişaf doktrinasının həyata keçirilməsi istiqamətində öz missiyalarını ləyaqətlə yerinə yetirirlər. Möhtərəm Prezidentimiz İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə əhatə olunmuş elmimizə və təhsilimizə xidmət göstərməkdən şərəf duyurlar.

Xalqına misilsiz xidmətlərinə, doğma Vətəninə sonsuz sevgisinə görədir ki, bu gün dahi şəxsiyyət Heydər Əliyev ölkəmizin hər bir yerində, onun hüdudlarından kənarda belə hər bir azərbaycanlı tərəfindən minnətdarlıqla anılır, əziz xatirəsi həmişə uca tutulur. Bu gün bütün uğurlarımızın və qələbələrimizin banisi, müstəqil Azərbaycanın memarı, dövlətçiliyimizin xilaskarı, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyevi sevgi ilə, ehtiramla və sonsuz minnətdarlıq hissləri ilə yad edirik.

Əziz və unudulmaz Ümummilli liderimizə Allahdan rəhmət diləyir, banisi olduğu və bu gün dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə inkişafının ən yüksək mərhələsini yaşayan qüdrətli Azərbaycanımıza daha böyük uğurlar, qələbələr, zəfərlər arzulayırıq.

Əminik ki, müstəqil Azərbaycanın banisi və qurucusu Heydər Əliyevin layiqli davamçısı, ölməz rəhbərin siyasi kursuna sədaqətin rəmzinə çevrilən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurları davam edəcək, ardıcıl qələbələrimiz, tarixi zəfərlərimiz sarsılmaz xalq-iqtidar biriliyinin sayəsində özünün yeni inkişaf mərhələlərini yaşayacaqdır.

***Elçin BABAYEV,***
***Bakı Dövlət Universitetinin rektoru***

---

## UNUDULMAZ XATİRƏLƏR

# Ulu öndər Göyçədə qırğının qarşısını necə almışdı?

**Bir zaman Prezident Heydər Əliyevin şəxsi tərcüməçisi olmuş diplomat, Harvard Universitetinin keçmiş məzunu Tahir Kərimovun Ümummilli liderlə bağlı çoxlarına məlum olmayan maraqlı xatirələri var. Həmin xatirələrdən birini təqdim edirik.**

1965-ci ilin bir bahar günü Göyçə (Krasnoselo) Rayon Partiya Komitəsindən Kazım Əliyevin iş telefonuna zəng çalındı. 1-ci katib Əli Həsənov idi:

– Kazım, Ağbulaqdakı təsərrüfatlarla bağlı fikrini bilmək istəyirəm. Gəlirəm sənin otağına, danışaq.

Əli Həsənov söhbət zamanı bir neçə dəfə Ağbulaq kəndinin adını çəkdikdən sonra gözlərinin işarəsi ilə Kazım Əliyevi dəhlizə çağırıb dedi:

– Günorta qonağımız olacaq. Bu yerlərin adamı deyil. Sizdə nahar edəcəyik. Səməndər bacıya de, hazır olsun. Telefonla bir söz demə. Bizim evdə "qulaq" var (Əli Həsənov evində danışıqların izlənməsi üçün ermənilər tərəfindən cihaz quraşdırıldığını nəzərdə tuturdu).

Bu yerlərin qaydası belə idi ki, qonağın kimliyini soruşmurdular. Günorta Kazım Əliyevin evinə "QAZ-69" markalı bir maşın yaxınlaşdı. Ev sahibi və Əli Həsənov qonağı eşikdə gözləyirdilər. Maşından hündürboylu, idmançı cüssəli, mavi gözlü, 40 yaşlarında bir adam düşdü. Əli Həsənovla görüşdü. Daha sonra Kazım Əliyevin əlini sıxdı və diqqətlə ona baxdı. Həyətə daxil oldular. Qonaq Əli Həsənovdan soruşdu:

– Haqqında danışdığın qonaq bu adamdırmı?

Əli Həsənov başı ilə təsdiq etdi. Evə keçdilər. Səməndər xanım məcməyidə xoruzpipiyi çayla içəri daxil oldu.

– Sizin tərəfdə kəklikotu olmurmu? – qonaq ətirli çaydan bir qurtum içib ərkyana soruşmaqla otağa çökmüş rəsmiyyətə bir doğmalıq, səmimilik qatdı.

Az keçmiş Səməndər xanım kəklikotu çayını süfrəyə düzdü, yanında da İrəvan kətəsi. Otağı xoş ətir bürüdü. Çayın qonağın ürəyincə olması aydın seziliridi. O, tavana, divarlara göz gəzdirdi. Elə bil, öz-özlüyündə nəyi isə götür-qoy edirdi. Bir stəkan çaydan sonra saatına baxdı:

– Yemək qalsın başqa vaxta. Çıxaq havaya, – deyib ayağa qalxdı. Səməndər xanıma isə minnətdarlığını bildirdi:

– Belə yerlərin kəklikotu dəmini içməyib gedə bilməzdim.

Qonaq Əli Həsənovla Kazım Əliyevi də özü ilə götürüb ermənilərin sıx məskunlaşdığı Orconikidze kəndini keçərək, Şınıx dərəsi tərəfə, Azərbaycan SSR ərazisinə yön aldı. – Gədəbəydə Mutu dərəni keçib, Köhnə Baş Keçidə çatdılar. Qonaq: "Qoy, Əliyev bizi burada gözləsin", – dedi.

Əli Həsənovla qonaq aralanıb şumluğa yollandılar. Kazım Əliyev maşının yanında qaldı. Bir saat davam edən söhbətdən sonra qonaqla 1-ci katib geri döndülər. Qonaq hər ikisi ilə görüşüb, öz maşınına tərəf irəliləməzdən əvvəl Əli Həsənova sakit, lakin qətiyyətli səslə dedi:

– Yoldaşa da vəziyyəti izah et. Heç bir şeydən də çəkinməyin. Bir addım belə ata bilməzlər. Möhkəm dayanın.

"QAZ-69" uzaqlaşdı. Əli Həsənov qayğılı halda Kazım Əliyevə yaxınlaşdı:

– Bu adam bizi böyük bəladan qurtarmağa gəlib. Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinin sədr müavini Heydər Əliyevdir. Bakıdan Naxçıvana, oradan da maşınla birbaşa bizim rayona gəlib. Qonşularımız yenə dinc durmurlar...

İki gün sonra rayonda görünməyən hadisələr baş verdi. Çəmbərəkə Moskvadan SSRİ DTK-nın nümayəndələri gəldilər. Sovet rəhbərliyi o zaman milli məsələyə və millətçiliyin hər hansı bir təzahürünə qarşı çox həssas idi. Rayonun "Orduya, Aviasiyaya və Donanmaya Könüllü Yardım Cəmiyyəti"nin binasından yoxa çıxmış silahları Moskvadan gələn komissiya üzvləri ermənilərdən taparaq yığdılar. Məhdud sayda adama məlum idi ki, oradan və rayon milis şöbəsinin saxlancından "itmiş" silahlar əvvəlcədən hazırlanan plana əsasən ermənilərə paylanıbmış. Aprelin 24-ü, qondarma "erməni soyqırımı" günündə Yerevandan gəlmiş dəstə ilə yerli millətçilər təxribatlar törədərək, Gədəbəyin Şınıx dərəsinin yaxın kəndlərində və Krasnoselonun Ardanış, Şorca və Ağbulaq kəndlərində azərbaycanlıları qırmağı planlaşdırıbmışlar.



Məsələ burasında idi ki, qondarma "erməni soyqırımı"nın 50 illiyi ərəfəsində Qərbdə, o cümlədən Latın Amerikasında və Yaxın Şərqdə yaşayan ermənilər Türkiyə əleyhinə genişmiqyaslı terror aksiyalarına start verməyi qərara almışdılar. Ondan əvvəl isə Azərbaycanda və Ermənistanda soydaşlarımıza qarşı silsilə təxribatlar planlaşdırılmışdı. Sovet rəhbərliyi qonşu Türkiyəyə təzyiq aksiyası olaraq 1965-ci ildə "soyqırım"la bağlı İrəvanda məhdud çərçivədə tədbir keçirilməsinə icazə vermişdi. Amma xəbər tutan kimi Göyçə qırğınının qarşısı alınmışdı.

...Sonra Krasnoseloda dindirmələr, sorğu-suallar başlanmışdı. Rayonun partiya-sovet və hüquq-mühafizə orqanlarının rəhbərləri də Moskvadan göndərilmiş xüsusi komissiya tərəfindən şübhəlilər qismində təhqiqata cəlb olunmuşdular. Yerli milis şöbəsinin rəisi mayor Qaleçyan xüsusilə narahat görünmüşdü. Əsaslar isə ciddi olmuşdu. Əvvəllər də azərbaycanlılara qarşı nifrətini gizlətməyən Qaleçyanın dinc əhalinin əmin-amanlığını qorumaq əvəzinə, terror şəbəkəsinin əsas əlaqələndiricisi olması üzə çıxmışdı.

O zaman rayonda müxtəlif şayiələr yayılmağa başladı. Artıq terror şəbəkəsinin İrəvana, oradan da xaricə uzanması müzakirə edilmişdi. Moskva komissiyasının rayonda olduğu ikinci gün isə Qaleçyanın öldürüldüyü xəbəri yayılmışdı. Rəsmi versiya "özünəqəsd" olmuşdu. Kabinetində Qaleçyanın ağzına atəş açılmışdı. Kriminal aləmdə ağzından söz qaçıran şəbəkə üzvləri belə cəzalandırılırdı. Bu ölüm, əslində, Moskva komissiyasının da işinə yaramışdı. Şəbəkənin əsas təşkilatçıları və üzvləri aşkar edilməmiş, həbs olunmamışdılar...

O zaman az sayda adam bildi ki, qəfil Göyçəyə gələn həmin qonaq 4 il sonra Azərbaycanın rəhbəri olmuş Heydər Əliyev imiş. O, bu gəlişi ilə Göyçəni qırğından xilas etmişdi. Moskvanı da bu gizli qəsddən o xəbərdar etmişdi.

Bu gerçək hadisə Heydər Əliyevin həyatından olan kiçik bir epizoddur. Yüzlərlə, minlərlə soydaşımızı xilas edən epizod. O gündən sonra göyçəlilər Heydər Əliyevin sayəsində daha 23 il öz dədə-baba torpaqlarında yaşayıb-yaratdılar. Əli Həsənov daha 4 il 1-ci katib oldu. Sonra İrəvanda rəhbər vəzifələrdə işləsə də, axır ki, ermənilərin qəzəbinə tuş gəldi. Erməni siyasi dairələrinin təqibləri başlanmışdı, hər an şərlənərək həbs edilməsi mümkün idi. Lakin Heydər Əliyev uzaqgörənlik edib, sərvaxt tərpənərək, bu vətənpərvər azərbaycanlını erməni şovinizminin cəngindən xilas edib, Azərbaycana dəvət etdi və o, respublikamızda da məsul vəzifələrdə çalışdı. Əli Həsənovdan sonra azərbaycanlıların böyük əksəriyyət təşkil etdiyi Göyçədə bir daha 1-ci şəxs postuna azərbaycanlı təyin edilmədi.

Tahir Kərimov sonda bildirib: "O dövrün gerçəkliyi elə idi ki, sovet rejiminin sərt qadağaları çərçivəsində Heydər Əliyevin belə fədakarlıqlarından xalqımızın xəbəri olmurdu, ancaq bunları az sayda bilənlər Azərbaycan xalqının böyük oğlunun bu vətənpərvərlik əməllərini daim minnətdarlıqla xatırlayırlar. Nə yaxşı ki, müsahibim göyçəli həkim Hüseyn Hüseynov kimi şəxslər həmin hadisələrin canlı şahidləri olublar".

***Təqdim etdi:***
***Rəhman ORXAN,***
***Əməkdar jurnalist***

# Aqrar təhsilin inkişafında Heydər Əliyev imzası

**Azərbaycan Dövlət Aqrar Universiteti respublikamızın ali təhsil müəssisələri arasında yaşı bir əsri adlamışlardandır. Bu tarixi araşdırdıqca ölkənin aqrar sektoruna mühüm töhfələr vermiş böyük bir elm məbədinin keçdiyi şərəfli yolun bir sıra maraqlı məqamları yada düşür.**



1919-cu ilin sentyabrı. Məhz bu ayda Azərbaycan İnqilab Komitəsinin qərarı ilə ilk ali məktəb – Bakı Dövlət Universiteti yarandı. Ali təhsilimizin ilk bünövrəsinin ardınca Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun imzaladığı növbəti qərarla 1920-ci il noyabrın 13-də ikinci ali məktəb – Bakı Politexnikumunun bazasında Bakı Politexnik İnstitutu, dekabrın 14-də isə bu institutun nəzdində 5 fakültə, o cümlədən kənd təsərrüfatı fakültəsi yaradıldı. Həmin tarixi gündən etibarən kənd təsərrüfatı kadrlarının hazırlanmasına start verildi.

Araşdırmalarımız deməyə əsas verir ki, məhz 14 dekabr 1920-ci il respublikamızda ali aqrar təhsilin başlandığı gün kimi qəbul olunmalıdır. Bu əlamətdar tarixi günlə bağlı Azərbaycanın 2 böyük şəxsiyyətinin – İnqilab Komitəsinin sədri Nəriman Nərimanovun və Ulu öndər Heydər Əliyevin imzaları vardır.

Arxiv sənədlərindən göründüyü kimi, N.Nərimanovun imzaladığı qərardan sonra yeni yaradılmış kənd təsərrüfatı fakültəsinə o dövrdə Cənubi Qafqaza sürgün edilmiş bir qrup rus və digər əcnəbi alimlər arasından aqronom N.A.Lebedev dekan təyin olunmuşdur.

1924-cü ildə ölkədə ali kənd təsərrüfatı mütəxəssislərinin ilk buraxılışı olur. Elə bu buraxılış və onun azsaylı məzunları azərbaycanlı aqrar mütəxəssislərin yetişməsinə geniş meydan açır.Adətən hər bir işin başlanğıcı çətin olur və nə qədər çətinliklər olsa belə, vaxtilə Həsən bəy Zərdabinin "Əkinçi"sində və maarifpərvər insanlarımızın xəyallarında gəzdirdikləri arzular reallaşır– milli aqrar təhsilimizin ilk qaranquşları torpağın və əkinçiliyin elmi sirlərini öyrənmək uğrunda gərgin mübarizələrə qatılır.Doğrudur, bu işdə rus alimlərinin də rolu danılmazdir.

1921-1929-cu illərdə torpaqşünaslıq elminin banisi V.V.Dokuçayevin tələbəsi, professor Vladimir Pavloviç Smirnov-Loqinov fakültəyə rəhbərlik edir.

1929-cu ilin may ayında isə Bakıda kənd təsərrüfatı fakültəsinin bazasında Azərbaycan Kənd Təsərrüfatı İnstitutu yaradılır. 1931-ci ildə bu institut Bakıdan AXC-nin ilk paytaxtı Gəncəyə köçürülür.

Gəncədə fəaliyyət göstərən Zaqafqaziya Pambıqçılıq İnstitutu, Azərbaycan Zoobaytarlıq İnstitutu və Tiflisdəki Hidromeliorasiya İnstitutu 1933-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) tərkibinə birləşdirilir.

Qeyd edək ki, AKTİ (indiki ADAU) 1991-ci ilin sonunadək keçmiş Sovet İttifaqındakı 108 kənd təsərrüfatı institutunu və 16 filialı özündə birləşdirən SSRİ Kənd Təsərrüfatı Nazirliyinin nəzdindəki Ali Kənd Təsərrüfatı Təhsili Baş İdarəsinin tabeliyində olmuşdur. O zaman ölkədə fəaliyyət göstərən kənd təsərrüfatı institutlarının rektorları və prorektorları respublika rəhbərlərinin təqdimatı əsasında baş idarə tərəfindən təyin olunurdular.

AKTİ 1991-ci ilin iyun ayından Azərbaycan Kənd Təsərrüfatı Akademiyası, 2009-cu ilin aprel ayından isə Azərbaycan Dövlət Aqrar Universiteti adlanır. Bu ali təhsil ocağı 1992-ci ildən 2000-ci ilədək Kənd Təsərrüfatı Nazirliyinin, 2000-ci ildən 2007-ci ilədək Təhsil Nazirliyinin tabeliyində olmuş, 2007-ci ildən yenidən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindədir.

Kənd Təsərrüfatı İnstitutunun inkişafı Ulu öndər Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur.Təhsil müəssisəsinin ən böyük uğurları da məhz Ümummilli liderin respublikamıza rəhbərlik etdiyi dövrlərə təsadüf edir.

1969-cu il iyulun 14-də Heydər Əliyev Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi seçilir.Az sonra, iyulun 22-də Ulu öndərimizin rəhbərliyi ilə respublikada yüksək ixtisaslı kadr hazırlığında və kənd təsərrüfatı elminin inkişafında böyük xidmətləri nəzərə alınaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan SSR Nazirlər Sovetinin "S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) 50 illiyinə hazırlıq və onun keçirilməsi tədbirləri haqqında" tarixi qərarı qəbul edilir. Yubileyin keçirilməsi 1970-ci il dekabrın 14-ə təyin edilir.Mərkəzi Komitənin katibinin sədrliyi ilə 27 nəfərdən ibarət hökumət üzvlərindən ibarət yubiley komissiyası yaradılır və bu qərardan irəli gələn müddəaların icrasını təmin etmək məqsədilə müvafiq orqan və təşkilatlara göstərişlər verilir. Lakin üzrlü səbəblərdən yubiley təyin olunmuş müddətdə – 14 dekabrda keçirilmir. Buna baxmayaraq, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1979-cu il 13 mart tarixli qərarı ilə AKTİ-nin ( indiki ADAU) 50 illik yubileyinin keçirilməsinə yenidən baxılır və icazə verilir. Beləliklə, respublikamızın rəhbəri Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yüksək ixtisaslı mütəxəssis hazırlığında və kənd təsərrüfatı elminin inkişafında xidmətlərinə görə Azərbaycan Kənd Təsərrüfatı İnstitutu SSRİ Ali Soveti Rəyasət Heyətinin 1979-cu il 16 may tarixli fərmanı ilə "Şərəf nişanı" ordeni ilə təltif edilir.

Universitetimizə 1980-ci il dekabrın 16-da Ulu öndər Heydər Əliyevin gəlişi, keçmiş "Bakı" kinoteatrının böyük salonunda keçirilmiş yığıncaq tariximizin silinməyən səhifəsidir. Sovet İttifaqının rəhbərliyi adından institutun kollektivinə təntənəli şəraitdə ordeni təqdim edən Ümummilli liderimiz həmin unudulmaz yubiley mərasimində öz tarixi nitqini söyləyir.

Ulu öndərin ölkənin yeganə ali aqrar təhsil müəssisəsinə göstərdiyi diqqət və qayğı bu gün onun layiqli davamçısı,möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ən yüksək səviyyədə davam etdirilir. Qocaman elm məbədi müasirləşir, dünyanın aparıcı aqrar təhsil müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri qurur, aqrar təhsil sahəsində yeniliklərə imza atır.

Ayrı-ayrı illərdə ADAU-ya rəhbərlik etmiş rektorlar – Dadaş Bünyadzadə, İslam Datıyev, Hüseyn Musayev, Yusif Tahirov, Əzim Dadaşov, Möhsün Poladov, Soltan Mirzəyev, Bala Ağayev, Məmməd Mehdiyev, Niyaz Səfərov, Bəhman Xəlilov, Məmmədtağı Cəfərov, Raul Qədimov, Mirdaməd Sadıqov, İbrahim Cəfərov ölkəmizdə aqrar ali təhsilin və elmin inkişafına öz töhfələrini vermişlər. Hazırda bu ali rektoru texnika üzrə fəlsəfə doktoru Zəfər Qurbanovdur.

Beləliklə, 14 dekabr unudulmaz tarixi gün kimi 1920-ci ildən bu günə aqrar təhsilimizə qızıl hərflərlə yazılmışdır. İki böyük şəxsiyyətin imzasından xeyir-dua almış ADAU bu gün müasir inkişaf dövrünü yaşamaqdadır.

***Nüsrət HÜSEYNOV,***
***dosent, qabaqcıl təhsil işçisi,***
***Maarif RZAYEV,***
***ADAU-nun "Aqrar mütəxəssis" qəzetinin baş redaktoru***

# Yeni nəslin uğurlarına yol açmış gənclər siyasəti



**Öncə onu deyim ki, ölkəmizdə qeyd edilən "Heydər Əliyev ili" möhtəşəm uğurlarla başa çatmaqdadır. Xalqımızın və dövlətimizin bu il qazandığı uğurları sadalamaq fikrindən uzağam. Ancaq onu deməkdən məmnunam ki, ölkəmizin öz dövlət müstəqilliyini bərpa etməsindən keçən otuz iki ilin ən möhtəşəm uğurunu məhz bu il qazandıq. Doğrudur, əvvəlki illərdə də çoxsaylı uğurlara imza atmışdıq. Amma işğaldan azad edilmiş ərazilərimizin hamısında üçrəngli dövlət bayrağımızın qaldırılmasını və Xankəndidə hərbi parad keçirilməsini son bir neçə əsrdəki ən böyük qələbəmiz adlandıranlarla birmənalı şəkildə razıyam.**

Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi haqqında Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamının icrasına gəlincə isə mən çalışdığım ali məktəbin nümunəsində deyə bilərəm ki, bu əlamətdar yubileyi layiqincə qeyd etməyən nəinki hansısa dövlət qurumu, təhsil müəssisəsi, hətta bir fakültəmiz də qalmadı. Yəni ölkədə bu əlamətdar il elliklə qeyd edildi. Daha doğrusu, bu münasibətlə keçirilən tədbirlər hələ davam edir.

Onu da xüsusilə vurğulamaq zərurəti var ki, ölkəmizin bütün ərazilərində suverenliyimizin bərpa edilməsi faktı Ulu öndərin 100 illiyinin və cənab İlham Əliyevin dövlət başçısı seçilməsinin 20 illiyinin qeyd edildiyi təqvim ilinə düşdü. Fikrimcə, bu bir təsadüf deyil, İlahi ədalətin təsdiqidir. Çünki Heydər Əliyev dövlət müstəqilliyimizə əbədilik qazandırmış, bizi vətəndaş müharibəsinin astanasından qaytarmış, Prezident İlham Əliyev isə Azərbaycanı dünyanın aparıcı dövlətlərindən birinə çevirmiş və xalqımızın möhtəşəm qələbələrinə imza atmışdır. Yəni, adıçəkilən misilsiz zəfərin məhz bu ilə düşməsi mükəmməl bir ədalət nümunəsidir.

Onu da qeyd etmək vacibdir ki, həm Ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev istənilən qələbəmizin qazanılmasında gənclərin daha böyük xidməti olduğunu dönə-dönə vurğulamışlar. Daha doğrusu, ölkə gəncliyi onların çağırışlarına cavab olaraq, daha mütəşəkkil şəkildə təşkilatlanmış, birləşmiş və qarşıya qoyulan vəzifələrin öhdəsindən şərəflə gəlmişdir.

Bu barədə danışanlar və ya yazanlar Ulu öndərin ölkədə siyasi hakimiyyətə qayıdışından sonra öncə elm ictimaiyyətinin nümayəndələri ilə, sonra isə gənclər təşkilatlarının təmsilçiləri ilə görüşməsini, Gənclər forumunun keçirilməsini, bu siyasətin mərkəzləşdirilməsi məqsədilə Gənclər və İdman Nazirliyinin yaradılmasını, eləcə də, sonrakı tədbirləri dəfələrlə xatırladıblar. Ona görə də, mən başqa bir məqamı yada salmaq istəyirəm.

Belə ki, Ulu öndər Heydər Əliyev 2003-cü il oktyabrın 1-də növbəti prezident seçkilərində ona səs verəcəyini müəyyən etmiş seçicilərin İlham Əliyevə səs verməsini istəyərək, xalqa ünvanladığı tarixi müraciətdən cəmi iki həftə sonra ölkə gəncliyinə başqa bir müraciət göndərmişdi. Fikrimizi bir az da dəqiqləşdirək.

Azərbaycan Respublikası gənclərinin üçüncü forumuna (13 oktyabr 2003-cü il) məktub göndərən Ulu öndər yazırdı: "Bu gün Azərbaycan Respublikası öz tarixinin şərəfli və mürəkkəb dövrünü yaşayır... XXI əsrdə müstəqil Azərbaycanın inkişafı naminə görüləcək bu əzəmətli işlərin həyata keçirilməsinin əsas ağırlığı və məsuliyyəti isə bugünkü gənclərin üzərinə düşür. İnanıram ki, zəngin və dərin mənəviyyata sahib, vətənpərvər gəncliyi olan xalqımızın daha böyük, daha parlaq gələcəyi var. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətçiliyini yaşatmaq, onu qüdrətli etmək üçün siz, yüksək amallı Azərbaycan gəncləri daim hazır olmalısınız". Yəni, böyük dövlət xadimi ölkə gəncliyini böyük amallar uğrunda səfərbər edirdi.

Həmin səfərbərliyin hansı nəticələr verdiyini isə Prezident İlham Əliyevin 2023-cü il mayın 10-da ölkə əhalisinə Şuşadan ünvanladığı müraciətdə daha aydın şəkildə gördük. Dövlət başçımız qeyd etmişdi ki, Heydər Əliyevin müstəqil Azərbaycanın Prezidenti kimi misilsiz xidmətləri vardır. Məhz onun qoyduğu yolla bu gün Azərbaycan uğurla gedir. Burada onun fəaliyyəti təkcə iqtisadi islahatlarla məhdudlaşmırdı. Milli-mənəvi dəyərlərin qorunmasında onun çox böyük rolu olmuşdur, gənc nəslin vətənpərvərlik ruhunda yetişməsində çox böyük rolu olmuşdur. Məhz onun təşəbbüsü ilə 1996-cı ildə Azərbaycanda birinci Gənclər Forumu keçirilmişdir. O vaxtdan bu günə qədər müntəzəm olaraq Gənclər forumları keçirilir. Qarabağı, Zəngəzuru azad edən məhz gənclər olmuşdur, ovaxtkı gənclər və son 20 il ərzində yetişmiş gənclər.

Başqa bir fakt. Ulu öndər Heydər Əliyev 2002-ci il iyunun 17-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialında kursantlarla görüşdəki nitqində demişdir: "Əziz balalar, əziz övladlar! Mən hələ 30 il bundan öncə və ondan sonrakı illərdə hər il Naxçıvanski adına hərbi məktəbə gedərkən qarşımda 14, 15, 16 yaşlı gəncləri, onların hərbi marşla sıra ilə addımlamalarını görürdüm. Oradan qayıdarkən həmişə böyük təəssüratlar içində olurdum. Mən bu gün də sizi görərək, sizə baxaraq bu hissiyyatları keçirirəm. Mən sizə baxaraq Azərbaycanın gözəl gələcəyini görürəm. Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Biz Azərbaycanın gələcəyini gənclərə etibar edirik".

Bəli, o böyük dövlət xadimi ölkəmizin gələcəyini gənclərə etibar etdi və gənclərimiz də həmin etimadı yüksək səviyyədə doğrultdular.

Mən məmnunam ki, bir gənc olaraq həm Ulu öndərin, həm də cənab Prezidentin bizim qarşımıza qoyduğu vəzifələrin icrasına bacardığım qədər töhfələr verə bilmişəm. Belə ki, hələ Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə kredit" fakültəsində oxuduğum illərdən universitetin və ölkəmizin ictimai-sosial həyatında yaxından iştirak etmiş, 2013-cü ildə prezident seçkiləri, 2015-ci ildə Milli Məclis və 2018-ci ildə yenə də prezident seçkilərindəki fəaliyyətimə görə YAP Səbail rayon təşkilatı adından fəxri fərmanlarla təltif olunmuşam. 2013-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüyəm. 2021-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə təşkil olunan I Yüksəliş müsabiqəsindəki uğurlara görə "Fəxri fərman"la təltif olunmuşam. 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Həmkarlar İttifaqı Komitəsinin sədri vəzifəsinə seçilmişəm.

Ulu öndər biz gənclərə idmanla məşğul olmağı da tövsiyə edirdi. Fəxr edirəm ki, həmin çağırışa cavab olaraq, idman sahəsinə verdiyim müəyyən töhfələrə görə. Azərbaycan Respublikası Universal Döyüş Növləri Federasiyasının idarə heyətinə üzv seçilmişəm. 2022-ci ildən "Davam" Gənclər Hərəkatının "Ali təhsil müəssisələri ilə əlaqələndirmə mərkəzi"nin rəhbəri və eyni zamanda, sədrin müşaviniyəm. 2023-cü ildən Gənc MÜSİAD (Müstəqil və sənayeçi iş adamları dərnəyi) İdarə Heyətinin üzvüyəm. Eləcə də, 50-dən çox beynəlxalq tədbirdə və konfranslarda iştirak etmiş, xeyli sosial layihələrin universitetdə həyata keçirilməsinə nail olmuşam.

Yəni, xalqımızın böyük liderinin ölkə gəncləri qarşısında qoyduğu vəzifələrin bəzilərinin öz həyatımda reallaşdırılmasına nail olmuşam. Fikrimcə, bütün bunlar bir gəncin "Heydər Əliyev ili"nə verdiyi töhfələr kimi qəbul edilə bilər.

***Rüfət SÜLEYMANLI,***
***Azərbaycan Dövlət İqtisad Universiteti Həmkarlar İttifaqı Komitəsinin sədri***



# Ulu öndərin şəxsi fotoqrafı

**Ümummilli lider Heydər Əliyev Azərbaycan xalqının yaddaşında qayğıkeş rəhbər, səmimi və gözəl insan kimi iz qoymuşdur. Getdiyi hər yerdə, olduğu hər görüşdə xoş xatirələr qoymuş Ulu öndər sənətin məna və mahiyyətini, onun insanların qəlbinə, hissinə, əqidəsinə dərin təsirini, tərbiyəvi əhəmiyyətini, ideya-estetik keyfiyyətini də dərindən duyurdu. Onun sənət adamlarına hörməti, diqqəti, qayğısı hər zaman yüksək olmuşdur. Bu insan həyatının bütün mərhələlərində daim Azərbaycanın inkişaf və tərəqqisi naminə çalışmışdır.**

Elə buna görədir ki, ölkəmizdə davam edən "Heydər Əliyev İli" çərçivəsində ölkənin hər yerində keçirilən çoxsaylı tədbirlərdə incəsənət adamları da fəal iştirak edir, unudulmaz rəhbəri ehtiramla yad edirlər. Azərbaycan Dövlət Teatr Muzeyində "İRƏLİ" İctimai Birliyinin təşkilatçılığı, Azərbaycan Gənclər Fondunun dəstəyi ilə ulu öndərin fotoqrafı kimi tanınmış Rafiq Bağırovla görüşdə də əsas mövzu Heydər Əliyevin sənət görüşləri və sənətlə bağlı xatirələri oldu. Əvvəlcə Rafiq Bağırov geniş təqdimatla çıxış etdi. O, Ümummilli lider Heydər Əliyevin şəxsi fotoqrafı olduğu dövrə nəzər saldı, həmişəyaşar liderlə bağlı xatirələrindən söhbət açdı.

***XQ-ya müsahibə verən fotoqraf dedi:***

***– Çox xoşbəxtəm ki, Ulu öndər Heydər Əliyevin çox sayda fotolarını çəkmək məhz mənə nəsib olub. Bu fəxr və şərəfdir ki, onun artıq tarix olan fotolarının müəllifi mənəm. Buna görə mənim də adım Heydər Əliyevin şəxsi fotoqrafı kimi tarixə yazılıb.***

– Heydər Əliyev dünyaşöhrətli şəxs idi. Onunla işləmək böyük məsuliyyət idi. Sovet İttifaqının görkəmli rəhbərlərindən olmuş bu adam hər bir işə çox tələbkar idi. Onun yanında nə səhv buraxmaq olardı, nə də artıq hərəkət etmək. Sadə, səmimi, zarafatcıl olmaqla yanaşı, həm də ciddi idi. İşə səhər vaxtında gələr, gecə gec saatlarda gedərdi. Özünü xalqına, millətinə həsr etmişdi.

***Heydər Əliyevin şəkil çəkdirməyə münasibəti barədə Rafiq Bağırov dedi ki, Ulu öndərin fotoya münasibəti çox həssas idi. Bütün işlərində olduğu kimi burada da tələbkar idi:***

– Hərdən qəribə hadisələr olurdu. Məsələn, qışda qar yağanda, yazda isə güllər açılanda şəkil çəkdirməyi çox sevərdi. Deyərdi ki, çöldə gözəl qar yağıb, hər yer ağappaqdır. Və ya ağaclar çiçəkləyib, gözəl mənzərə var. Belə anları lentə almağı unutma. Qışda çəkdiyim əlində qartopu olan bir şəkli var. Kadrın daha yaxşı alınması üçün Heydər Əliyevdən xahiş etdim ki, bir qartopu düzəltsin. Düzəltdi və əlini qaldırdı, dedi ki, indi səni vurum qartopu ilə. Dedim vurun. Qartopunu atdı. Amma mənə dəymədi. Heyfsiləndim ki, məndən yan keçdi. Maraqlı kadr alındı. Yazda ağacların çiçək açdığı ərəfədə də çox gözəl fotolar çəkmişəm. Şəkillərdən razı olub-olmadığını soruşanda isə xoş sözlər deyərdi. Görmədiyi şəkilləri qəzetlərə, jurnallara verməzdik.

Maraqlı bir xatirəni bölüşüm sizinlə. "Bakinskiy raboçiy" qəzetində ad günü ərəfəsində onun prezident kimi yox, sadə şəklini istədilər məndən. Bir-iki maraqlı kadr axtarıb tapdım. Şəkil qəzetdə dərc olundu. Sonra köməkçisi bildirdi ki, prezident səni çağırır. Kabinetə daxil olanda qəzeti masanın üstündə gördüm. Onun şəkli qəzet səhifəsinin demək olar ki, yarısını tuturdu. Üzümə baxdı və dedi: "Bu şəkli sən çəkmisən?" Əvvəl elə bildim bəyənməyib. Əli cibində, çox sadə bir kadr idi. Dedim ki, bəli, cənab prezident, mən çəkmişəm. Güldü, dedi ki, çox gözəl şəkildir. Həmişə rəsmi kadrlar çəkirsən, bu cür kadrlardan istifadə et.

***Ulu öndərin şəhərdə rast gəldiyimiz bir çox portretinin müəllifi olan Rafiq müəllim bununla bağlı da xatirələrini danışdı:***

– Bir gün mənə təklif gəldi ki, Heydər Əliyevin portret şəkillərini çəkmək lazımdır. Həmin gün mənə 8 saat vaxt verdilər. Bu müddətdə çəkdiyim portret şəkilləri təhvil verdim.

***Rafiq Bağırov Ümummilli liderin mədəniyyət xadimlərinə olan diqqəti və qayğısından da danışdı. Teatr tamaşalarının premyeralarında iştirak etdiyindən söz açdı:***

– Heydər Əliyev vaxtaşırı teatr tamaşalarında iştirak edərdi. Premyeralardan sonra səhnəarxası görüşlər keçirirdi. Teatrı teatrşünasdan da yaxşı duyurdu, hiss edirdi. Görkəmli aktyorlarımız Nəsibə Zeynalova, Siyavuş Aslan, Hacıbaba Bağırov, Eldəniz Zeynalov, Yaşar Nuri və digərləri ilə dəfələrlə görüşüb söhbət etmişdi.

***Heydər Əliyevin beynəlxalq nüfuzunu, ona göstərilən hörməti tez-tez görən fotoqraf dedi ki, Ulu öndərlə dəfələrlə müxtəlif ölkələrə səyahət edib:***

– Yaponiyaya səfərə gedəndə İmperator sarayında olduq. Yaponların özü üçün İmperator sarayında olmaq əlçatmaz arzudur. Yaddaqalan xatirələrimdən biri də Prezidentlə Səudiyyə Ərəbistanına səfərimiz idi. Biz Kəbənin içərisinə girib ziyarət etdik. Bura daxil olmağa nadir insanlara icazə verilir. Bu cür unudulmaz anlar çox olub. Bütün bunlar Heydər Əliyevin misilsiz bir lider olduğunun göstəricisi idi. Həmin görüntülərin bir çoxu fotoobyektimdə tarixə həkk olunub.

***Fidan HÜQUQQIZI***
***XQ***

# Avropa İttifaqı nə etmək istəyir?

(əvvəli 1-ci səhifədə)



Deyirlər ki, Qarabağı 100 min insan tərk edib, 150 min deyil. Yəni, cənab Borrel bu tərzdə davam etsə, bir aydan sonra 200 min adam deyəcək. Ola bilər ki, cənab Borrel yuxular görür. Bu, tamamilə qəbuledilməzdir. Bu, təkcə rəqəmlərlə bağlı manipulyasiya deyil, bu, Azərbaycana qarşı ittihamlardır, bizim etmədiyimizlə bağlı ittihamdır. Bizim Xarici İşlər Nazirliyi bununla bağlı bəyanat verdi. Çox təəccüblüdür ki, onun öz ölkəsi separatçılıqdan əziyyət çəkir. Belə bir şəxs separatçıları necə müdafiə edər? Bu, çox təəccüb doğurur".

Həqiqətən, də Aİ adına biabırçı mənzərə hökm sürməkdədir. Görünür, Azərbaycan XİN etika xatirinə özünün açıqlama mətninə C.Bayramovun J.Borrellə üzbəüz bildirdiklərini detallı şəkildə daxil etməyib. Bakı-İrəvan sülh prosesinə manea törədən "bəzi Avropa İttifaqı rəsmiləri"nin olduğunu vurğulamaqla kifayətlənib. Məntiqlə düşünəndə görürsən ki, cənab Bayramov başlıca olaraq Borrellin özünü nəzərdə tutub. Bunun üçün isə əsaslar var və həmin əsasların sayının çoxalacağını söyləmək mümkündür. Məsələ burasındadır ki, Aİ-nin Ermənistandakı mülki müşahidə missiyasında təmsil olunanların sayının artırılacağı barədə xəbəri elə Borrell özü verib, hətta məsələni nailiyyət kimi də dəyərləndirib. Onun sözlərinə görə, bununla bağlı qərar Aİ xarici işlər nazirlərinin görüşündə çıxarılıb: "Bu gün Ermənistandakı missiyamızı gücləndirmək, yerdəki mövcudluğumuzu 138-dən 209-a çatdırmaq qərarına gəldik. Bu, Ermənistan və Azərbaycan arasında beynəlxalq sərhədin sabitliyini gücləndirmək üçün bir yoldur".

Bəli, Borrellin şəxsində Aİ, belə demək mümkünsə, avtonom ermənipərəst missiyasını davam etdirməkdə israrlıdır. Təşkilatın Azərbaycan–Ermənistan şərti sərhədinin Ermənistan hissəsində yerləşdirilmiş mülki missiyasına gəlincə, onun tərkibinin fransız jandarmlarından və alman polislərindən ibarət olduğu bildirilir. Doğrudur, bu şəxslər pensiyadadırlar. O da bildirilir ki, onların əllərində silahları yox, yalnız durbinləri var. Hər halda missiya bu ilin yanvarında işə başlayanda müşahidəçilərin silahla təmin edilməsi məsələsi də aktual idi. Düşünmək olar ki, zamanla Aİ silaha ehtiyacı qondaracaq.

Məlumdur ki, Aİ-nin Ermənistanda müşahidə missiyasının yaradılması Fransa Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə gerçəkləşdirilmiş məsələdir. Azərbaycan belə bir missiyanın şərti sərhədin özünə aid hissəsində fəaliyyət göstərməsinə qəti şəkildə razı deyil. Ölkəmizin rəsmiləri heç də Borrell kimi hesab etmirlər ki, müşahidəçilər "sərhəd zonalarında sabitliyə, etimadın möhkəmlənməsinə və Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşmasına töhfə verəcək"lər. Çünki məsələ yalnız Ermənistanı müdafiə kontekstində ortaya atılıb. İrəvanı isə müdafiə yox, islah etmək lazımdır. Elə indi də...

Aİ-nin indiki həssas mərhələdə sərhəddəki müşahidəçilərin sayını artırmaq qərarı islah məntiqinə yaddır. Məsələnin üzərində bir qədər ətraflı dayanaq. C.Bayramov Brüsseldəki çıxışında bildirib ki, Aİ-nin sərhəd missiyası Azərbaycana qarşı təbliğat aləti kimi istifadə olunur. Hesab edirik ki, cənab nazirin söylədikləri son dərəcə vacibdir. Nəzərə alaq ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlaması yayılıb. Bu açıqlama ikitərəfli təmasın nəticəsi olaraq meydana çıxıb və Bakı-İrəvan sülh sazişinin imzalanacağına ümid yaradır. Bu açıqlama, həmçinin sülh prosesini kənar təsirlərdən sığortalamağa xidmət edir, səmimiyyət mühitinin formalaşması üçün zəmin doğurur. Məhz belə bir durumda Aİ müşahidəçilərinin sayını artırırsa, deməli, vəziyyəti gərginləşdirmək yolu tutur. Axı, Cənubi Qafqazda maraqlı olan Rusiya Aİ-nin missiyasına qarşı olduğunu, onu bölgədə əlavə qıcıqlandırıcılar kimi qələmə verdiyini dəfələrlə vurğulayıb. Elə isə sual olunur: Üfüqdə sülh közərirsə və Moskvanın buna qarşı çıxması yoxdursa, yaxud çıxacaq mexanizmi istisnadırsa, missiyanın tərkibinin genişləndirilməsinə nə ehtiyac var? Görəsən, avropalılar nəyə görə düşünmürlər ki, etdikləri hərəkət bəyənmədikləri Rusiyanı, necə deyərlər, arqumentlə silahlandırır?

Hər halda, düşünməmələri mümkünsüzdür. Sadəcə, Aİ kollektiv Qərbin planının, xüsusən də Fransanın bu plan üzrə müəyyənləşdirdiyi strateji xəttin icrasına girişib. Onun üçün Bakı-İrəvan münasibətlərinin normallaşması qətiyyən maraqlı deyil. Əsas olan anti-Rusiya cəbhəsini genişləndirməkdir. İndiki durumda Ermənistandakı missiya prinsip etibarilə Moskvaya qarşı oyun oynamaq cəhdindən başqa bir şey deyil. Cənubi Qafqaz platforması üzərindən oyun... Heç şübhəsiz, bu dəst-xətt nə Azərbaycanın, nə də Ermənistanın mənafeyinə uyğundur. Sadəcə, Azərbaycandan fərqli olaraq, Ermənistan məsələnin mahiyyətini anlamaq istəmir. Ola bilər, anlayır, amma oyunun içərisində olduğundan, reaksiya verməsi, əks mövqe tutması mümkünsüzdür.

Bəli, Aİ-nin mülki missiyası Azərbaycan–Ermənistan sülh prosesinə qarşı açıq demarşdır. Hazırkı həssas situasiyada ona fokuslanma göstərir ki, Qərb prosesi öz egidasında saxlamağa prinsipiallıq donu geyindirir, prinsipiallığını nümayişə çıxarır. Necə deyərlər, bir növ, müqəddəsləşdirir və bu istək özünü Cənubi Qafqazda qlobal maraqlar gerçəkləşdirmək cəhdinin tərkib hissəsi kimi göstərir.

Ən böyük istək Rusiyanı bölgədən uzaqlaşdırmaqdır. Məsələnin Ermənistan baxımından pis tərəfi isə budur ki, belə mənasız və səmərəsiz missiya məntiqi ölkənin düşdüyü illüziya bataqlığından çıxmasının qarşısını alır. Onsuz da respublikada revanşist-şovinist kəsim var. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasından sonra isə loru dildə desək, qurbağa gölünə daş atılmışdı və həmin kəsim çaşqınlıq içərisində susub qalmışdı. İndi onun təmsilçiləri daha geniş açılmış ağızla dil gəlmək üçün cəsarətlənəcəklər. Beləliklə, sülh prosesi neqativ təsirlə üzləşəcək. Görəsən, Qərbə bu lazımdır?

Sonra da rəsmi İrəvan, onun daxildəki emissarları, eləcə də xaricdəki havadarları özlərinə əl qatıb bar-bar bağıracaqlar ki, Azərbaycan sülh istəmir, danışıqlardan yayınır və s. Bir halda ki, Aİ Bakının razılaşmadığı məntiqlə hərəkət edib bölgədəki kənar oyunçuların sayını artırmaq barədə qərar qəbul edir, deməli, normallaşma prosesinə qeyri-səmimi motivlər qatır. Müvafiq olaraq, ya da Aİ-nin xarici siyasət xidmətinin rəsmi nümayəndəsi Piter Stanonun Avropa Sülh Fondu vasitəsilə Ermənistan ordusuna "qeyri-öldürücü formatda" dəstək vermək imkanlarını öyrənməsinə dair açıqlaması düşür. Hələ Aİ-nin Ermənistandakı nümayəndə heyətinin rəhbəri Vasilis Maraqosun bir neçə gün öncə dedikləri də var. O bildirmişdi ki, təmsil olunduğu qurum Ermənistan silahlı qüvvələrinə dəstək vermək üçün konkret təkliflər hazırlamaq niyyətindədir və bu məqsədlə Brüssel tezliklə İrəvana texniki missiya göndərəcək.

V.Maraqos, həmçinin vurğulamışdı ki, haqqında əvvəldə söz açdığımız Josep Borrell artıq qeyd edilən istiqamətdə işləmək öhdəliyini üzərinə götürüb və yaxın həftələrdə təfərrüatları açıqlamağa söz verib. "Biz bu ilin sonunda və ya əvvəlində texniki missiyanın səfərinə hazırlaşırıq. Qeyri-öldürücü dəstək sahəsində konkret təkliflər hazırlamaq niyyətindəyik", – deyə cənab Maraqos əlavə edib. Görünür, elə buna görədir ki, Azərbaycanın XİN başçısı C.Bayramov Brüsseldəki çıxışında vurğulayıb ki, silahlanma və bir tərəfdaşın o birinə qarşı istifadə olunması Şərq Tərəfdaşlığının məqsədlərinə uyğun deyil.

Yeri gəlmişkən, həmin J.Borrell Avropa İttifaqı Xarici İşlər Nazirləri Şurasının sessiyasından və Şərq Tərəfdaşlığı ölkələrinin nazirlərinin iclasından əvvəl jurnalistlərlə söhbətində Ermənistandakı situasiyanın diqqət və dəstək tələb etdiyini dilə gətirib. O, Şərq Tərəfdaşlığına üzv dövlətlərdəki duruma toxunaraq, "bütün regionun çətin vəziyyətdə olduğunu" qeyd edib. Onu da bildirək ki, Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Avropa İttifaqının Şərq Tərəfdaşlığı Sammiti çərçivəsində qurumun genişlənməsi və qonşuluq məsələləri üzrə komissarı Oliver Varhelyi ilə görüşündə də İrəvana dəstək məntiqi ifadəsini tapıb.

Bütün bunlardan belə qənaətə gəlmək mümkündür ki, hazırda kollektiv Qərbin Ermənistan naminə səfərbərliyində Aİ üstün mövqeyə yiyələnib. Daha dəqiq desək, ABŞ-ın bir müddət öncəki fəallıq trayektoriyası səmtini Aİ-yə doğru dəyişib. Yəni, ötür-ötür oyunu. Birləşmiş Ştatların konstruktiv mövqe tutduğuna, Azərbaycanla münasibətlərdə yumşalmağa getdiyinə dair təsəvvürün formalaşdığı bir vaxtda, Aİ-nin missiya məntiqini isə salması da, həmçinin bir qədər əvvəl qeyd etdiyimiz məqamlar da onu deməyə əsas verir ki, Bakı-İrəvan sülh sazişinin imzalanmasına qarşı çıxan qüvvələr aktivləşiblər. Onlar müxtəlif hərəkət və davranışlarla durumu gərginləşdirmək yolunu tuturlar.

**Ə.CAHANGİROĞLU**
**XQ**

# Ermənistan birgə açıqlamanın pozitiv ruhundan uzaq düşməkdədir

## *Müxaliflər Azərbaycanla sülhə qarşıdırlar, iqtidar susur və yalnız susmur...*

**Ermənistanda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlamasının hər iki ölkənin sülh yolçuluğu baxımından yaratdığı pozitiv ovqata zidd meyillər özünü getdikcə daha qabarıq formada göstərməkdədir.**



Sanki belə bir açıqlama olmayıbmış kimi durum var. Əslində, Ermənistanın hakim "Vətəndaş sazişi" fraksiyasının deputatı, ölkə parlamentinin Xarici əlaqələr komissiyasının sədri Sarkis Xandanyanın bir neçə gün əvvəl vurğuladıqları da fikrimizin təsdiqi sayıla bilər. Xandanyan məlum birgə açıqlamanı gələcək danışıqlar baxımından müsbət qiymətləndirsə də, onu da bildirmişdir ki, nizamlama prosesi əvvəlki prinsiplər üzrə davam edəcək. O, birbaşa təmas məntiqindən uzaq dayanmış və diqqəti vasitəçilər amilinə çəkmişdir.

Bəli, Ermənistan hakimiyyəti sülh danışıqlarında yenə kənar vasitəçilər məntiqini qabartmaqla məşğuldur. Ancaq, bu, məlum açıqlamanın heçə sayılmasının yalnız bir elementidir. Digər məqamlar da var. Məsələn, Brüsseldə ayrı-ayrı Avropa rəsmiləri ilə görüşlərini davam etdirən Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın dilə gətirdiyi fikirlərə də anti-Azərbaycan mahiyyət hakim kəsilməkdədir. Daha bir diqqətçəkən meyil ölkə daxilindəki ayrı-ayrı siyasilərin açıqlamalarında özünü göstərməkdədir. Bu barədə söz açacağıq. Ancaq əvvəlcə Ermənistan parlamentinin spikeri Alen Simonyanın manipulyativ fikirlərinə nəzər salaq.

A.Simonyan jurnalistlərin suallarını cavablandırarkən, özünün ənənəvi anti-Rusiya xəttini Azərbaycanla danışıqlar müstəvisinə, daha doğrusu, vasitəçilər amili üzərinə kökləyib. Onun həm manipulyativ, həm də təxribatçı mövqe tutduğu tam aşkardır. Qeyd edək ki, İrəvan Bakı ilə münasibətlərdə Qərb vasitəçiliyini əsas götürür və bu yanaşma həm də Rusiyanı gözdən salmağa hesablanıb...

Erməni spiker isə deyib ki, Bakının Moskvanı qərəzsiz saydığını düşünmür. İlk baxışdan, belə yəqin etmək mümkündür ki, Simonyan erməni siyasi istablişmentindəki Azərbaycan-Rusiya əlbirliyi ritorikasından uzaqdır. Amma heç də belə deyil. Diqqət yetirək: "Biz heç bir ünsiyyətdən qaçmırıq, amma Azərbaycanın kimi neytral hesab etdiyini deyə bilmərəm. Azərbaycan fərqli platformalara, müxtəlif vaxtlarda və müxtəlif yollarla tərk etdi. Düşünmürəm ki, Bakı Rusiyanı qərəzsiz (vasitəçi) sayır. Buna sübutlardan biri də Rusiya qoşunlarının hələ də Azərbaycanda olmalarıdır".

Əslində, A.Simonyan çox incə şəkildə bildirir ki, qoşunları ərazisində olduğuna görə Azərbaycan Rusiyanı qərəzsiz vasitəçi saymamalıdır. O, öz aləmində, Kremli tərəfsiz hesab etməməyi Bakının boynuna qoyduğunu düşünür. Həqiqətən də, erməni spiker, necə deyərlər, həyasızlığın dibinə enib. O, rus qoşunlarının Azərbaycan ərazisinə, konkret olaraq, Qarabağa nə üçün gəldiklərini "yaddan çıxarır". Sanki, Ermənistanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Azərbaycanın əlindən alan Rusiya deyilmiş! Axı, məsələyə Simonyanın öz "baxışı" var. O, bir müddət əvvəl demişdi ki, Rusiya üçtərəfli bəyanatla Qarabağı Azərbaycana verdi. Bir sözlə, tipik erməni xəstəliyinin doğurduğu cəfəngiyyat.

Deməli, nəticə belədir ki, rus qoşunları Azərbaycan ərazisindədirlərsə, Moskva qərəzli davranacaq, Bakının tərəfini tutacaq! Erməni spikerin dediyi budur. O zaman Gümrüdəki 102-ci hərbi baza necə olsun? Qarabağda məhdud sayda rus əsgəri var, Gümrüdə isə hər cür silahlara malik tam bir hərbi kontingent. Bəs, nə üçün İrəvan Kremli ədalətli vasitəçi saymır? Niyə Simonyan bu barədə söz açmır? Axı, həmin hərbi baza prinsip etibarilə Ermənistanı Türkiyədən qoruyur. Məsələ belə təqdim edilib. Üstəlik, Gümrüdəki bazada Rusiyanın bayrağı Ermənistanın bayrağından qat-qat yuxarıda dalğalanır. Görəsən, Simonyan fərqinə varırmı ki, ölkəsinin Moskva tərəfindən qorunmasının ödənci erməni bayrağının aşağılanmasıdır? Çətin ki, bu haqda düşünsün. Başı daha vacib işlərə qarışıb. Daha "vacib iş" isə anti-Azərbaycan ritorikasını diri tutmaqdır. Görünür, bu məsələdə erməni müxalifəti ilə iqtidarı arasında konsensus var.

Fikrimizi əsaslandıraq. Ermənistanın keçmiş hakim Respublika partiyası icra orqanının üzvü Eduard Şarmazanov məlum birgə açıqlamanın ruhuna zidd şəkildə bildirib ki, Bakı həbsxanalarında "Artsax"ın öz müqəddəratını təyin etməsinin tərəfdarı olan və Azərbaycan ssenarisi üzrə inteqrasiyanın əleyhinə mövqe tutan hərbi-siyasi elitanın nümayəndələri var. "Əlbəttə, 32 erməni hərbi əsirinin qaytarılması ilə bağlı razılaşma yaxşı xəbərdir və biz onların qayıdışını alqışlayırıq. Lakin unutmayaq ki, onlarla, hətta yüzlərlə erməni məhbus hələ də Azərbaycan həbsxanalarındadır, o cümlədən "Artsax"ın keçmiş rəhbərləri. Yəni, "hamı hamı üçün" prinsipi işləmir. Bundan əlavə, unutmayaq ki, hərbi əsirlər iki azərbaycanlı ilə dəyişdirilib. Onlardan biri ömürlük həbs cəzasına məhkum edilmiş cinayətkardır", – deyən partiya funksioneri əlavə edib ki, məhbusların qaytarılması ilə bağlı razılaşma nailiyyət deyil, daha çox erməni diplomatiyasının fiaskosudur.

Şarmazanov onu da bildirib ki, İrəvan, guya, Bakı ilə razılıq şəraitində Ermənistanın keçmiş siyasi kursunu dəstəkləyən şəxsləri həbsdə saxlamaq yolunu tutur. Sən demə, erməni iqtidarının yumşaqlığı Azərbaycanın dövlət başçısının gələcək prezident seçkisində uğur qazanması üçün imiş. Hər halda, belə cəfəngiyyat yalnız sabiq xunta rejiminin rəhbər şəxsinin komandasında təmsil olunan birinin ağlına gələ bilər...

Lakin Ermənistanda başı Şarmazanov kimi işləyən revanşistlər az deyil. Onlardan biri də ölkə parlamentinin müxalif "Ermənistan" blokundan olan deputatı Artur Xaçatryandır. Belə görünür, o, öz aləmində tarixin arxivinə gömülmüş qondarma "Dağlıq Qarabağ Respublikası"nı "bərpa edib". Diqqət yetirin, məlum birgə açıqlamanın ruhuna zidd növbəti məqam da elə Xaçatryanın dedikləridir. Sabiq xunta rejiminin təmsilçisi olan deputat bildirib ki, hazırkı erməni iqtidarı Azərbaycan hakimiyyətinin bütün tələblərini yerinə yetirir.

Deputat Xaçatryan onu da deyib ki, heç bir prezident və ya hökumət rəsmisi "Artsax"ı ləğv edə bilməz. Onun sözlərinə görə, sabiq qondarma rejimin "rəhbəri" Samvel Şahramanyanın "DQR"in özünü buraxdığına dair fərmanı məcburiyyət qarşısında atılmış addım idi və onun imzaladığı sənədin heç bir dəyəri yoxdur. Əlbəttə, Xaçatryanın sərsəmləmələrinin hamısını diqqətə çatdırmaq niyyətindən uzağıq. Yazımızın sonunda barəsində söz açdığımız konsensus məsələsini əsaslandıraq.

Bir qayda olaraq, Ermənistandakı müxalif şovinist-revanşistlər Bakı ilə münasibətlər müstəvisində barışmaz yol tuturlar, iqtidar isə durumu cavabsız qoyur. Cavab vermək bir yana, adətən, sonradan görünür ki, müxalifətin ucuz populizmə söykənmiş şüarları iqtidarın anti-Azərbaycan siyasətinin tərkib hissəsinə çevrilir. Yəni, baş nazir Nikol Paşinyan hakimiyyəti revanşist-şovinistlərin baxışlarının cəmiyyətdə kök salmaması, insanlara təsir göstərməməsi üçün reallıqları açıqlamır, ictimaiyyətə obyektiv durumu çatdırmır. Hazırda bu tendensiya özünü Azərbaycan Respublikası Prezidenti Administrasiyasının və Ermənistan Respublikası baş naziri aparatının birgə açıqlaması fonunda da göstərməkdədir. İqtidar təmsilçilərinin sülhlə bağlı susqunluğu və təbliğat aparmaması fonunda isə müxalifər meydan sulamağa başlayıblar.

Əvvəldə Xandanyanın və Simonyanın fikirləri, o cümlədən XİN rəhbəri Mirzoyanın Avropa görüşləri fonunda erməni iqtidarının məlum birgə açıqlamadan uzaq düşdüyünə dair durumun mövcudluğunu vurğuladıq. Belə görünür, növbəsini gözləyən rəsmi İrəvanın başıpozuq müxalifətin fikirləri ilə "silahlanıb" Azərbaycanla barışığa aparan ən optimal yolun qarşısını tam şəkildə kəsməyidir. Nəzərə alaq ki, bunun üçün Avropa İttifaqı və digər qurumların rəsmilərinin Ermənistan rəhbərliyində illüziya hissini artıran dəstək bəyanatları da var. Yəni, sülhün olmaması üçün hər bir detal nəzərə alınıb. Qalır, erməni iqtidarının, obrazlı desək, başına düşməli olan daşların yerinə oturmağı.

**Ə.RÜSTƏMOV**
**XQ**

# Sülhə “pəl vuran”lar




(əvvəli 1-ci səhifədə)

## İrəvandakı minabasdıranlar

İki ölkə arasında sülh müqaviləsinin imzalanmasına əngəl sayılan və həllini gözləyən iki problem var. Bunlardan birincisi, hələ də işğal altında olan Qazaxın 7, Naxçıvanın 1 kəndinin Azərbaycana qaytarılmasıdır. Bakı ekslavlarını tələb edir, amma bu zaman İrəvan prosesi uzatmaq üçün müxtəlif bəhanələr uydurmağa çalışır. Son vaxtlar Nikol Paşinyan Ermənistanın 4, Alen Simonyan isə 31 kəndinin "işğal" altında olmasından danışır. Qərbi aktorlar isə bu məsələnin sonraya, delimitasiya və demarkasiya mərhələsinə saxlanılmasını təklif edirlər. Haqqında danışılan ikinci problem isə delimitasiya və demarkasiyanın hansı xəritələrlə həyata keçirilməsidir.

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın sülh müqaviləsinin 70 faizinin razılaşdırıldığı barədə danışarkən yaqin qeyd etdiyimiz bu iki problemi nəzərdə tutur.

"Sülh müqaviləsinə imza atmaq qisas istəyinin olmamasıdır. Əgər qarşıda qisas olacaqsa, onda sülh müqaviləsi nəyə lazımdır? Üstəlik, Ermənistanın güclənib uzunmüddətli dövlətçiliyə malik olmasında birbaşa yol qonşularla dialoqdan keçir". Bu sözləri isə iqtidardakı "Mülki müqavilə" fraksiyasının deputatı, Ermənistan parlamentinin maliyyə, kredit və büdcə məsələləri üzrə daimi komissiyasının sədri Gevorq Papoyan deyib. Sülh müqaviləsinə İrəvanın da, Bakının da ehtiyacı olduğunu bildirən hay deputat saziş imzalandıqdan sonra Cənubi Qafqazda bütün səviyyələrdə inteqrasiyaya, iqtisadi əlaqələrin inkişafına, əmin-amanlığa, həyat səviyyəsinin yüksəlməsinə səbəb olacaq mühitin yaranacağını gördüyünü dilə gətirir. "Əgər Ermənistan qisas almağa hazırlaşdığını bəyan edərsə, bu, ölkənin varlığına son qoyacaq təhlükəli yola birbaşa çıxış olacaq. Bilirik ki, İrəvanda bu cür düşünənləri, belə zərərli mövzuları qızışdıran xarici qüvvələr var. Həmin qüvvələrə Ermənistanın dövlət kimi mövcudluğu lazım deyil. Ona görə biz üçüncü ölkələrin əlində alətə çevrilməməliyik", – deyən Papoyan Ermənistanın ikinci və üçüncü prezidentləri, keçmiş Qarabağ separatçıları Robert Koçaryan və Serj Sarkisyanın adlarını çəkib, onların dövlətçiliyin altına mina basdırmağa çalışdıqlarını bəyan edib: "Kapitulyasiyaya onlar qol çəkiblər, "Qarabağ ordusunu" buraxıblar, silah-sursatı Azərbaycana təhvil veriblər, indi isə İrəvanda "Qarabağ parlamenti"ni yaratmaq xülyasına düşüblər. Bu, qətiyyən qəbuledilməzdir və Ermənistana qarşı bombadır".

Əlbəttə, bu müstəvidə Papoyana Ermənistanın indiki rəhbərliyinin də ölkəmizə qarşı təxribatçı bəyanat və hərəkətlərini xatırlatmağımız yerinə düşər. Düzdür, bütün bunlar üç il dörd ay bundan əvvələ qədər baş verib. 2020-ci il noyabrın 10-dan sonra isə bu hərəkət və çıxışların xarakteri dəyişdi. Amma bunların hamısının bir fayda vermədiyinə özləri də şahid oldular. Daha bəhanəyə yer qalmayıb.

## Saatlı bombanı kim qurur?

"Azərbaycanlıların Ermənistana qayıtması gələcəkdə saatlı bombaya çevriləcək". Bu avantürist fikirləri yerli mediaya erməni siyasi şərhçi Vigen Akopyan açıqlayıb. O, ermənilərin Qarabağa qayıtması qarşılığında azərbaycanlıların da öz yurdlarına – Qərbi Azərbaycana qayıtması barədə tələbinə bu cür reaksiya verib: "Bu, kifayət qədər həssas bir məsələdir. Azərbaycanlılar bu məsələ ilə bağlı öz mövqelərini çoxdan ortaya qoyublar. Bakı 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində Ermənistanı tərk etmiş azərbaycanlıları geri qaytarmağa çalışır. Müxtəlif mənbələrə görə, onların sayı 300 minə qədərdir. Rəsmi Bakı çox gözəl başa düşür ki, bu kontingent gələcəkdə Azərbaycanın Ermənistanda yumşaq gücü olacaq və dövlətimizin altına döşənmiş minaya çeviriləcək".

"Həssas məsələ"nin yaranma tarixini doğru göstərən Akopyan saatlı bombanın 35 il bundan əvvəl Ermənistan SSR-in başında duran daşnak-kommunistlər tərəfindən qurulduğunu deməyi "unudub". Bu həqiqətin üzərindən sükutla keçən erməni politoloq iddia edib ki, fürsət yaranan anda rəsmi Bakı azərbaycanlıların hüquqlarının və ya təhlükəsizliyinin qorunmadığını bəyan edəcək, bunun əsasında həm Azərbaycan, həm də Türkiyə Ermənistan ərazisinə silahlı qüvvələr yeritmək üçün bəhanə axtaracaq: "Azərbaycan Silahlı Qüvvələri Ermənistana daxil olsa, bir daha oranı tərk etməyəcək. Bu ərazilərdə "Azərbaycan Ermənistanı" olacaq, yəni "Kıbrıs-2" yaranacaq".

Bu məsələyə öz düşüncəsinə görə yanaşaraq çox dərinə "baş vuran" Akopyan Azərbaycanın müharibədən sonra "güzgü prinsipi"ni tətbiq etdiyinə diqqəti yönəldir: "Laçın varsa, Zəngəzur olmalıdır, Qarabağa ermənilər qayıdırsa, Ermənistana da azərbaycanlılar qayıtmalıdır".

Bəs, başqa nə cür olmalı idi, cənab Akopyan? Bəlkə qalib tərəf məğlub ölkəyə birtərəfli qaydada güzəştlərə getməlidir? Böyük güclərin iki yüz ildir Azərbaycanın üzərində sınaqdan çıxardıqları "erməni kartı"nın, nəhayət, "pas" olunduğunu nə qədər tez anlasanız, bir o qədər az ziyan görərsiniz.

Bu arada Brüsseldə "Şərq Tərəfdaşlığı" ölkələri nazirlərinin görüşündə çıxış edən Ermənistan xarici işlər naziri Ararat Mirzoyan "Azərbaycanlı qaçqınların da çoxu geri dönəcək, lakin güc baxımından təminat almaq şərtilə", – deyib.

O qeyd edib ki, Ermənistanın ərazi bütövlüyü, sərhədlərin qarşılıqlı tanınması, həmçinin regional kommunikasiyaların açılması prinsipləri əsasında regionda sabit və uzunmüddətli sülhü təmin etmək üçün siyasi iradəsi var.

## İrəvanın səhv etmək limiti tükənib

"Biz sübuta yetirdik ki, vasitəçi həmsədr ölkələrin üçü də səhv edib. Onların qədim dövlətçilik ənənələrinə, beynəlxalq təcrübələrinə və BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olmalarına baxmayaraq, yenə səhvə yol verdilər. Bu, düzgün qiymətləndirməməyin nəticəsi idi. Bu, həm də Azərbaycana verilən belə bir mesaj idi ki, əgər münaqişəni hərbi yolla həll etməyə çalışsanız, siz buna heç vaxt nail ola bilməyəcəksiniz. Amma biz sübut etdik ki, bu münaqişənin hərbi həlli də mümkündür. Bununla da üç il bundan əvvəl məlum münaqişə öz həllini tapdı". Bu sözləri Prezident İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumundakı çıxışında deyib.

Dövlət başçımız bu açıqlaması ilə daha nə Bakının, nə də İrəvanın sülhə gəlməkdən ötrü vasitəçiyə ehtiyac duymadıqlarını həmin keçmiş həmsədrlərin də diqqətinə çatdırmış oldu.

Beləliklə, Paşinyan Qarabağın Ermənistan üçün həlli müşkül yük olmasını qəbul etməli və bunu cəmiyyətə başa salmalıdır. Məhz bu yükdən azadolma Hayastanın problemini azaldar, onun tərəqqiyə yolunu açar. Görünən reallıq odur ki, məğlub Ermənistan hakimiyyəti son üç ildə qalib qonşusuna qarşı yersiz iddialarından biryolluq əl çəkməli idi ki, düşdüyü böhrandan tez çıxa bilsin. Təəssüf ki, biz İrəvandakı daşnak-revanşistlərin Qarabağı tərk etmiş separatçıları yenidən gündəmə gətirmək cəhdlərini müşahidə edirik. Düzdür, Paşinyan hakimiyyəti bu cür cəhdlərin qarşısını sərt şəkildə alır, ölkə ərazisində "gorbagor olmuş artsaxın" hansısa strukturunu yaratmaq cəhdlərini rədd edir. O, özü də yaxşı bilir ki, İrəvanın sülh masasında, ən müxtəlif bəhanələri gətirməklə, səhvə yol vermək limiti tükənib.

Hazırda Bakı və İrəvanın birgə təşəbbüsü ilə proseslərin düzgün məcrada, bütün Cənubi Qafqaz üçün faydalı istiqamətdə cərəyan etdiyini söyləmək olar. Əslində, Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatının birgə bəyanatını iki ölkə arasında böyük sülh müqaviləsinin imzalanması üçün yaxşı bünövrə hesab etmək olar. İntəhası, nə qədər nikbin siyasi notlara köklənmək istəsək də, onu da unutmamalıyıq ki, sülhə aparan yol heç vaxt və heç yerdə asan olmayıb. Ötən həftə Bakı və İrəvanın xoşməramlı, qarşılıqlı etimadı artıran birgə açıqlamasının və razılaşmaların Ermənistanı Azərbaycanla mümkün sülh variantına kökləndiyini söyləyə bilərik. Tərəflər arasında gərginliyin azalmağa doğru getdiyi indiki mərhələdə Paşinyan kənar təsirlərdən asılılığa son qoya, Azərbaycanla sülhün alternativinin olmadığını cəmiyyətə çatdıra bilsə, gözlənilən barışıq da daha tez əldə olunar.

*İmran BƏDİRXANLI*
*XQ*

### Ekspert rəyi



**Turab RZAYEV, politoloq**

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın sülh müqaviləsinin 70 faizinin razılaşdırıldığı barədə açıqlaması onların öz yanaşmasının məhsuludur. Azərbaycan İrəvandan hələ də işğal altında olan 8 kəndimizin qaytarılması ilə bağlı konkret yol xəritəsini tələb edib. Sülh müqaviləsinin imzalanmasının bloklanmaması üçün bəhs etdiyimiz məsələlərin sonrakı mərhələyə salınması mümkün ehtimallar arasındadır. Dövlətimiz isə burada Ermənistana qarşı iki tələb irəli sürür: məsələ ya indi həll edilməlidir, yaxud sonrakı mərhələdə Azərbaycanın xeyrinə həll olunacağına dair müsbət addım atılmalıdır. Rəsmi Bakı Rusiyanın xahişindən sonra 8 kənd məsələsinin 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan çıxarıldığını və növbəti mərhələyə saxlanıldığına eyham vurmuşdu. Biz daha müharibə istəmirik. İntəhası, dövlətimiz Ermənistanın sülh müqaviləsindən sonra kəndləri qaytarmaqdan boyun qaçırması ehtimalına qarşı konkret və ciddi söz, əməl tələb edir. Yəni, bu təminatın təsdiqi kimi kəndlərin geri qaytarılması mexanizminin təsbit olunduğu yol xəritəsi olmalıdır. Digər tərəfdən, vasitəçilər də delimitasiya zamanı problemin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunacağına təminat verməlidirlər. Əks-təqdirdə bu problemin həlli on illərlə uzana bilər.

## Sosial siyasət



### Ağalıda məşğulluq təlimi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Zəngilanda fəaliyyət göstərən 15-ə yaxın işəgötürənlə Ağalı kəndində görüş keçirib. Toplantıda "Məşğulluq xidmətləri" və "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin, habelə yeraltı işlər" mövzularında müzakirələr aparılıb.**

Mərasimdə işəgötürənlərə Əmək Məcəlləsinə edilmiş ən son dəyişiklər, beynəlxalq normalar, qanunvericilikdə qadın əməyi ilə bağlı məhdudiyyətlər barədə məlumat verilib. Qadınların əmək bazarında iştirakının genişləndirilməsinin vacibliyi vurğulanaraq bununla bağlı müsbət təcrübələr qeyd edilib.

Məclisdə, həmçinin həyata keçirilən layihələr, proqramlar barədə, xüsusilə işəgötürənlərə dəstək mexanizmini əhatə edən əməkhaqqının birgə maliyyələşdirilməsi və peşə kursları ilə bağlı təqdimatlar edilib. Sahibkarlara rəqəmsallaşma istiqamətində həyata keçirilən layihələr, "Əmək və məşğulluq" altsisteminin işəgötürənlər üçün üstünlükləri barədə məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

### 270 yeni iş yeri açılıb

**Dövlət Məşğulluq Agentliyi isə Ağalıda daha bir qrup kənd sakinini istehsal, xidmət sahəsi üzrə özünüməşğulluq proqramına cəlb edilərək lazımi avadanlıqlarla təmin edib. Bu dəfə sakinlərin müraciətləri əsasında onlara un məmulatlarının istehsalı, kişi bərbərxanası və inkubator zərfləri üzrə aktivlər təqdim edilib.**

Bununla da kənddə artıq 14 sakin üçün özünüməşğulluq proqramı çərçivəsində təsərrüfat yaradılıb. Aktiv paylanması prosesi və yaradılan kiçik təsərrüfatlarla əyani tanışlıq üçün Ağalı kəndinə mediatur təşkil edilib.

Qeyd edək ki, indiyədək 270-dək Ağalı sakininin məşğulluğu təmin edilib. 192 nəfər müvafiq vakansiyalar üzrə, 26 nəfər ictimai işlərlə təmin olunub. 14 nəfərə özünüməşğulluq proqramı çərçivəsində aktivlər verilib, 33 nəfər isə peşə hazırlığı kurslarına cəlb edilib.



### 22 min işsizə biznes dəstəyi göstəriləcək

**Dünya Bankının maliyyə dəstəyi ilə həyata keçirilən "Məşğulluğa dəstək layihəsi" çərçivəsində iştirakçıların seçdikləri istehsal və xidmət sahələri üzrə avadanlıqlarla təminat işləri davam etdirilir. Layihə çərçivəsində ölkəmizin müxtəlif bölgələrində daha 390 işsiz şəxsə biznes planlarına uyğun aktivlər təqdim olunub.**




Layihənin məqsədi işsiz şəhid ailəsi üzvləri, əlilliyi olan şəxslər, keçmiş məcburi köçkünlər, ünvanlı dövlət sosial yardımı alanlar, qadınlar, gənclər və həssas qruplardan olan digər şəxslərin özünüməşğulluğu üzrə kiçik biznesə və layiqli məşğulluğa çıxışına şərait yaradılıb.

Ümumilikdə, 2025-ci ilə qədər davam edəcək layihə çərçivəsində 22 min işsiz şəxsin kiçik biznesə çıxışına imkan yaradılması nəzərdə tutulub. Layihəyə cəlb olunanlar üçün ilkin mərhələdə biznes təlimlər təşkil olunur. Qiymətləndirmə prosesində biznes planlarını uğurla müdafiə edən şəxslərə müxtəlif fəaliyyət istiqamətləri üzrə avadanlıqlar verilir.

### 126 min şəhid ailəsi üzvünə və qaziyə 322 min xidmət

**Prezident İlham Əliyevin tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketinin icrası davam etdirilir.**

Paket çərçivəsində postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə veteranları olan 104 min şəxsə 117 min aylıq sosial ödəniş, 21,9 min şəxsə birdəfəlik ödəniş təyin olunub. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn sosial ödənişlər hər il artırılıb. Müharibə veteranlarına aylıq təqaüd təyin edilib. Şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı proqramı 5 dəfə genişlənib. Onlara 5 min 600 mənzil və fərdi ev verilib. Müharibə əlillərinə 374 avtomobil təqdim edilib.

Bundan başqa, şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 11 min nəfərə 54 min 500 sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib. Müharibə əlili olan 2 min 58 şəxs 48 min reabilitasiya vasitəsi, o cümlədən 453 nəfər 472 ədəd yüksək texnologiyalı müasir protezlə təmin olunub. Şəhid ailəsi üzvləri və müharibə iştirakçıları olan 20,5 min şəxsin məşğulluğu təmin edilib, o cümlədən 10,3 min şəxs özünüməşğulluq proqramına cəlb olunub.

Son 3 ildə qeyd olunan sosial dəstək paketi 126 min şəxsi əhatə edərək, onlara dəstək yönümlü 322 min xidmət göstərilib.

*Zərifə HÜSEYNOVA*
*XQ*

# Avropaya illik qaz nəqli 12 milyard kubmetrə çatacaq

## Bu, ümumi ixracın yarısını təşkil edəcək



**Artıq 3 ildir ki, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya qaz ixrac edir. Bu, ölkəmiz üçün tarixi nailiyyətdir. Hər şeydən əvvəl, Azərbaycan tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmaq imkanı əldə edib. Digər tərəfdən, Avropanın enerji xəritəsini zənginləşdirən Azərbaycan təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla həm də özünün ixrac imkanlarını şaxələndirməyə nail olub.**

Ötən müddətdə Avropa İttifaqı üçün etibarlı enerji tərəfdaşına çevrilmiş Azərbaycan əsas qaz tədarükçüsü rolunda öz mövqeyini xeyli möhkəmləndirib. Məlum olduğu kimi, ölkəmizin təsdiq olunmuş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Bununla belə, Prezident İlham Əliyev bu rəqəmin daha çox olması ilə bağlı nikbinliyini dəfələrlə bəyan edib. Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın neft yataqlarında fəaliyyət təcrübəsi göstərir ki, qazma işləri davam etdikcə ilkin qiymətləndirmələrlə müqayisədə ehtiyatların həcminin daha çox olması öz təsdiqini tapır. Bu da Azərbaycanın qaz sahəsinin azı 100 il beynəlxalq bazarlara öz ehtiyatlarını tədarük edəcəyini deməyə əsas verir.

Xatırladaq ki, bir qədər əvvəl Yunanıstan – Bolqarıstan interkonnektorunun (birləşdirici kəmər) istifadəyə verilməsi ilə Azərbaycan qazı Bolqarıstan və Rumıniya bazarına daxil olmağa başlamışdı. Artıq Serbiya ilə qaz tədarükünə dair aparılan danışıqlar da müsbət sonluqla nəticələnib. Məlum olduğu kimi, ötən bazar günü Serbiyanın Niş şəhərində Azərbaycan təbii qazına çıxışı təmin edəcək Serbiya – Bolqarıstan qaz interkonnektoru işə salınıb. Boru kəmərinin açılış mərasimində 3 ölkənin – Azərbaycan Prezidenti İlham Əliyev, Serbiya Prezidenti Aleksandar Vuçiç və Bolqarıstan Prezidenti Rumen Radevin iştirak etməsi Avropanın enerji sektorunda uğurlu əməkdaşlığın əyani təcəssümü kimi diqqət çəkir.

Elə dövlətimizin başçısı İlham Əliyevin Serbiya – Bolqarıstan qaz interkonnektorunun açılışına həsr olunmuş tədbiri dostluq və strateji tərəfdaşlıq mərasimi adlandırması da bunu təsdiq edir. Yeri gəlmişkən, yeni birləşdirici kəməri Serbiya və Bolqarıstanın enerji təhlükəsizliyinə böyük töhfə verə biləcək layihə kimi dəyərləndirən Prezident İlham Əliyev bununla, həm də Azərbaycanın qaz ixracı coğrafiyasının daha da genişləndiyini diqqətə çatdırıb. Dövlətimizin başçısı deyib ki, hazırda Azərbaycan 9 ölkəyə "mavi yanacaq" ixrac edir ki, bunun da 7-si Avropa ölkəsidir.

Avropa İttifaqı ilə Azərbaycan arasında enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumunu xatırladan Prezident İlham Əliyev qeyd edib ki, bu sənədə əsasən, Azərbaycan 2027-ci ilə qədər Avropaya göndərilən qazın həcmini iki dəfə artırmalıdır. "Artıq rəqəmlər onu göstərir ki, biz inamla bu hədəfə doğru gedirik. 2021-ci ildə bizim Avropa məkanına qaz ixracımız 8 milyard kubmetrdən bir qədər çox olmuşdursa, bu il bu, təxminən, 12 milyard kubmetrə çatacaq. Bu da Azərbaycanın ümumi qaz ixracının 50 faizini təşkil edir", – deyə dövlətimizin başçısı əlavə edib.

Qeyd edək ki, Serbiya – Bolqarıstan qaz birləşdiricisi layihəsi (Niş – Dimitrovqrad – Bolqarıstan) qismən Avropa İttifaqının 49,6 milyon avro məbləğində qrantları, həmçinin Serbiyanın Avropa İnvestisiya Bankının 25 milyon avro güzəştli krediti hesabına maliyyələşdirilir. Bu vəsaitləri Serbiya qaz kəmərinin öz hissəsinin tikintisi üçün ödəyəcək.

Yeri gəlmişkən, hazırda Serbiyanın ilkin enerji istehlakının 13 faizi təbii qazdan əldə edilir. Bu da adı çəkilən ölkənin yalnız iki giriş nöqtəsindən - Balkan axını boru kəməri vasitəsilə və Macarıstandan əldə edə biləcəyi qazdır. Ekspertlər hesab edirlər ki, Serbiya və Bolqarıstanın qaz şəbəkələrini birləşdirən interkonnektor Serbiya və Qərbi Balkanlar regionunda enerji mənbələrinin şaxələndirilməsinə töhfə verəcək. Onların fikrincə, yeni interkonnektor Serbiyanı müxtəlif qaz şəbəkələri sistemlərindən, xüsusən də Azərbaycandan və Yunanıstanın Aleksandrupolis şəhərində yerləşən maye qaz terminalından daha təhlükəsiz və dayanıqlı təchizatla təmin edəcək.

Yeni qaz kəməri Nişdəki mövcud Serbiya şəbəkəsini Bolqarıstanın paytaxtı Sofiyadakı şəbəkəsi ilə birləşdirəcək. Qaz kəmərinin Serbiya hissəsinin uzunluğu 109 kilometrdir. Diametri 700 millimetr olan borunun maksimum təzyiqi 55 bar təşkil edir. Kəmərin gücü Serbiyanın ümumi illik istehlakının 60 faizinə bərabər olan 1,8 milyard kubmetr təbii qazı vurmağa imkan verəcək.

Boru kəmərinə Nişdən əlavə, Bela Palanka, Pirot və Dimitrovqradda daha üç ölçmə stansiyası da daxil olacaq. Bu da həmin şəhərlərdə yaşayan sakinlərə, eləcə də məktəblərə, xəstəxanalara və digər müəssisələrə istilik və sənaye istehsalı üçün qaz təchizatı əldə etməyə imkan verəcək.

*Mirbağır YAQUBZADƏ*
*XQ*

### Ekspert rəyi



*İlham ŞABAN,*
*Neft Araşdırmaları Mərkəzinin rəhbəri*

Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan edib ki, biz Avropa ölkələrinə mümkün qədər çox qaz nəql etmək üçün bir sıra diplomatik addımlar atırıq. Bu o deməkdir ki, rəsmi Bakı əvvəllər olduğu kimi, indi də Avropa İttifaqı ölkələri ilə uzunmüddətli enerji əməkdaşlığını gerçəkləşdirmək üçün hökumət səviyyəsində fəal iş aparır.

Ölkəmizin qaz ixracına nəzər saldıqda, ilk növbədə, "Şahdəniz" yatağında hasilata başlanılmasını qeyd etmək lazım gəlir. Belə ki, bu yataqda ilk qazın çıxarılması ilə Azərbaycan özünün potensialını ortaya qoya bildi. Beləliklə, 2007-ci ildən etibarən ölkəmiz qaz idxalçısından ixracatçısına çevrildi. Azərbaycan qazının ilk alıcıları isə Gürcüstan və Türkiyə oldu. TANAP-ın işə düşməsi ilə Azərbaycan qazı Türkiyənin Avropa sərhədlərinə qədər gedib çatdı. Daha sonra TAP boru kəmərinin çəkilib istismara verilməsi ilə Azərbaycandan səmt götürən "mavi yanacaq" Avropa bazarlarına doğru axmağa başladı. Məlum olduğu kimi, 2020-ci ilin sonuncu günündən etibarən Yunanıstan və İtaliyaya, 2021-ci ildən Bolqarıstana qaz nəqlinə başlanıldı.

Artıq ölkəmiz hər il qaz satdığı ölkələrin coğrafiyasını genişləndirir. Bu ildən isə Rumıniya qoşuldu. İlin sonuna qədər gözlənilir ki, Macarıstan da kommersiya idxalına başlasın. Tezliklə Serbiya da Azərbaycan qazını qəbul edəcək. Serbiya – Bolqarıstan qaz İnterkonnektorunun istismara verilməsi ilə bağlı Avropadakı mövcud formalizmlər yerinə yetirilməlidir. Ancaq istənilən halda bu boru kəmərinin istismara verilməsi Azərbaycan qazının coğrafiyasının genişləndirilməsi yönündə atılan addımdır. Çünki ölkəmiz qaz istehsalçısı kimi öz xammalını bazarda satmaq imkanı qazanır.

Belə ki, bu ölkə gələn il üçün Azərbaycanla 400 milyon kubmetr qazın alqı-satqısı ilə bağlı kommersiya sazişi imzalayıb. Eyni zamanda, Serbiya 2027-ci ildən bu qaz həcmlərini 1 milyard kubmetrə qədər artırmağı planlaşdırır. Azərbaycan qazının növbəti alıcıları siyahısında daha iki Avropa dövləti var. Bu, Slovakiya və Albaniyadır. Slovakiya 1 milyarda kubmetr, Albaniya isə 700 milyon kubmetr qaz almaq niyyətindədir. Hələlik, kommersiya sazişi imzalanmasa da, hazırda bu istiqamətdə işlər gedir.

# Qarabağ və Şərqi Zəngəzurda 185 kilometr yol çəkilib

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına əsasən, (AAYDA) respublikanın işğaldan azad olunan ərazilərində ilkin mərhələdə bərpası və yenidən qurulması nəzərdə tutulan 2454 kilometr avtomobil yolunun 185 kilometrində tikinti artıq başa çatıb.**



Məlumata görə, bu işlər ölkə Prezidentinin 16 noyabr 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilən "İşğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində həyata keçirilib.

# Orta aylıq əməkhaqqı 11 faizdən çox artıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əməkhaqqı 2022-ci ilin eyni dövrünə nisbətən 11,3 faiz artaraq 921,1 manat təşkil edib.**



İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq əməkhaqqı daha yüksək olub.

Hesabat dövründə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı isə 1 milyon 729 min nəfər olub, onlardan 897 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 832 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

# Ağdamda vağzal kompleksi inşa olunur

**Ağdamda dəmir yolu və avtovağzal kompleksinin tikintisinə başlanılıb. Bunu "Azərbaycan Dəmir Yolları" QSC-nin (ADY) sədri Rövşən Rüstəmov jurnalistlərə açıqlamasında bildirib.**

Layihə üzrə son razılaşdırma işlərinin getdiyini vurğulayan qurum rəhbəri, həmçinin Bərdə – Ağdam yolunun tikintisi üzrə də işlərin böyük hissəsinin tamamlandığını diqqətə çatdırıb. Onun sözlərinə görə, Ağdam şəhərinə qədər dəmir yolu xətti çəkilib. "Ümumilikdə, layihənin 85 faizi icra olunub. Hazırda Təzəkənd, Bərdə və Köçəri stansiyalarının bərpası həyata keçirilir və yaxın vaxtlarda işlər yekunlaşdırılacaq", – deyə o əlavə edib.

QSC sədri Horadiz – Ağbənd layihəsi üzrə işlərin də 45 faizinin tamamlandığını bildirib. Onun dediyinə görə, layihənin yekunlaşdırılması 2025-ci ilə nəzərdə tutulub.



*XQ*

# Səmərəli vergi siyasəti iqtisadi inkişafı sürətləndirib

## *Dövlət büdcəsinə daxilolmalar isə 15 milyard manatı ötüb*

**İqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki hesabında bildirib ki, cari ilin 11 ayında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 4,1 faiz artaraq 15 milyard 338 milyon manat olub.**




Nazirin sözlərinə görə, bu müddətdə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 18,9 faiz artaraq 9 milyard 16 milyon manat təşkil edib. Ölkəmizdə aparılan səmərəli vergi siyasəti həmin sektordan vergi daxilolmalarının yüksək dinamikasını gerçəkləşdirməklə dayanıqlı iqtisadi artıma əhəmiyyətli töhfə verib.

Yeri gəlmişkən, indidən demək olar ki, diqqətə çatdırılan həmin göstəricilər 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaradıb. Baş nazir Əli Əsədov Milli Məclisin plenar iclasındakı çıxışında bu amili nəzərə alaraq qarşıdakı il və ortamüddətli dövr üçün büdcə siyasətinin konfiqurasiyasının əsas çağırışlar və hədəflər nəzərə alınmaqla müəyyənləşdirildiyini bildirib. Baş nazir, eyni zamanda, bu məqsədlə qarşıdakı dövrdə "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan tədbirlərin icrasının prioritet istiqamət kimi diqqətdə saxlanılacağını, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası və yenidənqurulması, həmçinin Böyük Qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdiriləcəyini vurğulayıb.

Hökumət rəhbəri bütün bunlarla bərabər, ölkəmizin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin gücləndirilməsi, əhalinin sosial müdafiəsi və sosial təminatı məsələlərinə xüsusi əhəmiyyət veriləcəyini, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi, ərzaq təhlükəsizliyinin reallaşdırılması, sahibkarlığın inkişafının dəstəklənməsi, ən vacib prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasətinin aparılması, makroiqtisadi sabitliyin və büdcə dayanıqlılığının gerçəkləşdirməsi kimi prioritetlərin də diqqətdə saxlanılacağını xatırladıb. Baş nazir qarşıya qoyulan bütün bu vəzifələrin uğurla yerinə yetirilməsi üçün dövlətimizin başçısı tərəfindən müəyyənləşdirilən əsas prioritet xərc istiqamətləri əsasında büdcədə tələb olunan maliyyə təminatının yaradıldığını da bildirib.

Qeyd edək ki, builki müsbət nəticələrin əldə olunmasını müsbət makroiqtisadi göstəricilərdən sayılan inflyasiya tempinin getdikcə azalması da şərtləndirib. Hökumətin antiinflyasiya tədbirləri, dünya ərzaq bazarlarında qiymətlərin enməsi, tədiyə balansının profisitli olmasının məzənnə sabitliyini dəstəkləməsi inflyasiya idxalına və bununla da inflyasiya səviyyəsinə azaldıcı təsir edib.

Cari ilin sonunda orta illik inflyasiyanın birrəqəmli səviyyədə olacağı proqnozlaşdırılıb. Dövlət Statistika Komitəsinin ilkin rəqəmlərinə görə, artıq 2023-cü ilin 11 ayında orta illik inflyasiya birrəqəmli–9,4 faiz olub, illik inflyasiya 2,6 faiz təşkil edib. Eyni zamanda, Nazirlər Kabinetində "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılan işçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülüb.

Ümumilikdə, inflyasiyanın iqtisadi artım üçün məqbul səviyyəsinin təmin edilməsi, əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin qorunması, habelə fiskal və monetar siyasətin koordinasiyası istiqamətində zəruri tədbirlər həyata keçirilib.

Qarşıdakı ildə dövlət başçısı tərəfindən müəyyənləşdirilən bir sıra ən vacib prioritet sahələr, o cümlədən, enerji sektoru, nəqliyyat sektoru və tranzit potensialının artırılması, özünüməşğulluq və sosial müdafiənin gücləndirilməsi, gəmiqayırma zavodunun fəaliyyətinin genişləndirilməsi, su təchizatı üzrə layihələrin maliyyələşdirilməsi üçün xarici borcun cəlb edilməsi nəzərdə tutulur. Bu, ilk növbədə, dövlət borcu sahəsində davamlı şəkildə müsbət göstəricilərin əldə olunması, xarici dövlət borcunun daxili dövlət borcu ilə əvəzlənməsi və dövlət borcunun idarəsi üzrə strategiyanın uğurla reallaşdırılmasından irəli gəlir.

Xatırladaq ki, Maliyyə Nazirliyinin yaydığı məlumata əsasən, cari il oktyabrın 1-nə Azərbaycanın dövlət borcu 17 milyard 203 milyon manat və yaxud 2023-cü il üzrə proqnozlaşdırılan ümumi daxili məhsulun (ÜDM) 14,4 faizii qədər olub.

Borcun 11 milyard 109 milyon manatı və yaxud 6 milyard 535 milyon dolları xarici, 6 milyard 94 milyon manatı isə daxili dövlət borcudur. Bunlar isə gözlənilən ÜDM-in müvafiq olaraq 9,3 faizi və 5,1 faizi qədərdir.

Daxili dövlət borcunun əsas hissəsi dövlət büdcəsinin kəsirinin maliyyələşdirilməsi, dövlət qiymətli kağızlar bazarının inkişafının dəstəklənməsi məqsədilə buraxılan dövlət istiqrazlarından ibarətdir. Hesabat tarixində dövriyyədə olan dövlət istiqrazlarının 25,4 faizi 1 illik, 57,9 faizi 2 və 3 illik, 16,6 faizi isə 5 və 7 illik dövlət istiqrazlarının payına düşür. Göründüyü kimi, xarici və daxili dövlət borcu azalmaqda davam edir. Bu, düşünülən uzun müddətli strategiyanın həyata keçirilməsinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyev "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ifadə olunan dəyişikliklə bağlı imzaladığı sərəncama əsasən, 2026-cı ilin sonuna ümumi dövlət borcunun ÜDM-də payının 30 faizini, o cümlədən xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Sonda qeyd edək ki, bu gün büdcə təşkilatlarında nizam-intizamın möhkəmləndirilməsi, vergi və gömrük sahəsində vergi yükünün azaldılması, vergi nəzarəti və kölgə iqtisadiyyatı ilə mübarizə istiqamətində islahatların davam etdirilməsi, şəffaflığın təmin edilməsi, eləcə də həm büdcə gəlirlərinin toplanması, həm də xərclənməsi istiqamətində hər bir vəsaitə qənaətlə yanaşılması, gəlir və xərclərin ahəngdarlığı məsələləri diqqətdə saxlanılır. Eyni zamanda, büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi, büdcə vəsaitlərindən təyinatı üzrə istifadəsinə nəzarət məqsədilə Ortamüddətli Xərclər Çərçivəsinin tətbiqi ilə bağlı islahatlar davam etdirilir.

*Vaqif BAYRAMOV*
*XQ*

# 30 ilin ağrılarını unutduran şəhər – yeni Füzuli

## Burada aparılan nəhəng quruculuq dövlətin gücünü, insanların yurd sevgisini nümayiş etdirir

### II YAZI

**Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmən üzərində qazandığı parlaq qələbə nəticəsində azadlığına qovuşan digər ərazilərimizdə olduğu kimi, Füzuliyə də yeni nəfəs gəlib. İllərdir düşmənin yağmaladığı, dağıdaraq viran qoyduğu yerlər indi geniş tikinti meydançasına çevrilib. Böyük Qayıdış Proqramı çərçivəsində qısa müddətdə Füzuli şəhərində 333 ailə olmaqla, 1186 nəfərin daimi məskunlaşması təmin edilib.**

Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura davamlı səfərləri zamanı bərpa-quruculuq işləri ilə şəxsən maraqlanması, istehsal müəssisələrinin, sosial obyektlərin təməlqoyma, açılış mərasimlərində iştirak etməsi bu istiqamətdə reallaşdırılan tədbirlərin sürətini artırmaqla yanaşı, keyfiyyətinin də yüksək olmasını şərtləndirir.

Yeri gəlmişkən, ötən yazımızda bu məsələyə geniş yer vermiş, eyni zamanda, Füzuli şəhərində məskunlaşmanın hissə-hissə həyata keçirildiyini, növbəti köç karvanının isə dekabrın 7-də gerçəkləşdiyini, 25 ailənin dogma torpaqlarında qarşılanması və açarların təqdim olunması mərasimində iştirak etdiyimizi bildirmiş, habelə onların bir neçəsinin yurda dönüş təəssüratını diqqətə çatdırmışdıq. Bu qeydlərimizin əvvəlində də bir neçə keçmiş məcburi köçkün soydaşımızın Vətənlə bağlı duyğularını oxucularla bölüşməyi məqsədəuyğun bildik.

**Rima İbrahimova:**

– 30 yaşımda düşmənin didərgin saldığı dogma Füzuliyə bu gün 57 yaşımda qayıtmışam. Bu illər ərzində Binə qəsəbəsindəki yataqxanada yaşamışam. Amma indi burada, doğulub boya-başa çatdığım bu şəhərdə özümü xoşbəxt sanıram. Buna görə də çox sevinirəm, hisslərimi ifadə etməkdə çətinlik çəkirəm. Ən ağır günlərdə keçmiş məcburi köçkünlərə diqqət və qayğısını əsirgəməyən dövlətimizə, bizə qələbə sevincini yaşadan Prezident İlham Əliyevə minnətdarlığımı bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyirəm.

**Xatın Şirinova:**

– Mən bura gələndək Qaradağ rayonunun Sahil qəsəbəsindəki yataqxanada məskunlaşmışdım. Amma artıq məcburi köçkünlük həyatım sona çatıb, uzun illər ayrı düşdüyüm doğma yurduma qayıtmışam. 64 yaşımda doğulub boya-başa çatdığım Füzuli şəhərinə məni qovuşduran dövlətimizin başçısına, qəhrəman Azərbaycan Ordusuna ehtiramımı çatdırır, qazilərimizin, şəhidlərimizin qəhrəmanlığını isə heç zaman unutmayacağam.



**Anar Hüseynov:**

– Ev-eşiyim bir kənara, uşaqlıq və gəncliyimi burada qoyub getməyə məcbur qaldım. 25 il qarajda yaşadım, dövlət tərəfindən Bakıda məcburi kökünlər üçün salınan şəhərciklərdən ev verilsə də, qəbul etmədim. Füzuliyə qayıda bilməsəm, elə bu qarajda öləcəm deyə and içdim. Çünki hər çür şəraiti olan imarətdə yaşasam belə Füzulidəki evimin yerini verə bilməyəcəyini yaxşı bilirdim.

Füzulinin işğaldan azad olunması xəbərini mənə kim versə, qarşısında diz çöküb ayaqlarından öpəcəm demişdim. Bu şad xəbəri isə anamdan eşitmək qismətini yaşadım. Heç vaxt elə ağlamamışdım. Anamın qarşısında diz çöküb ayaqlarından öpdüm. Füzuliyə qayıdacaq ilk ailələrdən olacağımızı eşidəndə isə çox sevindim. Ali Baş Komandanımız başda olmaqla bizə bu sevinci yaşadan Azərbaycan Ordusuna, əsgərlərimizə minnətdaram. Allahdan şəhidlərimizə rəhmət diləyir, bu yolda sağlamlığından keçən qazilərimizə şəfa arzulayıram.

**Eldəniz Mehraliyev:**

– Ali Baş Komandan İlham Əliyevın rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı düşmən tapdağından azad etdi və ölkəmizin ərazi bütövlüyü tam bərpa olundu. Məhz bu tarixi qələbənin nəticəsidir ki, bu gün biz doğma yerlərə qayıdırıq. Ailəmlə birlikdə bu gün çox sevincliyik.

Ötən illər ərzində torpaqlarımızın azad olunacağına, mütləq qələbə qazanacağımıza daim inanmışam, ümidli olmuşam. Şükürlər olun ki, 30 ildən sonra ailəmlə birgə zəfər sevincini yaşadım.

İndi bax, burada, bu yeni qurulan şəhərdən baxanda düşmənin vəhşiliyi–köhnə yurd yerinin xarabalıqları görünür. Bəli, bir tərəfdə xarabalığa çevrilən, digər tərəfdə isə yenidən qurulan və gözəlləşən Füzuli var. Həmin viran qalan yurd yerində indi acılı və dəhşət dolu günlər yaşadığımı xatırlayanda kövrəlirəm. Elə bilirəm ki, sanki 30 il əvvəlki vaxtdayam. Amma yeni inşa edilən binaları, tikinti meydançasını, həmçinin burada yaradılan şəraiti və gündən-günə canlanan şəhəri görəndə keçmişdən ayrılıb, ümid dolu gələcəyə baxıram. Ürəyim açılır və ölkəmlə, xalqımla, dövlətimlə qürur duyuram.





Müsahiblərimizin dediklərinə əlavə edək ki, işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı bərpa və yenidənqurma işləri aparılır, vacib infrastruktur layihələri həyata keçirilir. Eyni zamanda, keçmiş məcburi köçkünlərin Böyük Qayıdış Proqramı çərçivəsində dədə-baba yurdlarına qayıdışı da gerçəkləşdirilir. Xatırladaq ki, 2026-cı ilin sonunadək 140 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura geri dönməsi nəzərdə tutulur.

Düşməndən təmizlənən digər yaşayış sahələrində olduğu kimi, Füzuli şəhərində də də genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, rayonun kənd və qəsəbələrinin yenidən qurulması ilə bağlı müəyyən layihələr reallaşdırılır, avtomobil və dəmir yolları çəkilir.

Prezident İlham Əliyevin bu il oktyabrın 16-da Füzuli rayonuna səfəri zamanı ikinci və üçüncü yaşayış komplekslərinin, 240 yerlik uşaq bağçasının, inzibati binanın, idman kompleksinin, Cuvarlı və Qoçəhmədli kəndlərinin təməlini atması, Ağdam–Füzuli avtomobil yolunun tikintisi ilə tanış olması bölgənin sürətlə dirçəldilməsi istiqamətində fasiləsiz işlərin görüldüyünü göstərir.

Yeri gəlmişkən, Füzuli şəhərinin Baş planına uyğun olaraq, əhalinin yüksək həyat səviyyəsini təmin etmək məqsədilə müasir tələblərə cavab verəcək yaşayış məhəllələrinin salınması nəzərdə tutulub. Dövlətimizin başçısı tərəfindən təməli qoyulan ikinci yaşayış kompleksinin çoxfunksiyalı zonada yerləşən iki ərazidə qurulması planlaşdırılıb. Ümumilikdə, 2288 nəfər üçün nəzərdə tutulan kompleks üçün 9 hektardan çox ərazi ayrılıb.

İkinci yaşayış kompleksində, ümumilikdə, 653 mənzildən 13-ü birotaqlı, 209-u ikiotaqlı, 281-i üçotaqlı, 150-si dördotaqlı olacaq. Üçüncü yaşayış kompleksinin inşası isə 12 hektardan çox torpaq sahəsində aparılacaq. Burada tikiləcək 863 mənzildə isə 3022 nəfər yaşayacaq.

Hər iki yaşayış kompleksindəki binaların altında qeyri-yaşayış sahələri, eləcə də həyətdə istirahət meydançası, velosiped və yerüstü avtomobil dayanacaqları inşa ediləcək. Binalar daimi su, elektrik təchizatı və yüksəksürətli internetlə təmin olunacaq. İstilik və isti su təchizatı mərkəzləşdirilmiş qazanxana sistemi ilə həyata keçiriləcək. Binaların inşasında istilik tutumlu təbii materiallardan istifadə olunacaq.

Prezident İlham Əliyevin iştirakı ilə bu il oktyabrın 16-da təməli qoyulan uşaq bağçası 2,4 hektar sahədə inşa ediləcək. Layihəyə əsasən, uşaq bağçası üçün əsas bina, oyun zonası, avtodayanacaq və texniki zona yaradılacaq. Məktəbəqədər təhsil müəssisəsinin ikimərtəbəli binasında qrup, inzibati, texniki və tibb otaqları, idman və musiqi zalları, mətbəx olacaq. Burada uşaqların rahatlığı, ilkin biliklərə yiyələnmələri və əylənmələri üçün hər cür şərait təmin ediləcək. Uşaq bağçasının həyətində oyun meydançaları salınacaq və digər zəruri infrastruktur yaradılacaq.

Füzuli şəhərində təməli qoyulan inzibati bina üçün isə 12 hektardan çox sahə ayrılıb. İnzibati binanın tikintisinin 4,4 hektardan çox ərazidə aparılması planlaşdırılıb. Eyni zamanda, burada parad meydanı və parkın da salınması qərara alınıb.

### Rayonun kəndləri yenidən qurulur

Füzuli şəhərində yaşayış məhəllələrinin salınması ilə yanaşı, rayon ərazisində 10 kəndin bərpası da nəzərdə tutulur. Eyni zamanda, 2026-cı ilin sonuna qədər Füzulinin yaşayış sahələrində 22 min nəfərin yaşaması planlaşdırılır.

Rayonun kəndlərinin tarixi ənənələr yaşadılmaqla müasir üslubda inşa edilməsi qərara alınıb. Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad olunan ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin baş məsləhətçisi Eldar Seyidovun bildirdiyinə görə, bu il oktyabrın 16-da təməli qoyulan Cuvarlı kəndinin yenidən bərpası 115 hektar sahədə layihələndirilib. Kəndə 1697 nəfərin köçürülməsi, 291 fərdi evin və 2-4 mərtəbəli 21 yaşayış binasının tikilməsi planlaşdırılıb.

Kəndin bərpasının birinci mərhələsində 28,1 hektarda 129 fərdi ev tikiləcək. Bu dövrdə yaşayış məntəqəsində 129 ailə–508 nəfər məskunlaşdırılacaq. Kənddə çoxfunksiyalı inzibati bina, Bayraq meydanı, kafe-restoran, mərasim evi, çörək sexi, aptek, idman klubu, ailə-sağlamlıq mərkəzi, 312 şagird yerlik orta məktəb, 50 yerlik uşaq bağçası və digər sosial obyektlər inşa olunacaq.

Prezident İlham Əliyevin iştirakı ilə bu il oktyabrın 16-da təməli qoyulan Qoçəhmədli kəndinin layihələndirilən ümumi ərazisi isə 94,62 hektardır. Bu yaşayış sahəsinə məskunlaşma zamanı 1364 nəfərin köçürülməsi nəzərdə tutulur. Kənddə 341 fərdi evin tikilməsi planlaşdırılır.

Qoçəhmədli kəndində birinci mərhələdə 204 fərdi evin inşası üçün 18,1 hektar torpaq sahəsi ayrılıb və bərpa layihələri yekunlaşandan sonra yaşayış məntəqəsinə 204 ailə olmaqla 710 nəfərin köçürülməsi planlaşdırılıb. Eyni zamanda, Qoçəhmədlidə müxtəlif inzibati binaların, 264 şagird yerlik məktəbin, 25 yerlik uşaq bağçasının, Bayraq meydanının, ticarət obyektlərinin tikintisinin də aparılması qərara alınıb.

Onu da qeyd edək ki, hər iki kəndin–Cuvarlı və Qoçəhmədlinin tarixi ənənələri qorunmaqla müasir üslubda layihələndirilib. Bu yaşayış sahələrində də enerjiyə qənaət məqsədilə alternativ enerjidən istifadə olunacağı və istilik tutumlu evlərin tikiləcəyi nəzərdə tutulub.



Prezident İlham Əliyevin cari il noyabrın 8-də rayonda Qarğabazar kəndinin təməlini qoyması ilə bu yaşayış sahəsində də bərpa-quruculuq işlərinə başlanılıb.

Füzuli Beynəlxalq Hava Limanından 10 kilometr məsafədə, rayonun cənub-qərbində yerləşən kəndin inzibati ərazisinə Yal-Pirəhmədi və Sərdarlı kəndləri də daxildir. Qarğabazar kəndinin layihələndirilən ümumi ərazisi 152,6 hektardır. 2 min nəfərin köçürülməsi nəzərdə tutulan kənddə, ümumilikdə, 527 fərdi evin tikilməsi planlaşdırılır.

Qarğabazarın inşasının birinci mərhələsində 181 fərdi evin tikilməsi üçün 35,5 hektar torpaq sahəsi ayrılıb. Bu mərhələdə yaşayış məntəqəsinə 181 ailənin – 629 nəfərin köçürülməsi planlaşdırılıb. Bundan başqa, kənddə inzibati binanın, 384 şagird yerlik orta məktəbin, 128 yerlik uşaq bağçasının, kitabxananın və digər sosial obyektlərin tikintisi də nəzərdə tutulub. Kənd tarixi ənənələri qorumaqla müasir üslubda layihələndirilib. Enerjiyə qənaət etmək məqsədilə alternativ enerjidən istifadə və istilik tutumlu evlərin inşası nəzərdə tutulub.

Kənddə tarixi memarlıq abidələri – Şah Abbas karvansarası və Şah Abbas məscidi də bərpa olunacaq. Qarğabazar kəndi Şəki–Qarabağ–Hindistan ipək ticarəti yolu üzərində yerləşdiyindən bu yoldan istifadə edən tacirlər uzun yolun yorğunluğunu çıxarmaq üçün Qarğabazar karvansarasında gecələyirdilər. Qarabağın ən qədim məscidlərindən olan, 1684-cü ildə inşa edilən Şah Abbas məscidi el arasında Hacı Qiyasəddin məscidi kimi də tanınır.

### Yol infrastrukturu da müasirləşdirilir

Dövlətimizin başçısının tapşırıq və göstərişlərinə əsasən, abadlıq-quruculuq işləri sırasında yolların yenidən qurulması, müasir səviyyəyə çatdırılması istiqamətində çox mühüm layihələr icra olunur.

Ölkə rəhbərinin Qarabağ və Şərqi Zəngəzurla bağlı imzaladığı sərəncamlar da yol infrastrukturunun təzələnməsini daha da sürətləndirir. Təbii ki, avtomobil yolları hər bir ölkənin iqtisadi qüdrətinin göstəricisidir. Ölkənin istehsal və sənayenin bütün sahələrinin inkişafı birbaşa olaraq yol örtüyünün hansı vəziyyətdə olmasından asılıdır. Bu amil işğaldan azad edilən ərazilərdə istər magistral, istərsə də rayon, kənd və qəsəbələrarası avtomobil yolları layihələrinin icrası zamanı da diqqətdə saxlanılır.



Prezident İlham Əliyevin bu il Füzuli rayonuna sonuncu səfərin zamanı Ağdam–Füzuli avtomobil yolunun tikintisi ilə tanış olması da qeyd edilən fikrin bariz ifadəsidir.

Xatırladaq ki, 2021-ci ilin oktyabrında təməli qoyulan və inşası sürətlə davam etdirilən adıçəkilən avtomobil yolu Qarabağ iqtisadi rayonu ərazisində icra olunan, işğaldan azad edilən rayon və kəndlərin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq layihələrdən biridir. Bərdə-Ağdam avtomobil magistralının davamı olan bu yol Ağdam, Ağcabədi və Füzuli rayonlarının ərazisindən keçir.

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatında bildirilir ki, uzunluğu 64,8 kilometr, hərəkət hissəsinin eni 15 metr təşkil edəcək magistral 4 hərəkət zolaqlı olmaqla, birinci texniki dərəcəyə uyğun salınır. Yol üzərində tikilən 5 körpünün, 2 yolötürücünün tikintisi, yol əsasının inşası bitən hissələrdə isə asfalt-beton örtüyünün döşənməsi işləri sürətlə davam etdirilir.

Magistralın istifadəyə verilməsi ilə Bərdədən Ağdam və Füzuliyədək, həmçinin əks istiqamətdə rahat gediş-gəliş təmin ediləcək, eyni zamanda, düşməndən təmizlənən rayon və kəndlərin sosial-iqtisadi inkişafına mühüm təsir göstərəcək.

***

Füzulinin bərpa-quruculuq layihələrindən danışarkən, onu da deyək ki, düşməndən təmizlənən ərazilərdə ilk idman kompleksinin də artıq bu rayonda tikilməsinə başlanılıb. Belə bir infrastrukturun inşa olunacağı Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nda da nəzərdə tutulub. Ümumi sahəsi 17 hektar olan kompleksin baş planına əsasən, burada 200 yerlik tamaşaçı tribunası olan basketbol, voleybol, həndbol, badminton, minifutbol məşqlərinin və yarışların, eyni zamanda, idmanın müxtəlif növləri üzrə turnirlərin keçirilməsinə imkan verən universal zalın inşası planlaşdırılıb.

### Məşğulluq probleminin həlli diqqətdə saxlanılır

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə Füzuli şəhərində əmək yarmarkası keçirib.

Füzuli şəhərindəki Mirzə Uluqbəy adına 1 saylı tam orta məktəbdə reallaşan məşğulluq tədbiri şəhərə köçürülən sakinlərin sosial şəraitinin yaxşılaşdırılması məqsədi daşıyıb. Dövlət və özəl sektordan olan və Füzulidə fəaliyyət göstərən 20 işəgötürənin iştirak etdiyi tədbirdə müxtəlif istiqamətlər üzrə 200-ə yaxın vakansiya təqdim edilib.

Yarmarkaya qatılan sakinlərə vakansiyalar, iş öhdəlikləri haqqında məlumat verilib, müraciət edən şəxslərin CV-ləri qəbul edilərək nəzərdən keçirilib, uyğun namizədlərin qeydiyyatı aparılıb. Həmçinin, iştirakçılara Dövlət Məşğulluq Agentliyinin aktiv məşğulluq tədbirləri ilə bağlı məlumat verilib.

Daha sonra yarmarkada iştirak edən işəgötürənlərlə işğaldan azad olunan ərazilərdə görülən işlər və birgə əməkdaşlıq məsələlərinin müzakirəsinə dair görüş keçirilib. İşəgötürənlərə Dövlət Məşğulluq Agentliyinin fəaliyyəti, məşğulluq tədbirləri, Füzuliyə köçürülən sakinlərin məşğulluqlarının təmini istiqamətində həyata keçirilən layihələr barədə məlumat verilib.

Bildirilib ki, artıq şəhərdə məskunlaşdırılan 258 ailənin üzvlərinin məlumatları təhlil olunub, əmək qabiliyyətli şəxslərin məşğulluq imkanları qiymətləndirilib və məşğulluq tədbirlərinin cəlbinə başlanılıb. Artıq 73 nəfər münasib işlə təmin edilib.

Beləliklə, Füzuliyə səfər zamanı müşahidə etdiklərimiz deməyə əsas verir ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü uğurlu və qətiyyətli siyasət, işğaldan azad olunan ərazilərdə fasiləsiz davam etdirilən quruculuq layihələri Qarabağ və Şərqi Zəngəzurun hər bir guşəsi kimi, Füzulini də tezliklə cənnətə çevirəcək.

*Vaqif BAYRAMOV,*
*Səbuhi MƏMMƏDOV*
*XQ*

**Bakı – Füzuli – Bakı**

BEYNƏLXALQ HƏYAT

# Uran bahalaşacaqmı?

## ABŞ Rusiyadan idxala qadağa qoydu

**ABŞ Konqresinin Nümayəndələr Palatası Rusiya mənşəli az səviyyədə zənginləşdirilmiş uranın idxalını qadağan edən qanun layihəsini təsdiqləyib. "The Hill" xəbər verir ki, məhdudiyyət həm demokratlar, həm də respublikaçılar tərəfindən dəstəklənib. Bəs bundan sonra ABŞ uransız nüvə texnologiyalarını necə inkişaf etdirəcək?**



Sənəd qanunun qüvvəyə minməsindən 90 gün sonra az səviyyədə zənginləşdirilmiş uranın idxalına qadağanın tətbiqini nəzərdə tutur. Layihə ABŞ Senatı və Prezident Co Bayden tərəfindən təsdiqlənməlidir. Qanun nüvə reaktorlarının işini dəstəkləmək üçün başqa uran mənbələri olmadığı təqdirdə qadağanın ləğvinə icazə verir. ABŞ Energetika Nazirliyi Dövlət Katibi və Xəzinədarlıq Katibi ilə məsləhətləşərək idxal icazəsi verə bilər. Qadağa 2040-cı ilin sonuna qədər davam edəcək.

ABŞ-da elektrik stansiyalarında istifadə olunan uranın böyük hissəsi xaricdən gətirilir. ABŞ Energetika Nazirliyinin Enerji İnformasiya Administrasiyasının məlumatına görə, tədarükün, təxminən, 12 faizi Rusiyanın payına düşür. Dövlət katibinin nüvə enerjisi üzrə köməkçisi Ketrin Haff bildirib ki, ABŞ-ın Rusiya nüvə yanacağından asılılığı milli təhlükəsizliyə kritik təhlükə yaradır. Respublikaçıların nümayəndəsi Keti MakMorris-Rogers isə ABŞ-ın Rusiya uran tədarükündən asılılığını "təhlükəsizliyimiz üçün ən aktual təhdidlərdən biri" adlandırıb. Konqresmen MakMorris-Rogersin sözlərinə görə, təkcə 2022-ci ildə Rusiyanın dövlət korporasiyası "Rosatom" və onun törəmə şirkətləri uran üçün ABŞ-dan 800 milyon dollardan çox vəsait alıb.

Ağ Ev də qanunvericilərlə həmfikir olduğunu vurğulayır. Co Bayden hökuməti bəyan edib ki, uranın zənginləşdirilməsi imkanlarının artırılması milli təhlükəsizlik prioritetidir, çünki Rusiyadan "asılılıq" ABŞ iqtisadiyyatı üçün risk yaradır. ABŞ-ın uran idxalında Rusiyanın payı 30 faizdən çoxdur. Buna görə də, ABŞ prezidenti Co Bayden Konqresdən enerji təhlükəsizliyinin gücləndirilməsi üçün 6 milyard dollar, o cümlədən uranın zənginləşdirilməsi potensialının artırılması üçün 2,2 milyard dollar ayırmağı xahiş edib. Ağ Evin məsələ ilə bağlı hələ avqust ayında açıqladığı məlumatda bildirilirdi ki, əgər tədbir görülməsə, Rusiya ABŞ-ın müttəfiqləri və tərəfdaşlarının zərərinə uyğun olaraq qlobal uran bazarına nəzarəti davam etdirəcək: "Bu təşəbbüsün uğurlu olması üçün Rusiya Federasiyasından zənginləşdirilmiş uran məhsullarının ABŞ-a idxalına da uzunmüddətli qadağa tətbiq etmək lazımdır".

Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra ABŞ Rusiya iqtisadiyyatının əksər sektorlarına qarşı sanksiyalar tətbiq edib. Lakin uranın ixracı məhdudiyyətlərə məruz qalmayıb. 2023-cü ilin birinci yarısının sonunda ABŞ Rusiyadan 696,5 milyon dollar məbləğində 416 ton uran alıb ki, bu da 2002-ci ildən bəri maksimum dəyərdir. İl ərzində tədarükün dəyəri 2,5 dəfə artıb, Rusiyanın Amerika uran idxalında payı isə 32 faizə çatıb. Rusiyadan əlavə, ABŞ Böyük Britaniyadan uran alışını 28 faiz artıraraq radioaktiv məhsula 383,1 milyon dollar ödəyib. Birləşmiş Ştatlara ən çox uran satan ölkə fransa olub. 2022-ci ildə Paris ABŞ-a 319 milyon dollar dəyərində uran satıb. Ən böyük tədarükçülər beşliyinə Almaniya (277 milyon dollar) və Kanada (247,5 milyon dollar) daxildir.

İyunun ortalarında "The New York Times" qəzeti ABŞ-ın Rusiya ilə iqtisadi əlaqələri kəsmək istəyinə baxmayaraq, Vaşinqtonun Moskvadan zənginləşdirilmiş uran almağa davam etdiyini yazmışdı. Nəşrin məlumatına görə, Amerika şirkətləri ABŞ-da emissiyasız enerjinin yarıdan çoxunu istehsal edən Rusiya yanacağı üçün təxminən 1 milyard dollar ödəyir. Qəzet qeyd edirdi ki, uran istehsalında Rusiyanın Rosatom şirkəti ilə rəqabətə başlamaq üçün ABŞ-a on ildən çox vaxt lazımdır. "Bloomberg" Rusiya uranına qoyulan qadağaya görə bu növ yanacağın qiymətinin 20 faiz arta biləcəyini ehtimal edir. Bu da Vaşinqtona uran bazarında mövqelərinin gücləndirməyə mane ola bilər. Hazırda birjalarda təbii uranın fyuçers qiyməti 83 dollardır. "S&P Global Commodity Insights" şirkətinin məlumatına görə, qiymət artımının əsas səbəbi maliyyə fondları tərəfindən uranın alınmasıdır. Digər amillərə məhdud təchizat, həmçinin Rusiya və Nigerdən uran tədarükünə təsir edə biləcək geosiyasi risklər də daxildir.

Ancaq Rusiya ABŞ-dan fərqli olaraq uran idxalına məhdudiyyət qoymayacaq. Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov bildirib ki, Moskva ABŞ-a nüvə yanacağının ixracına qadağa qoymağı düşünmür. "Rosatom"un məlumatına görə, 2022-ci ildə dünyada uran istehsalı 6 faiz artaraq 50,4 min ton çatıb. Eyni zamanda, UxC hesablamalarına görə, ötən il urana qlobal tələbat 63,5 min ton, kommersiya və strateji ehtiyatların formalaşması nəzərə alınmaqla isə 74,3 min ton təşkil edib.

**S.ELAY**
**XQ**

# Ukraynada döyüşlər yenidən şiddətləndi

## Prezident Zelenski isə Vaşinqtonda səfərdədir



**Bu günlər Rusiya-Ukrayna cəbhəsinin bütün təmas xətti boyu ağır döyüşlər gedir. Döyüşlərin ən qaynar nöqtəsi Donetskdən 20 kilometr aralıda yerləşən Avdeyevka şəhəri və ətrafı hesab olunur. Son günlər burada Rusiya hərbçilərinin fəallaşdığı hiss olunur.**

Ukrayna ordusunun sözçüsü bildirib ki, "Avdeyevka istiqamətində hücumlar zamanı ruslar "kamikadze" pilotsuz uçuş aparatlardan və təyyarələrdən geniş istifadə edirlər. Hər iki tərəfdən çox sayda itkilər var.

Qeyd etmək lazımdır ki, Rusiya tərəfi Avdeyevka uğrunda döyüşlərdə yeni taktikadan istifadə edir. Belə ki, qurudan zirehli maşınların və havadan aviasiyanın dəstəyilə döyüşə əsasən kiçik qruplar göndərilir. Məqsəd böyük əsgəri itkilərin qarşısını almaqdır.

Dünən Rusiya silahlı qüvvələri ərazidə yenidən hücum əməliyyatlarını bərpa ediblər. Belə ki, ruslar Avdeyevkada bir neçə yeni məhəlləni ələ keçiriblər. Bəzi təhlilçilər Ukraynanın hərbi ehtiyatlarının tezliklə tükənəcəyini iddia edirlər.

Fakt budur ki, Rusiya-Ukrayna müharibəsi artıq 20 aydır ki, davam edir. Qərbin bəzi dairələrində tərəflərə atəşkəslə bağlı çağırışlar artır. Ukraynanın Avropa İttifaqına (Aİ) üzvlüyü məsələsi də gündəmdədir.

Qeyd edək ki, bu ilin noyabrında Avropa Komissiyası Ukraynanın Avropa İttifaqına üzvlük yolunda irəliləyiş əldə etməsinə dair hesabat yayıb. Sənəddə Kiyevlə üzvlüklə bağlı danışıqlara başlamaq tövsiyəsi yer alıb.

Belə bir qərar üçün Aİ-yə üzv olan bütün dövlətlərin razılığı lazımdır. Məsələ dekabrın 14-15-də bloka daxil olan ölkələrin liderlərinin sammitində müzakirə olunacaq. Üzv ölkələrin böyük əksəriyyəti Ukraynanı Aİ sıralarında görmək istəyir. Lakin bunun əleyhinə çıxan ölkələr də var.

Məsələn, Macarıstan Ukraynanın Aİ-yə daxil olması və yardım ayrılması ilə bağlı danışıqların əleyhinədir. İki gün əvvəl bu məsələni Ukrayna və Macarıstan liderləri telefonla yenidən müzakirə ediblər. Onların ümumi razılığa gəlib-gəlmədiyi bəlli deyil.

Ukraynanın xarici işlər naziri Dmitro Kuleba Avropa İttifaqı (Aİ) liderlərinin Kiyevin quruma üzvlüyü ilə bağlı danışıqlara "yaşıl işıq" yandırmaqdan mümkün imtinasını həm Ukrayna, həm də Aİ-nin özü üçün dağıdıcı olacağını açıqlayıb. Nazir xatırladıb ki, Ukrayna xalqı təkcə özü üçün deyil, Avropa və bütün dünya üçün vuruşur.

Yeri gəlmişkən, dekabrın 11-də Ukrayna Prezidenti Volodimir Zelenski Ağ evin hazırkı sahibi Co Baydenin dəvətilə Vaşinqtona yola düşüb. Dünən Ukrayna lideri ABŞ müdafiə naziri Lloyd Ostin və Senatın bir çox üzvləri ilə görüşlər keçirib.

V.Zelenskinin Konqresin Nümayəndələr Palatasının sədri Mayk Consonla görüşü medianın diqqət mərkəzində olub. Belə ki, ABŞ parlamentinin aşağı palatasında üstünlük təşkil edən respublikaçı konqresmenlər Ukraynaya 61 milyard dollarlıq maliyyə yardımının müzakirəsi üçün Ağ ev qarşısında əlavə şərtlər irəli sürüblər. Bununla da faktiki olaraq qanun layihəsini bloklayıblar.

Birləşmiş Ştatların siyasi isteblişmenti yaxın günlərdə Milad tətillərinə çıxacaq. Ekspertlərin fikrincə, Ukraynaya yardım məsələsi qarşıdakı bir neçə gün ərzində həllini tapmasa, Ukrayna daha çətin vəziyyətə düşə bilər. Ağ evin Zelenskini tələsik ABŞ-a dəvət etməsi məhz bununla bağlıdır.

Yeri gəlmişkən, Moskvada Zelenskinin Vaşinqton görüşlərini böyük diqqətlə izləyirlər. Rusiya rəsmiləri ümid edirlər ki, Ukrayna lideri bu dəfə ABŞ-dan əliboş qayıdacaq. Bəzi mənbələr vurğulayır ki, Moskva status-kvonu saxlamaqla sülh danışıqlarına başlamaqda maraqlıdır. Rəsmi Kiyev isə ölkənin suverenliyi tam təmin olunmayınca, heç bir danışıqlara getməyəcəyini vurğulayır.

Dünən axşam bu yazı çapa hazırlanarkən ABŞ və Ukrayna prezidentləri Ağ evdə görüşüb bir çox aktual məsələləri, xüsusilə ABŞ-ın Ukraynaya növbəti maliyyə və hərbi yardımının verilməsi problemini müzakirə edəcəklər. Görüşdən sonra dövlət başçıları mətbuat konfransı keçirəcəklər.

Yeri gəlmişkən, fədakar Ukrayna xalqı bu ölkənin ərazi bütövlüyü uğrunda ağır mücadiləsini davam etdirmək əzmindədir. Bunu Kiyev Beynəlxalq Sosiologiya İnstitutunun iki gün əvvəl keçirdiyi sorğunun nəticələri də təsdiq edir.

Ölkə əhalisinin yarıdan çoxu hesab edir ki, Qərbin Ukraynaya yardımı azalsa belə, hətta yeni ərazilərin itirilməsi riskinə baxmayaraq, Rusiyaya qarşı azadlıq müharibəsini davam etdirmək lazımdır.

Eyni zamanda, hər üç ukraynalıdan biri əmindir ki, işğal olunmuş ərazilərin azad edilməsi qeyri-müəyyən müddətə təxirə salınsa, döyüşləri Qərbdən ciddi təhlükəsizlik zəmanəti alaraq bitirmək daha yaxşıdır.

Hər bir müharibənin taleyi, ilk növbədə, döyüş meydanlarında həll olunur. Rusiya ilə Ukrayna arasında savaşın nəticəsi, təbii ki, hansı tərəfin daha güclü və əzmli olmasından asılıdır. Ümid etmək istərdik ki, bu müharibə haqq və ədalətin qələbəsi ilə bitsin.

**Məsaim ABDULLAYEV**
**XQ**

# Akademik İsa Həbibbəyli Daşkənddə

**Dekabrın 12-də Daşkənddə Özbəkistan Elmlər Akademiyasının 80 illiyinə həsr olunmuş yubiley tədbirləri keçirilib. Tədbirlərdə AMEA-nın prezidenti akademik İsa Həbibbəyli də iştirak edir.**



Açılış mərasimində AMEA-nın prezidenti akademik İsa Həbibbəyli çıxış edərək Azərbaycan və Özbəkistan arasında bütün sahələrdə olduğu kimi elm sahəsində də əlaqələrin daim inkişaf etdiyini bildirib. Ölkələrimizin Elmlər akademiyalarının qarşılıqlı elmi əlaqələrindən danışan akademik İsa Həbibbəyli son illərdə elmi-mədəni əməkdaşlığın bütün istiqamətlərdə yüksək templə inkişaf etdirildiyini qeyd edib. Təkcə Azərbaycanla Özbəkistan deyil, ümumiyyətlə Türk dünyasının bütün ölkələrinin elmi qurumları arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu xüsusi vurğulayıb və özbəkistanlı həmkarlarını təbrik edib.

***

Akademik İsa Həbibbəyli 12 dekabr Ümummilli lider Heydər Əliyevin anım günündə Daşkəndəki Heydər Əliyev park-meydanında Ulu öndərin büstünü ziyarət edib.

**XQ**

# Azərbaycanşünas alimə ali mükafat verilib

**Türkiyə Cümhuriyyətinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumunun ali mükafatı olan "Türk dilinə xidmət" mükafatına layiq görülənlər sırasında Türkiyənin Egey Universitetinin professoru, Türkiyə Yazarlar Birliyi, Türk Mədəniyyəti Araşdırma İnstitutunun üzvü, görkəmli yazıçısı-alim Əli Yavuz Akpınar da var.**



Ali mükafata layiq görülən Yavuz Akpınar Azərbaycanın yaxın dostu, AYB-nin üzvü, BDU-nun fəxri professorudur. Hələ sovet dövründə müasir Azərbaycan ədəbiyyatının qurucusu olan Mirzə Fətəli Axundzadə haqqında doktorluq işi müdafiə etmiş, Azərbaycan mədəniyyətinin təbliği sahəsində gördüyü böyük işlərə görə 1989-cu ildə Dövlət mükafatına layiq görülmüşdür. Yavuz Akpınarın Azərbaycanda türkçülük ənənələrinin oyanış və formalaşmasında, böyük bir ədəbiyyatçılar nəslinin yetişməsində əvəzsiz xidmətləri və zəhməti olmuşdur.

Bakıda Qulam Məmmədli, Həmid Araslı, Mirzağa Quluzadə, Rəsul Rza, Abbas Zamanov, Kamal Talıbzadə, Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Aqşin Babayev, Elçin, Anar, İsa Həbibbəyli, Kamil Vəliyev, Rəfael Hüseynov, Əsgər Rəsulov, Vilayət Quliyev, Sabir Rüstəmxanlı, Moskvada Əkbər Babayev və başqaları ilə dərin dostluq əlaqələri olan Yavuz Akpınarın Azərbaycan ədəbiyyatının qardaş Türkiyədə tanıdılmasında müstəsna xidmətləri danılmazdır. Azərbaycan Türk Mədəniyyətini Tanıtma Dərnəyinin prezidenti mərhum İbrahim Bozyellə nəşr etdirdikləri "Qardaş ədəbiyyatlar" jurnalı vasitəsilə Türkiyədə Azərbaycan, özbək, türkmən, tatar ədəbiyyatının tanıdılmasında əvəzsiz rolu olub. Alimin şəxsi arxivində Azərbaycan ziyalılarına aid yüzlərlə məktub saxlanılır. Akademik İsa Həbibbəyli onu "Azərbaycan ədəbiyyatının Türkiyədə baş konsulu" adlandırıb, Vilayət Quliyev isə Akpınarın "Ümumtürk mədəniyyətinə təmənnasız xidmətini haqq yolu"na xidmət kimi dəyərləndirib.

Görkəmli alim Azərbaycan ədəbiyyatını təkcə Türkiyədə, türk dünyasında deyil, uzaq ABŞ-da da uğurla təbliğ edən alimlərdən olmuşdur. 1992-1993-cü illərdə Miçiqan Universitetində türkologiya sahəsində qonaq mühazirəçi kimi çalışdığı illərdə "Amerikanın səsi" radiosunun Azərbaycan xidməti ilə əməkdaşlıq etmiş, davamlı olaraq ədəbiyyat və mədəniyyətimizlə bağlı müəllif proqramının müəllifi və aparıcısı olmuşdur.

Dəfələrlə redaksiyamızın qonağı olan fədakar alim və dəyərli dostumuz professor Yavuz Akpınarı aldığı ali mükafat münasibəti ilə təbrik edir, can sağlığı, fəaliyyətində uğurlar arzulayırıq.

**N.QƏDİMOĞLU**
**XQ**

Futbol qalmaqalı

# Yaşıl meydan rinq deyil...

## Bu hadisə ciddi qalmaqala səbəb olub

**Türkiyənin "Ankaragücü" klubunun prezidenti Faruk Koca da daxil olmaqla, 3 şübhəli şəxs həbs edilib. Buna 59 yaşlı funksionerin Superliqanın son turunda "Rizəspor"la matçdan sonra meydana daxil olaraq, baş hakim Halil Umut Meleri yumruqla vurmağı səbəb olub.**



Hadisədən sonra xəstəxanaya yerləşdirilən Halil Umut Meler Ankara Polis İdman Təhlükəsizlik Şöbəsi əməkdaşlarına ifadə verib. Hakim ona qarşı hücumda iştirak edən hər kəsdən şikayətçi olub.

Bununla əlaqədar fövqəladə iclas keçirən Türkiyə Futbol Federasiyası bütün liqalarda matçların qeyri-müəyyən müddətədək təxirə salınmasına qərar verib. Türkiyə Aktiv Futbol Hakimləri və Müşahidəçiləri Dərnəyi isə referilərin bu həftə çempionat oyunlarına çıxmayacaqlarını elan edib.

FIFA prezidenti Canni İnfantino şəxsi instaqram hesabındakı paylaşımında meydanda və ya meydandan kənarda şiddətə qətiyyən yer olmadığını bildirib. Qurum rəsmisi "Ankaragücü" - "Rizəspor" matçından sonra baş verən hadisələrin tamamilə qəbuledilməz olduğunu vurğulayıb: "Hakimlər, futbolçular, azarkeşlər və nümayəndələr oyundan həzz almaq üçün təhlükəsiz olmalıdırlar. Müvafiq orqanları bunu ciddi şəkildə yerinə yetirməyə çağırıram".

Qeyd edək ki, "Ankaragücü" – "Rizəspor" qarşılaşması 1:1 hesabı ilə yekunlaşıb.

**L.QURBANOVA**
**XQ**


# BİLDİRİŞ

"RƏVAN-TURAN" MMC (VÖEN 1403045021) müflis elan olunması ilə əlaqədar Bakı Kommersiya Məhkəməsinə ərizə ilə müraciət etmişdir.

e-2-2(113)-6139/2023 saylı işə məhkəmə baxışı 20 dekabr 2023-cü il saat 14.20-yə təyin olunmuşdur. Debitor və kreditorlar Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilərlər.

Əlaqə telefonu- (012) 525-20-74.

Ünvan- AZ1040. Bakı şəhəri, Bakıxanov qəsəbəsi, O.Əfəndiyev küçəsi.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 272 (30388) 13 dekabr 2023-cü il, çərşənbə

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

### 2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

Futbol

## Messi və Ronaldo Ərəbistanda qarşılaşacaqlar

***“İnter Mayami” futbol klubu mövsümöncəsi matçlarını Səudiyyə Ərəbistanında keçirəcəyini açıqlayıb. Komanda orada 2 oyun keçirəcək. Yanvarın 29-da “İnter Mayami” “Əl-Hilal”, fevralın 1-də isə “Əl-Nəsr”lə qarşılaşacaq.***



Maraqlıdır ki, fevralın 1-də “İnter Mayami”də çıxış edən argentinalı hücumçu Lionel Messi “Əl-Nəsr”in şərəfini qoruyan portuqaliyalı hücumçu Kriştiano Ronaldo ilə görüşə bilər.

Xatırladaq ki, Messi 2023-cü ilin yayından “İnter Mayami”də çıxış edir. Onun klubla müqaviləsi 2025-ci ilə qədərdir. Ronaldo da öz növbəsində 2023-cü ilin yanvarın 1-dən “Əl-Nəsr”in oyunçusudur. Portuqaliyalının klubla müqaviləsi də 2025-ci ilə qədərdir.

***XQ***

İdman xəbərləri

## “Formula 1”də ən yaxşı ötmələr

**“Formula 1” üzrə dünya çempionatında 2023-cü il mövsümünün ən yaxşı ötmə əməliyyatı müəyyənləşdiriləcək.**




Mövsüm ərzində bu meyara görə fərqlənən 5 pilot namizədlər sırasında yer alıb. Yarışın rəsmi “X” hesabındakı siyahıda “Aston Martin” pilotu Fernando Alonsonun 3, “Ferrari”dən Şarl Leklerin 2, “Red Bull”dan Serxio Peres, “Haas”dan Kevin Maqnussen, “McLaren” komandasından Lando Norrisin hərəyə 1 ötməsi göstərilib. Fernando Alonsonun Azərbaycan Qran-prisində “Ferrari”dən Karlos Saynsı keçməsi də namizədlərdən biridir.

Xatırladaq ki, başa çatan mövsümdə “Red Bull”un pilotu Maks Ferstappen qalib adına layiq görülüb.

## Kollec tələbələrinin dama yarışı

**Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş XV Respublika Spartakiadasının qalibləri müəyyənləşib.**



Orta ixtisas təhsil müəssisələrinin tələbələri arasında keçirilən turnirin dama yarışında Azərbaycan Dövlət Pedaqoji Kollecinin komandası 1-ci yeri tutub. Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci 2-ci, Bakı Texniki Kollecinin damaçıları 3-cü pillədə qərarlaşıblar.

Oğlanların mübarizəsində isə qalib adına Qida Sənayesi Kolleci sahib çıxıb. Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci gümüş, Sənaye və Texnologiya Kolleci isə bürünc medallar qazanıblar.

## Ən yaxşı futbolçu kim olacaq?

**“Globe Soccer Awards” 2023-cü ilin ən yaxşı futbolçusu adına namizədlərin yekun siyahısı bəlli olub.**



Siyahıda yer alan 11 oyunçu mükafata iddialıdır. Namizədlər sırasında Cud Bellinqem, Vinisius Junior (hər ikisi “Real”, İspaniya), Kərim Benzema (“Əl-İttihad”, Səudiyyə Ərəbistanı), Kevin De Bruyne, Erlinq Holann, Bernardo Silva (hamısı “Mançester Siti”, İngiltərə), Kilian Mbappe (PSJ, Fransa), Lionel Messi (“İnter Mayami”, ABŞ), Viktor Osimxen (“Napoli”, İtaliya), Məhəmməd Salah (“Liverpul”, İngiltərə) və Kriştianu Ronaldudur (“Əl-Nəsr”, Səudiyyə Ərəbistanı) yer alıblar.

İlin ən yaxşı futbolçusunun adı 2024-cü il yanvarın 19-da məlum olacaq.

Xatırladaq ki, Fransa millisinin hücumçusu Kilian Mbappe 2022-ci ildə bu mükafatı qazanıb.

***Leyla SABİRQIZI***
***XQ***

Texnologiya

## Avropa “Süni zəka”nı “qayda”ya salır

**Avropa İttifaqı (Aİ) dünyada ilk olaraq süni zəka (AI) üzrə kompleks hüquqi paket ilə bağlı razılıq əldə edib.**



Belə ki, 36 saat davam edən danışıqlardan sonra Aİ Parlamenti və İttifaqa üzv ölkələr bir sıra məsələlər, o cümlədən üzün tanınması və bu texnologiyadan mühakimə sistemində istifadə olunması üzrə razılığa gəliblər.

Danışıqlardan sonra Aİ-nin daxili bazar üzrə komissarı Tierry Breton “X” sosial platformasında əldə olunan sazişi “tarixi” adlandırıb. O qeyd edib ki, Avropa süni zəkadan istifadə üçün aydın qaydalar müəyyən edən ilk qitə olacaq.

Müzakirə olunan təklifə bu növ geniş AI xidmətləri üçün təhlükəsizlik tələbləri ilə bağlı qaydalar, eləcə də güclü modellərin sərt tənzimlənməsi daxildir.

***XQ***

## Rusiyada “Votsap”dan imtina

***Rusiya Federasiyasının (RF) Tomsk vilayətində dekabrın 1-dən etibarən müəllimlərə “Votsap”dan xidməti məqsədlər üçün istifadə etmək qadağan edilib. “Gazeta.ru” yazır ki, buna səbəb olaraq, şagirdlərin məxfi informasiyalarının təhlükəsizliyi göstərilib.***



Məlumata görə, yeni tələbdən imtina, əmək intizamının pozulması kimi qiymətləndiriləcək. Bildirilir ki, həmkarlar və valideynlərə təhlükəsiz ünsiyyət üçün müəllimlər RF-nin icra etdiyi “Sferum” rəqəmsal platformasından, həmçinin “VKontakte” mesencerindən istifadə edə bilərlər.

Müəllimlər “Votsap” kimi xarici mesencerlərdə əlaqə saxlamağa davam edərsə, onlara qarşı tədbir görüləcək.

***Ayan SƏMƏDQIZI,***
***tələbə-jurnalist***

## “ChatGPT” “tənbəlləşib”

**“ChatGPT” çatbotunun istifadəçiləri süni intellektin “tənbəllik” əlamətlərini göstərməyə başladığından, sorğulara cavab verməkdən imtina etməsindən və ya daha ləng və onun az dəqiqliklə işləməsindən şikayətləniblər.**




“OpenAI”nin tərtibatçıları problemi təsdiqləyiblər, lakin bunun nə ilə əlaqəli olduğunu bilmirlər. Tərtibatçılar iddia edirlər ki, sonuncu süni intellekt yenilənməsi noyabrın 11-də həyata keçirilib və şikayətlər yalnız bir müddət sonra gəlməyə başlayıb. Bu onu göstərir ki, çatbotun davranışındakı dəyişikliklər tərtibatçıların son hərəkətlərinin nəticəsi deyil və öz-özünə baş verib.

“Şirkət problemi həll etmək üçün fəal şəkildə həll yolları axtarır, lakin indiyə qədər effektiv üsul və ya ən azı müvəqqəti həll yolu tapılmayıb”.

***XQ***

Sağlamlıq

## Yarpız: əvvəl qoxla, sonra yoxla



***Yarpaqları uzunsov, çiçəkləri göyümtül çəhrayı rəngdə, kəskin iyi olan yarpızı kim tanımır? Bəs onun faydalarını necə, bilirsinizmi? Mütəxəssislərin fikrincə, yarpızın tərkibindəki əsas təsirli maddələr uçucu yağlar, menthol, azulen, puleson, diosmin, gulukozid, saponin şirəsi və şəkərlərdir.***

Yarpız nanə kimi yay fəslində toplanıb qurudulur, ilboyu istifadə edilir. Lap qədim zamanlarda insanlar soyuqlayanda yarpız çayı içməklə sağalıblar.

Bitki həzm sistemində çox faydalıdır, iştah açandır. Həzmi asanlaşdırır, köpü aradan götürür, qazqovucudur. Yarpızda olan uçucu efir yağları sinirlərə və qan – damar sisteminə pozitiv və qıcıqlandırıcı təsir edərək, iltihabı azaldır. Eyni zamanda, artritdə, öd kisəsi, qaraciyər problemlərində, eləcə də mədə-bağırsaq xərçəngində istifadə olunur.

Yarpızın faydaları qədər zərərli xüsusiyyətləri də var. Belə ki, yarpızdan əldə edilən uçucu yağlar çox kəskin olduğundan toksiki təsir göstərə bilir. Buna görə hamilə qadınlar ondan uzaq durmalıdır. Gün ərzində ən cox 3 stəkan içilməlidir. 18 yaşdan kiçik uşaqların və süd verən anaların yarpız çayı içmələri tövsiyə edilir.

***Z.HÜSEYNLİ***
***XQ***

Hava

## Yağış gah yavaş, gah da güclü olacaq

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, dekabrın 13-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir.***



Yarımadanın bəzi yerlərində intensivləşəcəyi ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək. Gecə 3-5°, gündüz 5-8° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 764 mm civə sütunu olacaq, nisbi rütubət 80-85 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1-6° , gündüz 6-10° isti, dağlarda gecə 3-8°, gündüz 0-3° şaxta olacaq.

***Q.QASIMOV***
***XQ***

***✓ “Neftnəqltexnologiya” maarifləndirmə və araşdırmalar İctimai Birliyinə məxsus dairəvi möhür itdiyi üçün etibarsız sayılır.***

***✓ Xaçmaz rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən Səlimova Bəxtikə Abusalam qızına verilmiş 027490 nömrəli şəhid anası olduğunu təsdiqləyən vəsiqə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektorluğu və professor-müəllim heyəti Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya atası

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov Milli Məclisin Regional Məsələlər Komitəsinin sədri Siyavuş Novruzova və Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Azərbaycan Respublikası Milli Məclisinin deputatı Siyavuş Novruzova əzizi

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya və Milli Məclisin deputatı Siyavuş Novruzova əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun rəhbərliyi və kollektivi Rasim Kazımova əzizi

**MÖHÜBBƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Odlar Yurdu Universitetinin rektoru Əhməd Vəliyev və universitetin kollektivi Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevaya və yaxınlarına əzizləri

**YAŞAR ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3274
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır
00:00